Kafedra: Psixologiya, Pedaqogika və Sosial fənnlər kafedrası
İxtisas: Məktəbəqədər təhsil
Fənn: Məktəbəqədər Pedaqogika

Mövzu: 1. Məktəbəqədər pedaqogikanın mövzusu və tədqiqat metodları

Plan:

1. Məktəbəqədər pedaqogikanin predmeti, funksiyaları, əsas pedaqoji anlayışlar,
2. Məktəbəqədər pedaqogikanın mənbələri, metodoloji əsasları.
3. Məktəbəqədər pedaqogikanın tədqiqat metodları, məktəbəqədər pedaqogikanın başqa elmlərlə əlaqəsi.
4. Məktəbəqədər tərbiyənin yaranma tarixi.Rusiyada məktəbəqədər tərbiyənin inkişafı.
5. Azərbaycanda fəaliyyət göstərən ilk məktəbəqədər tərbiyə müəssələrinin fəaliyyəti.
6. Məktəbəqədər tərbiyə müəssələrində tərbiyə və təlim proqramları üzrə məşğələlərin təşkili

Ədəbiyyat:

1. Ağahüseyn Həsənov. Məktəbəqədər pedaqogika Bakı-2000
2. R. Mursaqulova–N. Rüstəmova Məktəbəqədər pedaqogika Bakı-2012.
3. N.Kazımov. Ə .Həşimov. Pedaqogika. Bakı-1996.
4. Ə.Ağayev.Y.Talıbov.A.Eminov.İ.İsayev. Pedaqogika Bakı-2016.
5.Ə.Ağayev Təlim prosesi: Ənənə və müasirlik. Bakı-2006.

Pedaqogika- yunan sözü olub, (paydaqoqos) sözündən götürülmüşdür.Mənası uşaq ötürən deməkdir. Eramızdan 300 il əvvəl ilk tərbiyə müəssələri, məktəblər qədim Çində,Hindistanda, misirdə,Yunanıstanda yaranmağa başlayır,sinifli cəmiyyətdə yalnız hakim sinfin uşaqları xüsusi tərbiyə ala bilirdi.
Quldarlıq cəmiyyətindən sonra meydana gələn feodalizm cəmiyyətində feodallar və təhkimli kəndlılərdən ibarət yeni antoqonist siniflər yaranır.Feodalizm cəmiyyətdə tərbiyə əsasən dini ehkam və zadəganlıq sinfi istiqamətində inkişaf edirdi.Təlim-tərbiyə müəssələrində yalnız zadəgən uşaqları dini və cəngavərlik təhsili alırdılar. Məktəbəqədər pedaqogika pedaqoyi elmlər sistemində xüsusi yeri olan elmdir. Məktəbəqədər pedaqogikanın özünün məqsədi,vəzifəsi,metodları,mənbələri,anlayışları,qanunauyğunluqları və funksiyaları vardır. Məktəbəqədər tərbiyənin tarixi antik dövrə təsadüf edir. İlk dəfə Platon uşaqların ictimai müəssələrdə tərbiyə olunmasını irəli sürmüşdür.Uşaqları meşəyə, məbədlərə gəzintiyə aparmağı zəruri saymış,uşaq oyunları ücün meydançaların olmasını lazım bilmişdir. Lakin məktəbəqədər yaşlı uşaqların ilk təlim-tərbiyə proqramı hazırlayan böyük çex pedaqoqu Y.A.Komenski olmuşdur.
Y.A.Komenskinin " Ana məktəbi" əsəri məktəbəqədər tərbiyənin ilk proqramıdır və o öz əhəmiyyətini indi də saxlanmaqdadır.

Məktəbəqədər pedaqogikanın məqsədi anadan olandan altı yaşa kimi uşaqların ayri-ayri yaş dövrlərindəki inkişaf xüsusiyyətlərini öyrənmək,onların təlim-tərbiyəsi prosesinin vəzifələrini,məzmununu,texnalogiyasını müəyyən etməkdir.Məktəbəqədər pedaqogikanın predmetini altı yaşa kimi olan uşaqların ümumi və fərdi psixoloji xüsusiyyətlərini öyrənmək təşkil edir.

Təlimin metod və texnalogiyalarindan istifadə edilməsində varislik və müasirlik prinsiplərinə əməl edilməsi,xarici təcrübənin milli bazada tətbiqi ən düzgün yanaşma hesab edilə bilər.

Məktəbəqədər pedaqogikanın vəzifələri aşağıdakılardır:

-Altı yaşadək uşaqların inkişafı və tərbiyəsinin xüsusiyyətlərini öyrənmək;

-Məktəbəqədər yaşlı uşaqların sosial-inkişaf və tərbiyəsinə müasir yanaşmaları tədqiq etmək;

-Uşaqların təlim-tərbiyəsinin cəmiyyətin müasir tələblərinə uyğunluğunu müəyyənləşdirmək;

- Məktəbəqədər yaşlı uşaqların milli adət və ənənələrə yiyələnməsi yollarını müəyyənləşdirmək;

-Uşaqların tərbiyəsi və təlimində fəal təlim metodlarından və yeni texnalogiyalardan istifadə edilməsinin forma və metodlarını işləyib hazırlamaq.

Məktəbəqədər pedaqogikanın funksiyaları:

-Azərbaycan Respublikasının Təhsil haqqında qanunun qarşıya qoyduğu tələblərə uyğun olaraq məktəbəqədər yaşlı uşaqlara təhsil prosesinin perspektivlərini öyrətmək;

-Məktəbəqədər tərbiyə müəssələrində təlim-tərbiyə proqramına müvafiq olaraq uşaqlar,tərbiyə etmək;

-Məktəbəqədər tərbiyə müəssələrində təhsil proqramının elmi proqnozlar vasitəsilə təkmilləşdirilməsi,yeniləşdirilməsi və moderniləşdirilməsi;

- yaradıcı elmi-tədqiqatların proqnozları əsasında KONSTRUKTİV TEXNOLOGİYANIN layihəsinin hazırlanması.

Məktəbəqədər pedaqogikanın funksiyalarının reallaşması ücün elmi-tədqiqat metodlarından istifadə olunur.

Əsas pedaqoyi anlayışlar. Hər bir elmin özünəməxsus anlayışları,qanunauyğunluqları,prinsipləri mövcuddur.Məktəbəqədər pedaqogika,məktəbəqədər yaşlı uşaqların təhsili və tərbiyəsi haqqında elm olduğundan onun əsas anlayışı inkişafı,təlim tərbiyə və təhsildir. Müasir dövrdə tərbiyə 3 mənada işlədilir.

1.Geniş sosial mənada

2.Geniş pedaqoyi mənada

3.Dar mənada.

Geniş sosial mənada tərbiyə məktəbəqədər yaşlı uşaqların sosial həyatının bütün sahələrinə,onun şəxsiyyətinə,sosial mühitin təsirini əhatə edir.

Geniş pedaqoji mənada tərbiyə məktəbəqədər müəssələrdə həyata kecirilən bütün ğtəhsil və tərbiyə işini əhatə edən mütəşəkkil və məqsədyönlü tərbiyə prosesini nəzərdə tutur.

Dar mənada tərbiyə uşaq şəxsiyyətinin hər hansı bir xarakter əlamətinin,mənəvi keyfiyyətinin,əqidəsinin formalaşmasınatəsir göstərən xüsusi bir

fəaliyyətdir.Məsələn uşağın “ vətənpərvərlik”,” humanizm”,” mərhəmətlilik” tərbiyəsi fəaliyyətilə məşğul olmaq.
Göründüyü kimi tərbiyə sosial hadisə olaraq uşaqları həyata hazırlamağı pedaqoyi mənada uşaqların inkişafı ücün xüsusi təşkil olunmuş şəraitin yaratmağı nəzərdə tutur.
İnkişaf-uşaqlarda müəyyən kəmiyyət və keyfiyyət dəyışikliyidir.Bu müxtəlif faktorlar və tərbiyənin nəticəsində baş verir. Məktəbəqədər dövrü xarakterizə edərkən yaş dövrləri,inkişaf xüsusiyyətləri,qanun və qanunauyğunluqlar (həm pedaqoji ,həm də psixoloji) nəzərdə tutulur.
Təlim xüsusi təşkil olunmuş pedaqoji prosesdir.Burada tərbiyəçi ilə uşağın qarşılıqlı məqsədyönlü fəaliyyəti nəzərdə tutulur.Uşaqlar tərbiyəçinin rəhbərliyi altında yeni informasiyalar almaqla bilik,bacarıq və vərdişlərə yiyələnirlər.Təlim təhsil alma vasitəsidir.
Təlim prosesində uşaqlar bilik,bacarıq.vərdişlərlə silahlanmaqla yanaşı tərbiyəçinin rəhbərliyi altinda digər fəaliyyət növlərinə də yiyələnirlər.Təlim əsasən sistemləşdirilmış bilik,bacarıq və digər vərdiılərə yiyələnmək prosesidir.
Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların dünyagörüılərini genişləndirməkdə radio,televiziya verilişləri.kompyuterlər və digər müxtəlif informasiya vasitələri müəyyən rol oynayır.
Məktəbəqədər pedaqogikanın mənbələri. Məktəbəqədər pedaqogikanın mənbələrindən biri də məktəbəqədər tərbiyə müəssələrinin inkişafı və fəaliyyəti haqqında dövlətin qərar və göstərişləridir.Hazırki demokratiya və müstəqillik şəraitində vaxtilə xalq maarifinə aid dövlət sənədlərinə tənqidi yanaşmaqla Azərbaycan Respublikasının Konstitusiyasında məktəbəqədər tərbiyə haqqındakı müddüalardan dövlət qanunvericiliyinin əsaslarından bir sənəd kimi istifadə olunur. Məktəbəqədər pedaqogikanın mənbələrindən biri də xalq pedaqogikasıdır. Uşaqların inkişafı və tərbiyəsi haqqında xalq pedaqogikasında o qədər zəngin material var ki, onu heç bir şeylə əvəz etməkolmaz.Xalq pedaqogikasında uşaq hələ anadan olmamışdan onun qayğısı və tərbiyəsi haqda faydalı fikirlər vardır.
Azərbaycan maarifcilərinin və mütərəqqi fikirli pedaqoqların məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə dair fikirləri məktəbəqədər pedaqogika elminin mənbələrindəndir.
Mənbələrdən biri də dini mənbələrdir. Din insan tərbiyəsində müəyyən rol oynayır.”Qurani-Kərimdə” ailə qurmaq ,qadın hüququ,ailədə qadının mövqeyi uşaqların tərbiyəsi,qızlara münasibət və s. məsələlər öz əksini tapmışdır. O cümlədən Məhəmməd Peyğəmbərin hadisələrində elm və alimlər haqqında kifayət qədər materiallar vardır.
Xarici və milli pedaqogika tarixi, pedaqoji təcrübə, sənədlərin öyrənilməsi, ayri-ayri fənlərin metodikası da mənbələrə daxildir.
Məktəbəqədər Pedaqogikanın metodoloji əsasları. Məktəbəqədər pedaqogikafəlsəfənin ümumi müddüalarına əsaslanır. Məktəbəqədər pedaqogika dialektikanı əldə rəhbər tutmaqla pedaqoji hadisələri digər hadisələrlə qarşılıqlı əlaqədə konkret iş təcrübəsilə vəhdətdə şərh edir.

Dialektika bütün hadisələri inkişafda götürür. Həyatda da hər şey dəyişir, keçmiş öz yerini yeniyə verir. Tərbiyə, onun məzmunu və metodları da daim inkişaf təkmilləşir.
Pedaqoji proses ictimai proses olduğu ücün fəlsəfi qanunlara istinad edir.Maddi aləmin dərk olunmasının başlıca istiqamətini materialist dialektika müəyyən edir. Mütərəqqi pedaqoqlar və filosoflar tərbiyənin obyektiv ictimai mahiyyətini sübut etmişlər.Fəlsəfədə olan iki başlıca istiqamət pedaqogikada da özünü göstərir.İstər ümumi ,istərsə də məktəbəqədər pedaqogikanın fəlsəfi əsasını dialektik materializm təşkil edir. Bu o deməkdir ki, pedaqoji proses,təlim,tərbiyə və təhsil probleminin nəzəri və praktik həllində metodoloji istiqaməti fəlsəfədən alır.
Dialektika bütün hadisələri inkişafda götürür. Həyatda da hər şey dəyişir, keçmiş öz yerini yeniyə verir. Tərbiyə,onun məzmunu və metodları da daim inkişaf edir və təkminləşir.
Məktəbəqədər yaşlı uşaqların inkişafının reallaşmasının, bütövlükdə pedaqoji sistemin effektliyinə nail olmağın əsasında müasir fəlsəfənin işıqlandırdığı bir sıra məsələləri (akseoloji),sistemli,yaradıcı fəaliyyət.şəxsiyyət,kulturoloji və sinergetik yanaşma) və s. öz işində rəhbər tutur.Aksioloyi yanaşma-insanın özünü inkişafda və tərbiyədə,təhsildə əldə edilmiş qiymətli nə varsa,onun həcmini təyin etməyə,dəyərləndirməyə imkan verir.
Kommunikativ (Əlaqəli) yanaşma indiki şəraitdə uşaqların tərbiyəsində - oyununda,əməyində,əhval-ruhiyyəzsində ünsiyyət qurmasında, fiziki sağlamlığında,mədəni davranış və şüurun inkişafında çox əhəmiyyətlidir.
Sistemli yanaşma dedikdə, uşağın təlim və tərbiyəsini.onun qarşıya qoyduğu vəzifəni,işin məzmununu,metodunu,şəraitin təşkili formasını istiqamətləndirmək nəzərdə tutur. Sistemli yanaçma imkan verir ki,təhsildə toplanmış qiymətli nə varsa,onun həcmi müəyyən edilsin.Bura uşağın sağlamlığı,mədəniyyəti, dərketmə qabiliyyəti daxildir.
Kulturoloji yanaşma-insanın yerini,vaxtını müəyyən edir.İnsanın doğulduğu gündən,yaşadığı ölkənin,şəhərin, bölgənin tarixi kecmişini və xalqın etnik qiymətli nəyi varsa ona bələd ilsun. Daimi yaşadığı yerin adət və ənənəsini öyrənsin.
Fəaliyyətə yaradıcı yanaşma aparıcının müəyyənləşdirilməsi əsas fəaliyyətdə yanaşma uşağın müxtəlif tələblərini ödəmək imkanının yaradılması,özünü fəal yaradıcı bir subyekt kimi göstərməsi nəzərdə tutulur.Uşağın inkişafında başlıca yeri oyun tutur. Oyunun yaradıcı xarakteri,təşkili,cəlbedici emosionallığı müstəqil yaradıcı fəaliyyətə imkan verir ki,onlara rəhbərlik edən tərbiyəçi hər uşağın nəyə qadir olduğunu,fəallığını,yaradıcılıq qabiliyyətini üzə çıxarsın.
Şəxsi yanaşma- uşaqlarda müsahibə qabiliyyətini inkişaf etdirmək,onu maraqlandırmaq,onun meylini öyrənmək məktəbəqədər dövr ücün çox əhəmiyyətlidir.Şəxsiyyət düzgün təşkil olunmuş,məzmunlu pedaqoji şəraitdə formalaşır.Buna görə də şəxsiyyət fəaliyyətdə müəyyən edilir.
Sinergetik (bir istiqamətə hərəkət) yanaşma-imkan verir ki, təhsil prosesində iştirak edən (tərbiyəci,uşaq,valideyn) hər bir şəxs özünü inkişafın subyekti kimi göstərsin. Hər bir subyekt müəyyən gücə malikdir. O, ümumi inkişafda özünü inkişaf etdirməyə, oradan da özünü təkmilləşdirməyə keçir.

Məktəbəqədər pedaqogikanın tədqiqat metodları. Məktəbəqədər pedaqogika digər elmlər kimi tədqiqatlar nəticəsində inkişaf edib, yeni-yeni müddəalarla zənginləşir.

Pedaqoji tədqiqatlar təlim- tərbiyə işini zənginləşdirmək, inkişafın qanun və qanunauyğunluq əlaqələrini aşkar etmək məqsədi daşıyan planlı şəkildə aparılan elmi axtarışlardır. Tədqiqatın metodologiyası dedikdə tədqiqatlar zamanı metodların və nəzərin müddəaların tətbiq olunan prinsiplərin məcmusu başa düşülür. Məktəbəqədər pedaqogikada pedaqoji məsələlərin öyrənilməsində dialektik yanaşma prinsipi əsas götürülür. Bundan əlavə bəzi xüsusi metodoloji prinsirlərə (fəallıq prinsipi, sistemli yanaşma və s.) əsaslanır.

Tədqiqatda fəaliyyət prinsirinə əsasən fəaliyyətin bütövlükdə öyrənilməsi, onun ayrı-ayrı növlərinin vəhdətdə götürülməsi nəzərdə tutulur.

Pedaqoji tədqiqatlarda **şəxsiyyətə yanaşma** prinsipi şəxsiyyətin pedaqoji prosesin obyekti və subyekti kimi götürülməsini, onun təbii imkanlarının maksimum inkişafını, kollektiv və şəxsiyyətin qarşılıqı əlaqəsini, təlim-tərbiyə Işində şəxsiyyətin tələbatı, maraq və daxili fəallığını nəzərdə tutur.

Pedaqoji tədqiqatda sistemli yanaşma prinsipi məsələlərin həllinin ,forma və metodlarının qarşılıqlı vəhdətini tam halda nəzərdən keçirməyi tələb edir.

Tədqiqatda qarşıda duran vəzifələri yerinə yetirməkdə metodlardan istifadə edilir.

Metodlar- imkan verir ki, bilikləri əldə etmək üçün təlim-tərbiyə prosesində şüurlu və məqsədyönlü iş aparılsın,müxtəlif fəaliyyət növləri təşkil edilsin, onlar ümumiləşdirilsin və müstəqil elmi-tədqiqat işi aparılsın.

Bütün bunlarla yanaşı metodların genişliyini nəzərə alaraq onları belə qruplaşdıraq:

a) Emprik metodlar (elmi məlumatların toplanması,fakt və hadisələrin təsviri.)
b) Nəzəri metodlar (nəzəriyyəni öyrənməyin qoyuluşu və modernləşdirilməsinin yolları.)

Müqayisəli-tarixi metod müxtəlif tarixi dövrlərdə dünya təcrübəsində ayri-ayri təhsil,tərbiyə və təllim sistemlərini müqayisəli şəkildə öyrənməyə,bu əsasda məktəbəqədər təhsil-tərbiyə sisteminin təkminləşdirilməsi yollarını müəyyənləşdirməyə şərait yaradır.

Məktəbəqədər pedaqoji tədqiqatlarda emprik-nəzəri metodlar əlaqəli şəkildə tətbiq olunur. Belə metodlara eksperiment müşahidə,təhlil və tərkib,induktiv və deduktiv riyazi-statistik metodları daxildir.

Məktəbəqədər pedaqogikanın başqşa elmlərlə əlaqəsi.

Məktəbəqədər pedaqogika bir cox elmlərlə əlaqədədir.Pedaqogikanın tədqiqat obyekti olan tərbiyə ilə bu və digər səviyyədə fəlsəfə.etika,estetika, psixologiya ədəbiyyat kimi digər elmlər məşğul olur.Pedaqogika öz elmi inkişafı və formalaşmasında həmin elmlərdən də səmərəli surətdə bəhrələnir. Bununla yanaşı, məktəbəqədər pedaqogika tərbiyə və təlimin məzmunu və metodikası ilə əlaqədar elmi-texniki biliklərin müəyyən sahələri ilə də münasibətdə olur.Belə olmasa o,elmi-texniki bilikləri,yenielmi nəzəriyyələri tədrisproqramlarına,dərsliklərə və təhsilin məzmununa daxil edə bilməz. Bu da təlim-tərbiyə sahəsində səthiliyə,ğeri qalmaya,tərbiyə prosesinin həyatla,elmi-texniki nailiyyətlərlə ayaqlaşa bilməməsinə gətirib çıxara bilər.Məktəbəqədər pedaqogikanın daha sıx əlaqədə olduğu elmlər sirasına

psixologiya, insan anatomiyası və fiziologiyası,etika,estetika və məktəb gigiyenası dadaxildir.

Psixologiya. Xüsusi pedaqoyi psixologiya müxtəlif yaş dövrlərində uşaqların psixi fəaliyyətinin inkişaf qanunlarını öyrənib müəyyən edir.Uşaqların psixi prosesləri və fərdi psixi xüsusiyyətlərini yaxşı bilmədən təlim-tərbiyə işlırini lazımı səviyyədə qurmaq olmaz.

İnsan anatomiyası və fiziologiyası müxtəlif yaş dövrlərində uşaq orqanizminin müxtəlif üzvlərinin quruluşu və inkişafxüsusiyyətləri haqqında müvafiq məlumat verməklə, pedaqogika ücün əlverişli şərait yaradir.Pedaqogika həmin məlumata istinad etməklə,uşaqların və fiziki və fizioloji cəhətdən normal inkişaf yollarını müəyyən edir.Məsələn,İ.P.Pavlovun ali əsəb fəaliyyəti.birinci və ikinci siqnal sisteminin qarçılıqlı əlaqəsi haqqında nəzəriyyələrə əsasən təsəvvür və qavrayışların necə formalaşmasını fizioloji cəhətdən aydınlaşır.Eləcə də dinamik stereotip haqqında Pavlov təlimi tərbiyədə rejimin rolu,adər və vərdişlərin fizioloji mexanizmi haqqında ətraflı məlumat verir.

Daxili üzvlərin fəaliyyət dinamikasını,əsəb sisteminin fəaliyyətində ürəyin, qan dövranının işini yaxşı öyrənmədən uşaqlara yanaşma,onlara tərbiyəvi cəhətdən təsir göstərmək çox çətin olur.

Etika-fəlsəfi elm kimi əxlaq nəzəriyyəsindən bəhs edir.pedaqogika əxlaq tərbiyəsinin nəzəriyyəsini,onun tarixini,üstqurum kimi rolunu.ayri-ayri formasiyalarda xarakterini öyrənərkən bu elmin müddüalarından istifadə edir.

Məktəb gigiyenası- şagirdlərin təlim-tərbiyə prosesi ilə əlaqədar olaraq fiziki inkişafının qanunauyğunluqlarını,məktəb binası,avadanlıq,kabinə,labaratoriya və emalatxanalara,təlim əməyinə verilən ,səhiyyə tələbləırini,idman və bədən tərbiyəsinin səhiyyəsini,habelətəlim-tərbiyənin diğər tibbi məsələlərini öyrənir.Bütün bunlardan pedaqogika təlim-tərbiyəişlərini daha yaxşı və səmərəli qurmaq üçün istifadə edir.

Hər bir müəllim və tərbiyəci müstəqil respublikamızın xöşbəxt gələcəyi naminə ləyaqətli vətəndaşlar yetişdirmək üçün bu elementləri də mükəmməl bilməlidir.

Məktəbəqədər pedaqogika ona yaxın olan və tamamlayan digər elmlərlə də sıx surətdə bağlıdır.Məsələn, uşaqlara ana dilinin öyrədilməsi metodikasının əsasını dilçilik təşkil edir. Uşaqları təbiətlə tanış etmək metodikasını işləyib hazırlamaq ücün kənd təsərrüfatının əsaslarını bilmək lazımdır.

Uşaq şəxsiyyətinin formalaşmasında incəsənət və ədəbiyyat da mühüm yer tutur.Təsviri sənət,musiqi sənəti sahəsindəki bilikləri,bədii ədəbiyyatı, xüsusən uşaq ədəbiyyatını,bədii qiraəti və nağıl etməni uşaqlara öyrətmək təlim-tərbiyə prosesində zəruri şərtlərdən biridir.

Cəmiyyətin inkişafı və təkmilləşməsi ilə əlaqədar uşaqların məktəbəqədər tərbiyə müəssələrində tərbiyəsinə böyük ehtiyac duyulmuş və bu haqda ilk fikri utopik sosiolistlər söyləmişlər.

XIX əsrin ikinci yarısından başlayaraq qadının cəmiyyətdə fəal mövqeyi,istehsalatda və ailə münasibətlərindəki rolu məktəbəqədər tərbiyə müəssələrinintəşkilini zəruri etmişdir. Hərtərəfli inkişaf etmiş adamların hazırlanmasında məktəbəqədər tərbiyə ocaqlarının açılması haqqında elmi və obyektiv müddüalar bu dövrdə irəli sürülmüşdür. Bu dövrdə hamıya pulsuz təhsilvermə,uşaqların fabrik əməyinin qadağan edilməsi ideyaları irəli sürülür, tərbiyənin məhsul istehsalı ilə əlaqələndirilməsi əsaslandırılırdı.

İctimai tərbiyənin lazımı nəticə verməsi ücün uşaqların erkən yaşdan tərbiyə ocaqlarına cəlb edilməsi lazım bilinmişdir. İnsan hüquqlarının pozulması və əməyin istismarı dövründə qadının ümumi normadan artıq işləməsi onun analıq hissiyatını tapdalayır, qayğısını məhdudlaşdırır, uşaq tərbiyəsi üçün vaxtını əlindən alır və onu fiziki cəhətdən şikəst edirdi.Buna görə bu dövrdə demokratik əhval-ruhiyyədə yazılmış qərar və ğöstərişlərdə qadınların ağır və orqanizm ücün zərərli iş obyeklərində işlıməsi qadağan edilir, doğum dövründə işdən azad edilməsi və əmək haqqının saxlanması qeyd olunur. Bütün iş obyektlərində -zavod və fabriklərdə körpə və kicik yaşlı uşaqlar ücün körpələr evi açılması zəruri bilinir, üc saatdan bir yarım saat körpəni yedizdirməkdən ötrü vaxt verilməsi məsləhət görülür.

Məktəbəqədər tərbiyənin inkişaf tarixi. Məktəbəqədər tərbiyənin elementləri hələ bəşəriyyətin başlanğıc mərhələsi olan ibtidai icma quruluşu dövrünə təsadüf olunur.İbtidai icma cəmiyyətində uşaqları həyata hazırlamaq ücün əmək və ovculuğu əks etdirən primitiv oyunlardan istifadə ediblər. Belə oyuncaqlarla oyun zamanı uşaqlar yaşlıları təqlid ediblər. Mənəvi tərbiyənin güclü vasitələrindən biri folklor (nağıllar,atalar sözü,zərb məsəllər və s.) nümunələri əsasında olublar.

Qədim Yunanıstanda meydana gələn pedaqoji nəzəriyyələrdə məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsindən də bəhs edilib. Afina və Sparta tərbiyə sistemindən daha geniş istifadə olunub.Sparta tərbiyəsində hərbiləşdirmə geniş yer tutur, qul sahiblərinin uçaqları kiçik yaşdan qullara qarşı amansızlıq,fiziki cəhətdən dözümlülük və s. ruhunda tərbiyə olunmasına ciddi fikir verilirdi.

Dünyanın məhşur filosofları Platon və Aristotel də bu haqda öz fikirlərini söyləyiblər.

Platon (eramızdan əvvəl 427-347-ci illər) mühüm pedaqoji anlayışları,xüsusilə dini tərbiyə,ictimai quruluşun təlim-tərbiyə ilə əlaqəsi vəs. anlayışları müəyyən edib. O,erkən yaşlı uşaqların vətəndaş kimi mövcud quruluş, ilə baglı olduğunu əsaslandırıb. Platon uşaq tərbiyəsində oyuna yüksək əhəmiyyət vermişdir.

Aristotel (eramızdan əvvəl 384-322-ci illər) şəxsiyyətin hərtərəfli inkişafı anlayışı yaradır,bura fiziki,əqli və əxlaq tərbiyəsini daxil edirdi. Təbiətə müvafiqlik tərbiyəsinə yüksək əhəmiyyət verməklə,məktəbəqədər tərbiyəni şəxsiyyətin inkişafında mühüm mərhələ hesab edirdi. O, 5 yaşdan sonra uşağı nağıl və oyunla məktəbə hazırlamağı mümkün hesab etmişdir.

Yan Amons Komenskinin ana məktəbi haqqında təlimi. Böyük slavyan pedaqoqu Y.A. Komenski (1592-1670) elmi pedaqogikanın təməlini qoymuş, məktəbəqədər tərbiyəyə xüsusi əhəmiyyət vermişdir**.** Komenski insanı daim inkişaf edən,qabağa doğru gedən varlıq kimi qiymətləndirmiş və qeyd etmişdir ki,tərbiyənin köməyi ilə " hər bir uşağı insan etmək olar."

Uşaqların yaş dövrlərini xarakterizə edərkən o, (uşaqlıq,yeniyetmələk,gənclik,yetkinlik) məktəbəqədər yaş dövrünə xüsusi əhəmiyyət vermişdir. O, qeyd etmişdir ki, bu dövrdə uşağın fiziki inkişafı sürətlənir, buna görə uşaq ailədə-ana məktəbində uşaq tərbiyə etməyə qabil olan bacarıqlı anadan tərbiyə almalıdır.

Komenskinin " Ana qucağı məktəbi" əsəri dünyada məktəbəqədər tərbiyə ücün ilk proqram və metodik vəsait olmuşdur. O , bu dövrdə uşaqların fiziki inkişafı qaygısına qalmağı təkidlə tələb etmişdir. Komenski hamilə qadınlar ücün bir sira məsləhətlər yazmış , xalq təcrübəsinə əsaslanmağı məsləhət görmüş, uşaq rejimi, qidası və geyiminə müasir tibb elmi baxımından diqqət yetirməyi məsləhət görmüşdür. Komenski yazırdı ki, uşaqların fiziki inkişafına gündəlik nəzarət qoymaq lazımdır: uşağın başını düz tutması, oturması,şey götürməsi,əyilməsi,fırlanması düzgün tənzim edilməlidir.Bütün bunlar oyun prosesində formalaşdırılmalıdır.oyun uşağın həyatıdır.

Komenskiyə görə əxlaq tərbiyəsi dinlə əLaqələndirilməlidir,amma nəticədə uşaq allahın qulu kimi deyil , cəmiyyət ücün tərbiyə olunmalıdır.Oyun uşağın fəaliyyətə sövq edilməsi,əməyi sevməsi,doğruçu və düzgün,nəzakətli və səliqəli olması haqqında fikirləri çox maraqlıdır.

Komenski tərbiyəçinin nümunəsi əsasında uşağı intizamlı olmağa sövq etmək haqqında maraqlı fikirləri vardır. Komenskiyə görə fiziki tərbiyədən müstəsna hallarda istifadə etmək lazımdır.

Komenski məktəbəqədər tərbiyəyə gələcəkdə məktəbə hazırlıq kimi baxmışdır. O hələ ana qucağında uşaqlara ilkin bilik, müəyyən elementar xarakter daşıyan anlayışlar verməyi irəli sürür.

Komenskiyə görə 7 yaşlı uşaq bilməlidir ki,od, hava, su, torpaq, yağış, qar, buz, bina,dəmir, və s. nədir.

Dahi pedaqoq digər fikirlərində analara məsləhətində uşagın hafizəsinin,duyğularının və şüurunun inkişafı qayğısına qalmağını tövsiyə edir.Onlarla yaşlarına uyğun söhbətlər və məşğələlərdə bu yaşda uşaqlara tarix,iqtisadiyyat,siyasət,iştimai münasibətlər haqqında sadə şəkildə məlumat verməyi zəruri bilir.O,qeyd edirdi ki, uşağın hafizəsi inkişaf etdirilməli,başlıcası isə onlara ictimai həyat haqqında ilkin məlumat verilməlidir.

Komenskinin bir çox fikirləri uşaqların fiziki tərbiyəsinə,nitq və təfəkkürünün formalaşmasına,mədəni,əxlaqi vərdişlərə yiyələnməsinə aid olmuşdur.Bu böyük pedaqoqun " Ana qucqğı məktəbi" 3 əsr əvvəl yazılsa da, məktəbəqədər tərbiyə haqqında nəzəriyyələrin yaranmasında mühüm rol oynamış,bu yaşda uşaqların təlim-tərbiyəsi ücün elmi sistem təşkil etmişdir.

İ.Pestolotsinin kicik yaşlı uşaqlar ücün məktəbi. Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi ücün böyük İsveç pedaqoqu, demokrat İohan Pestalotsi (1746-1872) dünyada məşhur əsərləri ilə bərabər,cox böyük bir pedaqoji irs yadigar qoymuşdur.

Pestolotsiyə görə hər bir uşaqda inkişaf ücün zəmin olan təbii imkan var.İlk dəfə olaraq təlim-tərbiyə prosesini uşağın psixi inkişafının qanunlarına uyğun qurmağı irəli sürmüşdür. Uşağın qavrayışının xüsusiyyətlərini nəzərə alaraq,elementar təhsil nəzəriyyəsini yaratmış,yaxından- uzağa,sadədən mürəkkəbə qaydalarının uşaq

təlim-tərbiyəsində rolunu əsaslandırmışdır.Dahi pedaqoq uşaqların fiziki əmək,əxlaq və əqli tərbiyəsinə hərtərəfli inkişaf baxımından yanaşmışdır.
Uşaqların ətraf adamlara hörmət ruhunda tərbiyəsinə Pestolotsi yüksək əhəmiyyət vermişdir. Adamlara hörmət etmək əvvala, uşaqlarda nəzakətli olmaq kimi əxlaqi keyfiyyət yaradır.
Pestolotsi uşağın həyatında ananın roluna yüksək əhəmiyyət vermişdir. Bu məqsədlə o,analar üçün yazılan " Analar üçün kitab və ya uşaqları danışığa və müşahidəyə hazırlamaq üçün analara kömək kitabı" nın hazırlanmasında fəal iştirak etmişdir.
R.Ouenin kicik yaşlı uşaqlar üçün məktəbi. R.Ouenin (1771-1858) görkəmli utopik-sosialistlərdən biridir. O fəhlə balaları üçün uşaq bağcası açmağın ilk təşəbbüsçüsü idi. Bundan əlavə olaraq 1 yaşdan 3 yaşa kimi körpələr evi,kicik yaşlı uşaqlar üçün məktəb isə 3 yaşdan 5 yaşadək dövrü əhatə edirdi. 5-10 yaşlı uşaqlar üçün isə ibtidai məktəb nəzərdə tutulurdu.
Məşğələlər üçün kifayət qədər təchiz olunmuş gözəl oyun meydançası təşkil edilmişdi.Belə müəssisə 2 məqsədlə təşkil edilmişdi:əvvala,uşaqlı analar iş vaxtı uşağa baxmaqdan azad edilmiş,ikincisi,uşaqlar erkən mühütün xoşagəlməz əlamətlərindən müdafiə edilirdi.Burada uşaqlar doğruçuluq və düzlük,nəzakətlilik, kollektivcilik ruhunda tərbiyə olunur, gözəl və səliqəli geyinir,onlara rəqs və mahnılar öyrədilirdi.
Usaqlar sərbəst vaxtın çoxunu açıq havada oyunla keçirilmişlər.Oyun zamanı tərbiyəçilər uşaqları təbiətə çıxarmış,otaqdakı əşyalar və onların xarakteri ilə tanış olmuşlar.Söhbət və məşğələlərzamanı əyaniliyə ğeniş yer verilmişdir.İbtidai məktəbə kimi uşaqlar oxumağı öyrənmişlər.R.Ouen tərbiyəçilərin seçilməsinə ciddi diqqət yetirmişdir. Əsas kimi tərbiyəçinin təhsilini deyil,uşaqla işləmək bacarığını,uşağa məhəbbətini və intizamlı olmasını tələb etmişdir.
F.Frebellin uşaq bağçaları. XIX əsrin ikinci yarısında Qərbi Avropada alman pedaqoqu Fridrix Fribelin (1782-1852) məktəbəqədər tərbiyə haqqında nəzəriyyəsi məşhur olmuşdur. Frebelin pedaqoyi sistemi ziddiyyətli idi.O,idealist fəlsəfəyə əsaslanmışdı.Alman pedaqoqu uşaqların yaş dövrünü üç hissəyə bölürdü:
1.) Südəmər dövr;
2) Uşaqlıq dövrü;
3) yeniyetməlik dövrü.
Südəmər dövrdə tərbiyənin əsas məqsədi xarici hiss orqanlarının inkişaf etdirilməsindən ibarət olmalıdır.
Uşaqlıq dövrü aiolə tərbiyəsi,nitq inkişafı və oyun dövrüdür.
Yeniyetməlik dövrü isə məktəb təlimi dövrüdür.Məktəbəqədər tərbiyədən bəhs edərkən o,oyuna müstəsna əhəmiyyət vermiş, fiziki və əqli inkişafda onun əhəmiyyətini yüksək qiymətləndirilmişdir.Eyni zamanda, uşağı yaşıdları arasında tərbiyə etməyə də çox diqqət yetirmişdir.
Bütün dünyada qəbul edilmiş uşaq bağçası məfhumumu Frebel praktik cəhətdən cəhətdən daha səmərəli tətbiq etmişdir." Gəncliyin və uşaqların instinktik fəaliyyətini inkişaf etdirən müəssisə" adlı tərbiyə müəssisəsi açır və 1804-cı ildə " Uşaq bağçası" adlandırır.

Rusiyada ictimai məktəbəqədər tərbiyənin inkişafı. Rusiyada əsasən I Pyotrun hakimiyyətə gəldiyi dövrdə kimsəsiz uşaqlara dövlət tərəfindən qayğı yaratmağa başlayır.1706-cı ildə Rusiyada ilk dəfə " Atılmış uşaqlar evi"yaradılır.
Moskva və peterburq şəhərlərində kimsəsiz və valideynləri tərəfindən atılmış uşaqlara məxsus (priyut) evlər açılmağa başlayır.1763- cü ildə isə Moskvada tərbiyə evləri açılır və bunların əsasında sonralar bir çox şəhərlərdə onun filialları yaradılır.
Rusiyada Mixail Vasilyeviç Lomonosovun (1711-1765) XVIII əsrdə tərbiyə ocaqlarının acılmasında və pedaqoji elmin inkişafında böyük xidmətləri olmuşdur.
K.D.Uşinski məktəbəqədər tərbiyə haqqında.Məktəbəqədər tərbiyə tarixində böyük rus pedaqoqu K.D.Uşinskinin (1824-1870) müstəsna rolu olmuşdur.Məhz onun pedaqoji sistemi əsasında xəlqilik meydana gəlmiş,tərbiyənin tarixi inkişafı xalqın keçmişi ilə əlaqələndirilmişdir. K.D.Uşinski qeyd edirdi ki,tərbiyə təsirsiz qalmamalı və xəlqi olmalıdır.O bir daha qeyd edirdi ki, xalq tərəfindən yaradılmış və ya xalqdan qidalanan pedaqoyi sistem əsl mənada vətənpərvərlər tərbiyə edə bilər.
K.D.Uşinski " İnsan tərbiyənin predmeti kimi" adlı məşhur əsərində tərbiyədə uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaq kimi çox mühüm pedaqoji prinsipi əsaslandırmışdır." Əgər pedaqogika uşağı hər cəhətdən tərbiyə etmək istəyirsə,o əvvəlcə insanı hər cəhətdən də öyrənməlidir."
Məktəbəqədər yaşlı uşaqlarla işlədiyi illərdə uşaqların təbiətə marağına,estetik və əxlaq tərbiyəsinə yüksək əhəmiyyət vermişdir.
Rusiyada ilk uşaq bağçası. Rusiyada ilk uşaq bağçası ilk dəfə XIX əsrin 60-cı illərində ayrı-ayrı xeyirxah adamların şəxsi təşəbbüsləri iolə yaradılmışdır.O az miqdarda olsa da,pullu idi.Bağçada tərbiyə işlərinin qoyuluşu və iş sistemi onu açanlar tərəfindən müəyyən olunmuşdu.Kasıb uşaqları üçün ilk pulsuz uşaq bağçası 1806-cı ildə Peterburqda " Ucuz mənzillər cəmiyyəti" tərəfindən açılmışdır. Bu tərbiyə ocaqlarında işlər frebel nəzəriyyəsi əsasında qurulmuşdur.
Ümumiyyətlə,Rusiyada uşaq bağçalarının inkişafı ləng getmişdir.1917-ci ilə kimi Rusiyada cəmi 280 uşaq bağçası olmuşdur ki,onun 250-si pullu idi
Rusiyada məktəbəqədər tərbiyə görkəmli pedaqoq və metodistlərdən A.S.Simonoviç,Y.N.Vodovozova,L.K.Şleger və Y.İ.Tixeyevanın fəaliyyəti əsasında genişlənmiş,pedaqoji cəhətdən düzgün təşkil olunmuşdu.
Məktəbəqədər tərbiyənin inkişafında N.K.Krupskayanın rolu. Məktəbəqədər tərbiyə nəzəriyyəsi və təcrübəsinin inkişafında N.K.Krupskayanın rolu böyük olmuşdur. Qadının cəmiyyətdə rolu, ictimai xadim kimi mövqeyi, eyni zamanda bir ana kimi qayğıkeş siması Krupskayaya görə, qadın mənən yalnız o zaman azad ola bilər ki,istismar boyunduruğu zəhmətkeş xalqın üzərindən götürülsün. Krupskayanı məktəbəqədər tərbiyə ocaqlarının daha çox açılması, orada işin səmərəli qurulması çox düşündürmüşdür. O,uşağı kollektivdə tərbiyə etməyə xüsusi əhəmiyyət vermiş, məktəbəqədər yaşlı usaqların ictimai tərbiyəsini yüksək qiymətləndirməklə yanaşı,uşaqların ailə tərbiyəsində ananın da rolunu vacib saymışdır. Krupskaya körpələr evi və uşaq bağçalarının daha çox açılması ücün ciddi diqqət yetirmişdir.Krupskayanın pedaqoji fəaliyyətində uşaqların öyrənilməsi mühüm yer tutmuşdur.

N.K.Krupskaya özünün ”Uşaqların məktəbəqədər tərbiyəsi”,” Məktəbəqədər yaşın xüsusiyyətləri”,” Uşaq bağcasında oyunun rolu”, ” Canlı nümunənin əhəmiyyəti ” və s.əsərlərindəki məktəbəqədər tərbiyəyə aid fikirləri məktəbəqədər tərbiyə nəzəriyyəsinin inkişafında faydalı olmuşdur.

Azərbaycanda ilk məktəbəqədər tərbiyə müəssələrinin fəaliyyəti. Azərbaycanda məktəbəqədər tərbiyənin praktik tarixi 1907-ci ildən başlanır.1907-ci ilə kimi Azərbaycanda heç bir məktəbəqədər tərbiyə müəssisəsi olmamışdır.Yalnız həmin ildə birinci dəfə olaraq Bakının Bayıl qəsəbəsində Alisa İvanova Radçenko tərəfindən tərbiyə müəssiəsi edilmişdir. Bu, “ Deəcəllər” məktəbi adlanan uşaq bağçası olmuşdur. İkincisi, Sumarukova Zinaida Alekseyevna tərəfindən 1914-cü ildə, ücüncü uşaq bağçası Baranova tərəfindən 1914-cü ildə, dördüncüsu 1916-cı ildə Bakı şəhər xalq məktəbləri müdiriyyətinin qadın gimnaziyası nəzdində açılmış uşaq bağçası və nəhayət beşinci Kələntərova tərəfindən açılan uşaq bağçası olmuşdur.

Bu uşaq bağçaları təsadüfi vəsaitlərla təmin olmuşdur. “Dəcəllər məktəbi” adlı uşaq bağçasının tərbiyəvi işlərinin məzmununu və uşaqların ailə tərbiyəsi etibarı ilə o birilərindən əsalı surətdə fərqli idi.

A.İ.Radçenko özü hələ gənc ikən T.F.Leqaft tərəfindən təşkil edilmiş pedaqoji kursu bitirmiş, inqilabçı əhval-ruhiyyədə olmuşdur. Bakıda inqilabçı İ.İ.Radçenko ilə ailə qurduqdan sonra bu familyanı qəbul etmişdi. O, Bakı komitəsinin göstərişi ilə “Bazar günü məktəblərində və Bibi-heybətdə axşam fəhlə kurslarında müəllimlik etməklə yanaşı, “Dəcəllər məktəbi” adlanan uşaq bağçasını da açmışdı.

A.N.Radçenko uşaqların fiiki, bədii, əxlaqi və əqli inkişafı üçün rəngarəng tədbirlər keçirirdi. Məşğələlərdə o, oyundan, söhbət və nağıllardan, kitab oxumaqdan, gəzintilərdən geniş istifadə edərək, uşaqların əxlaq tərbiyəsinə, onlarda yoldaşlıq, dostluq, qayğıkeşlik və insanpərvərlik kimi keyfiyyətlərin tərbiyə edilməsinə xüsusi fikir verirdi.

“Dəcəllər məktəbi” A.İ.Radçenkonun köməyi ilə M.Qorki ilə də məktublaşmışdır. M.Qorki uşaqlara məktub və hədiyyələr göndərirdi.O,uşaqlara ikinci məktubunda yazmışdı:

“...Sizin məktublarınızı alarkən sevincimdən elə gülürdüm ki, balıqlar belə başlarını sudan çıxarıb maraqlanırdılar, nə olub? ...Mən onları başa saldım ki,dənizin obiri sahilində şanlı insanlar yaşayır. Onlar hələ balacadırlar. Mən əminəm ki,onlar böyüyəndə də yaxşı adamlar olacaqlar...”

1910-cu ildə Bakıda qadın gimnaziyası yanında uşaq bağçası açılır.Bu uşaq bağçası 4 yaşından 7 yaşına kimi 20 uşağı əhatə edirdi. Burada uşaqlara maraqlı hərəkətli oyunlar və idman məşğələləri keçirilir,əl işləri vərdişləri öyrədilir.Uşaqlar rəngli saplar ilə toxuma, rəngli kağızlardan kəsib yapışdırma,şəkillərin rənglənməsi ilə məşğul olur,rəngli kağız zolaqlardan “ səbət” və “ xalça” toxuyurdular.

1918-ci ildə uşaq tərbiyə ocaqlarının,o cümlədən,uşaq bağçalarının təşkili genişlənir.Bu sahədə N.Nərimanovun böyük köməkliyi olub.Xalq Maarif Komissarlığında işləyən Nadeyda Nikalayevna Kolensikova bu vaxt yazırdı ki,tərbiyəçilər hazırlayan kursların təşkilində.tərbiyə ocaqlarının avadanlıqlarla təchiz olunmasında N.Nərimanovu bizə çox köməklik edirdi. Onun vasitəsilə biz bina,lazımi avadanlıq və ərzaq malları alırdıq....yoldaş nərimanov bizim işimizə

çox diqqətlə yanaşırdı. O.bizim uşaq oşaqlarımızı tanıyırdı,tez-tez bu və ya digər uşaq oşağına gəlirdi. Uşaqlar tərbiyəcilər və eləcə də,valideynlərlə söhbət aparırdı.
Bu dövrdə bütün çətinliklərə baxmayaraq məktəbəqədər tərbiyə gündən –günə inkişaf edirdi.Uşaq bağcası şəbəkələri xeyli artmışdı.1920-ci il may ayının 27-də N.Nərimanovun adından XMK-ə göndərilən məktubda qeyd olunurdu.” Təklif edirəm ki,bir həftə müddətində şəhərin müsəlman məhəlləsində uşaq bağçasıtəşkil edilsin.Bu məqsədlə də şəhərin bütün müəllim və müəllimlərini səfərbərliyə almaq lazımdır.”
N.Nərimanovun verdiyi bu sərəncamdan sonra həm respublikanın qəzalarında,həm də Bakı şəhərində,xüsusən Azərbaycanlılar yaşayan məhəllələrdə uşaq bağçalarının təşkili işi getdikcə sürətlənir.Uşaq bağçalarının təşkili işində yerli fəallar uşaq bağçası üçün binaların müəyyənləşdirilməsində və uşaqların oraya cəlb olunması işinə yaxından kömək edirlər.1920-ci il iyun ayından bütün məktəbəqədər tərbiyə müəssələri dövlətin ixtiyarına keçirildi.
1920-ci il iyun ayının 28-nə kimi Baki şəhərində, xüsusən azərbaycanlılar yaşayan məhəllələrdə uşaq bağçalarının təşkili işi getdikcə sürətlənir. Uşaq bağçalarının təşkili işində yerli fəallar uşaq bağçası ücün binaların müəyyənləşdirilməsində və uşaqların oraya cəlb olunması işinə yaxından kömək edirlər.1920-ci il iyun ayından bütün məktəbəqədər tərbiyə müəssisələri dövlətin ixtiyarına keçirildi.
1920-ci il iyun ayının 28-nə kimi Bakıda “Yuva”, “Svetlayaçok”, “Xutarok”, “Sünbül”, Suraxanı rayonunda “Krasnaya solnuşka”, “Aydınlıq”, “Krasnıy uqoloq”, “Kolokolçink” kimi uşaq bağçaları təşkil edilmişdi. Bu dövrdə uşaq bağçaları indiki Gəncə, Kürdəmir və s. qəza mərkəzlərində də açılırdı. Bakıda və onun sənaye rayonlarında 35uşaq bağçası açılmışdı ki, bunun 29-u Bakı şəhərində yerləşirdi. 6 uşaq bağçasə isə digər sənaye rayonlarında təşkil olunmuşdu. Bundan əlavə, Gəncə qəzasında 8, Nuxa qəzasında 6, Şuşada 5, Qubada 1, Qazaxda 3, Göyçayda 3, Lənkəranda 2 və Şamaxıda 1 uşaq bağçası acılmışdı.

1920-1922-ci illərdə Azərbaycanda olan məktəbəqədər tərbiyə müəssisələrinin sayı 76-ya çatır. Bunu aşağıdakı cədvəldə aydın görmək olar.

	Bağcaların sayı.	Uşaqların sayı.	Oğlan	Qız.	Müəllimlərin sayı.	
1.Bakı. 2.Qəza şəhərlərində. 3.Kənd.	41 12 23	2810 452 1055	1418 260	1392 192 527	151 20 58	
Cəmi	76	4317	2206	2111	229	

Uşaq bağcalarında təlim-tərbiyə işi əsasən Azərbaycan dilində aparılsa da rus,gürcü,tatar,yəhudi və s. millətlərdən olan uşaqlar ücün ayrıca qruplar da təşkil edilirdi.Bəzi yerlərdə müxtəlif millətdən olan uşaqlar üçün uşaq bağçalarında təşkil olunurdu.Təlim-tərbiyə işləri Y.İ.Tixiyevanın rəhbərliyi altında tərtib olunmuş uşaq bağçası əsasında aparılırdı.

1921-ci ildə Moskvada çağrılan məktəbəqədər tərbiyə üzrə IIÜmumrusiya qurultayında Frebal və Montessari sisteminin “ Sərbəst tərbiyə” və “ Tərbiyəcinin siyasətdən kənar olması”nəzəriyyələri tənqid olunmuşdur.
1920-ci ildə azərbaycanda “ Məktəbəqədər tərbiyə şöbəsinin ümumi təlimatnaməsi ” qəbul olunur.Bu təlimatın o dövr ücün böyük tyarixi və siyasi əhəmiyyəti vardı.Təlimatda məktəbəqədər tərbiyə müəssələrinin ümumi prinsip əsasında təşkil olunması nəzərdə tutulurdu.Bu prinsipə görə uşaq bağçaları xalqın bütün təbəqələrinə xidmət etməli idi.
1920-ci ildə Azərbaycanda uşaq bağçaları ücün kadr hazırlığı mühüm problemlərdən biri kimi qarşıda dururdu.
1921-ci il yanvar ayının 11-də N.Nərimanovun göstərişi əsasında Azərbaycanda birinci Məktəbəqədər Tərbiyə Pedaqoji İnstitutunun açılması haqqında dekret verildi. Azərbaycan İnqilab Komitəsinin bu barədə dekretində deyilirdi: “ Məktəbəqədər tərbiyə sahəsində təcrübəli kadrlar və rəhbər işciləri hazırlamaq və həmçinin qadınlar arasında tərbiyə müəssələrini yaamaqdan ötrü Azərbaycan İnqilab Komitəsi qərara alır ki,1921-ci ilin mart ayının 1-dən etibarən bakı şəhərində birinci Azərbaycan tərbiyə İnistutu açılsın.”
Bu dekretə əsasən bu müəssisə 1921-ci il mart ayının 4-də təşkil edilmişdi. İlk inistituta 30 nəfər qadın qəbul olunmuşdu.
Bu kadrların daha səmərəli məşğələlər kecməsi ücün 1920-1921-ci illərdə “ Məktəbəqədər uşaqlar ücün nağıllar məcmuəsi”,” Tərbiyə prinsipləri”,” Uşaq bağcalarını necə təşkil etməli və onun işini aparmaq qaydaları” adlı kitabçalar da nəşr olundu.
1924-1925-ci dərs ilində respublikada fəaliyyət göstərən 19 uşaq bağcasında 1096 uşaq tərbiyə alırdısa,1930-1931-ci dərs ilində 463 uşaq bağçasında 13549 uşaq tərbiyə almışdı.Bu illərdə uşaq bağcalarında aparılan tərbiyənin qarşısında belə bir vəzifə qoyulmuşdur: uşaq kollektivinin təşkil və onun tərbiyədə rolu, uşaqların təşkilatçılıq qabiliyyətinə inkişaf etdirmək, təbiətlə tanışlıq, yoldaşlıq, dostluq və s. keyfiyyətlərin aşılanması.

1926-cı ildə Dövlət Elm Şurası “Uşaq bağçaları ücün Nizamnamə” ni təsdiq edir. Nizamnamənin birinci bölməsində məqsəd və vəzifələrdən, məktəbəqədər yaşlə uşaqlara aparılan işin məzmunundan, içtimai tərbiyənin məqsədindən, uşaq bağçasında işlərin ana dilində aparılmasından və qəbul qaydalarından danışılırdı. Daha sonra bu bölmədə bağçalarında yetimlərin, anası işdə olan uşaqların, qızıl əsgər və yoxsul kəndli uşaqlarının birinci növbədə qəbul komissiyaları vasitəsi ilə qəbul edilməsi xüsusi qeyd edilirdi.

Nizamnamənin uşaq bağçalarının iş müddətindən, bağçada uşaqların qidalanmasından, bir bağçada tərbiyə ala bilən uşaqların minimum və maksimum miqdardan, bağçada məsul şəxs olan müdirin, tərbiyəçininvəzifəsindən ətraflı danışılırdı.

Üçüncü bölmədə uşaq bağşası kollektivinin bəhs edilərkən göstərilirdi ki, uşaq bağçasının bütün pedaqoji işləri müdir və kollektivin birgə fəaliyyəti ilə idarə olunur. Kollektivin müəssisənin ümumi planı nı və hesabatını nəzərdən keçirir, həmçinin, pedaqoji məsələləri müzakirə edir. Bu bölmədə daha sonra göstərilirdi

ki, uşaq bağçasının həyatı və məktəbəqədər tərbiyə məsələri üzrə ayda bir dəfədən gec olmayaraq, valideynlərlə birlikdə iclas çağırmaq lazımdır.

"Uşaq bağçasının şurası" adlı dördüncü bölmədə şura üzvlərinin miqdarından, tərkibindən, onun çağrılması müddətindən, həll edəcəyi məsələlərdən danışılırdı.

1965-ci ildə ilk dəfə olaraq məktəbəqədər tərbiyə tarixində 2 aylıqdan 7 yaşa qədər uşaqların təlim-tərbiyəsinin məzmununu müəyyən edən " Uşaq bağcalarının tərbiyə proqramı " hazırlandı.Proqramda müxtəlif yaş dövrlərində uşaqların mənimsədikləri bilik, bacarıq və vərdişlərin həcmi müəyyən edildi.

Mövzu :2. Məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi.

PLAN:

1. Təhsil sisteminin məzmunu
2. Təhsil müəssisələrinin formaları və tipləri
3. Məktəbəqədər təhsil
4. Müəllim və uşaq bağçası tərbiyəçisinə verilən tələblər
5. Müəllimlik və tərbiyəçilik işinin xüsusiyyətləri
6. Uşaq bağçası tərbiyəçisinin və müəllimin hüquqları

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Ə.Seyidov. Pedaqogika tarixi, Bakı, 1968.
4. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
5. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
6. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

1.Azərbaycan Respublikasında təhsil sistemi dedikdə, ölkəmizdə insanı həyata hazırlayan təlim tərbiyə müəssisələrinin qarşılıqlı fəaliyyəti sayəsində meydana çıxan böyük bir qurum nəzərdə tutulur. Başqa sözlə, təhsil sistemi ölkə daxilində mövcud olan təlim tərbiyə müəssisələrinin məcmuyudur. Buraya dövlət və özəl statuslu məktəbəqədər tərbiyə müəssisələri, ümumtəhsil məktəbləri, kollec, peşə və ixtisas məktəbləri, gimnaziya, lisey, ali ixtisas məktəbləri, institutlar, universitetlər, məktəbdənkənar tərbiyə ocaqları və s. daxildir.

Ölkəmizdə təhsil sistemi Azərbaycan Respublikasının Konstitusiyası və Təhsil Qanunu əsasında idarə olunur. Qanunda qeyd olunur: təhsil sistemi müxtəlif pilləli təhsil proqramlarını ardıcıl həyata keçirən təhsil müəssisələri şəbəkəsindən, təhsil idarəetmə orqanlarından, təlim tərbiyə prosesi ilə məşğul olan digər müəssisə və təşkilatlardan ibarətdir. Təhsil sisteminin əsas məqsədi dövlət təhsil standartlarına uyğun biliyə, bacarığa, praktik hazırlığa, mütərəqqi dünyagörüşünə malik olan, xalqın milli, mənəvi, mədəni dəyərlərinə dərindən yiyələnən, insan hüquqlarına hörmət edən vətənpərvər və yaradıcı düşünən şəxsiyyət tərbiyə etməkdir.

Ölkəmizdə təşkil edilən təlim tərbiyə müəssisələri arasında sıx əlaqə vardır. Məsələn, məktəbəqədər tərbiyə müəssisələrində uşaqların əqli inkişafına, əxlaqi

cəhətdən formalaşmasına, fiziki cəhətdən gümrah böyüməsinə nə qədər çox diqqət verilsə, bu ümumtəhsil məktəblərinin işini bir o qədər asanlaşdırmış olar. Eləcə də, ümumtəhsil məktəblərində işin keyfiyyəti nə qədər yüksək olarsa, ali məktəblərin işi də bir o qədər yaxşı nəticə verər və s. Buradan aydın olur ki, bu təhsil müəssisələri həqiqətən də sistem təşkil edir.

Respublikamızda təhsil sisteminin əsas prinsipləri dövlətimizin Konstitusiyasında və Təhsil Qanununda təsbit edilmişdir: irqi və milli mənsubiyyətindən, cinsindən, dinə münasibətindən və s. asılı olmayaraq bütün vətəndaşlar təhsil almaq hüququna malikdirlər; bütün uşaqlar üçün təhsil icbaridir və s.

Təhsil sistemi vahiddir və bütün tədris müəssisələri arasında qarşılıqlı əlaqə, ardıcıllıq vardır ki, bu da təlimin aşağı pilləsindən yuxarı pilləyə keçməsini təmin edir.

2. Təhsil müəssisəsi bir və ya bir neçə təhsil proqramı əsasında təlim tərbiyə prosesini həyata keçirir. Respublika qanunvericiliyində müəyyən edilmiş qaydada dövlət və qeyri dövlət strukturlu təhsil müəssisələri fəaliyyət göstərir.Bu müəssisələrdə təhsil ödənişsiz və ödənişli əsaslarla həyata keçirilir. Eyni zamanda, özəl təhsil müəssisəsi müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatından keçdikdən sonra hüquqi status alır.

Azərbaycan Respublikasında təhsilalma prosesi aşağıdakı formalarda həyata keçirilir: əyani təhsil, qiyabi təhsil, evdə təhsil, məsafədən təhsil və s. Təhsil sistemində təhsilalma formalarının əlaqələndirilməsinə yol verilir.

Respublikamızda təhsil müəssisələrinin aşağıdakı tipləri vardır: məktəbəqədər təhsil, ümumi təhsil (ibtidai, natamam orta, orta), ibtidai peşə - ixtisas, orta peşə - ixtisas, ali peşə - ixtisas, əqli və ya fiziki qüsurlu uşaqlar üçün xüsusi təhsil müəssisələri, əlavə təhsil (məktəbdənkənar təhsil, ixtisasartırma və yenidənhazırlanma) müəssisələri.

3. Məktəbəqədər təhsilin məqsədi uşaqların erkən yaşlarından fiziki, əqli, mənəvi və psixi inkişafını pedaqoji qanunlar əsasında ilkin bilik, bacarıq və vərdişlərin formalaşdırılması, özülün qoyulması və uşaqların gələcək normal inkişafının istiqamətini təmin etməkdir. Məktəbəqədər təhsil ailədə və məktəbəqədər tərbiyə müəssisələrində həyata keçirilir.

Azərbaycan Respublikasının "Məktəbəqədər tərbiyə müəssisələri haqqında əsasnamə"sinə görə məktəbəqədər tərbiyə müəssisələrinin strukturu, tipləri və fəaliyyətinin əsasları aşağıdakı qaydada müəyyən edilmişdir. Məktəbəqədər tərbiyə müəssisələri dövlət və qeyri dövlət müəssisəsi ola bilər. Məktəbəqədər tərbiyə müəssisələrinin tipləri bunlardır: körpələr evi; körpələr evi-uşaq bağçası;uşaq bağçası; əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün məktəbəqədər tərbiyə müəssisələri; məktəb uşaq bağçası.

Bu tərbiyə müəssisələrində uşaqların yaşından asılı olaraq qruplar aşağıdakı qaydada təşkil olunur:

- kiçik yaşlı körpələr qrupu – 2 aylıqdan 1 yaşadək;
- orta yaşlı körpələr qrupu – 1 yaşdan 2 yaşadək;
- böyük yaşlı körpələr ürupu – 2 yaşdan 3 yaşadək.

Uşaq bağçasında və körpələr evi - uşaq bağçasında məktəbəqədər qruplar belə təşkil olunur: - bağçada kiçik yaş qrupu – 3 yaşdan 4 yaşadək;

- bağçada orta yaş qrupu – 4 yaşdan 5 yaşadək;
- bağçada böyük yaş qrupu – 5 yaşdan 6 yaşadək
- məktəbə hazırlıq qrupu.

Əsasnaməyə görə əqli və fiziki inkişafında qüsurlar olan uşaqlar üçün aşağıdakı müəssisələr təşkil olunur: nitqi qüsurlu uşaqlar üçün, eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün, görmə qabiliyyəti pozulmuş uşaqlar üçün, dayaq hərəkət orqanları qüsurlu uşaqlar üçün, zehni inkişafı geri qalan uşaqlar üçün, tez-tez xəstələnən uşaqlar üçün məktəbəqədər müəssisələr və qruplar.

Məktəbəqədər tərbiyə müəssisəsi ailənin və cəmiyyətin mənafeyinə uyğun olaraq uşaqların hərtərəfli inkişafına nail olmaq, təhsilə hazırlamaq, fiziki və psixi sağlamlıqlarını mühafizə etmək və möhkəmləndirmək kimi vəzifələri yerinə yetirir.

4. Müəllim və tərbiyəçinin vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır. Şübhəsiz ki, birinci növbədə müəllim və tərbiyəçiözü bu xüsusiyyətlərə malik olmalı, pedaqoji səviyyəsini daim təkmilləşdirməli, öz üzərində müntəzəm işləməlidir. Müəllim tərbiyəçi təlim tərbiyə işində başlıca simadır. Bəs əsl müəllim və tərbiyəçi necə olmalıdır? Müasir müəllimə və tərbiyəçiyə hansı tələblər verilir? Müasir müəllimə və tərbiyəçiyə tətbiq edilən bir sıra aparıcı tələblər vardır. Bu tələblərə konstruktiv, kommunikativ, qnostik və təşkilatçılıq bacarığı daxildir.

Konstruktiv tələb aşağıdakıları əhatə edir: təlim tərbiyə materialını qarşıya qoyulmuş məqsədin tələblərinə uyğun seçə bilmək, sistemləşdirmək, məktəbdə şagirdlərin, uşaq bağçasında uşaqların imkanlarına uyğunlaşdırmaq, şagird və ya uşaq tərəfindən yol verilə biləcək səhvləri, uşağın müəyyən situasiyada özünü necə aparacağını əvvəlcədən görə bilmək bacarığı; şagirdin və uşağın inkişaf layihəsini hazırlaya bilmək, yaranmış vəziyyətdən çıxmaq, işi planlaşdırmaq, maddi bazanı möhkəmləndirmək bacarıqları və s.

Kommunikativ bacarığa aşağıdakılar daxildir: uşaqların qəlbinə yol tapa bilmək, özünü onlara sevdirmək, uşaqlar arasında düzgün münasibətləri tənzim edə bilmək, valideyn və ictimaiyyətlə ümumi dil tapa bilmək, pedaqoji mərifətə malik olmaq, yeri gələndə gülməyi, hirslənməyi bacarmaq, ağır vəziyyətə düşdükdə ani müddətdə düşünüb düzgün tərbiyə yolu seçmək, bir sözlə münasibətlərin nizama salınması və s.

Qnostik bacarığa aşağıdakılar daxildir. Qnostik yunanca qnozis sözündən götürülüb, mənası idrak deməkdir. Qnostik bacarıqlara pedaqoji nəzəriyyəni bilmək və ondan yaradıcı şəkildə istifadə etmək, özünün və yoldaşlarının təcrübəsini ümumiləşdirə bilmək, elmi tədqiqat işlərində iştirak edə bilmək, psixologiyanı bilmək və ondan istifadə etməyi bacarmaq, bir sözlə pedaqoji prosesin nəzəri əsaslarını
bilmək bacarığıdır.

Təşkilatçılıq bacarıqlarına aşağıdakılar daxildir: uşaqları ictimai işlərə cəlb edə bilmək, bağçada uşaqları yaşlarına uyğun ictimai işlərə cəlb etmək, uşaqlar arasında düzgün vəzifə bölgüsü aparmaq, onların boş vaxtını günün tələbləri

səviyyəsində düzgün təşkil etmək bir sözlə uşaqların fəaliyyətinə rəhbərlik etməyi bacarmaq və s.

5. Müəllimlik və tərbiyəçilik işinin özünəməxsus xüsusiyyətləri vardır. Müəllim tərbiyəçi məhdud görüş dairəsinə malik uşaqların gözünü dünyaya aşır, onlara bilik, bacarıq və faydalı vərdişlər aşılayır, Vətənin sabahı üçün ləyaqətli vətəndaş formalaşdırır. Müəllim və tərbiyəçidən yüksək yaradıcılıq, təşəbbüskarlıq, pedaqoji bacarıq və dözümlülük tələb olunur, çünki müəllim və tərbiyəçi müxtəlif xarakterə, fərdi xüsusiyyətlərə malik uşaqlarla işləyir. Bu işdə müvəffəqiyyət qazanmaq üçün müəllim və tərbiyəçidən uşaq psixologiyasının fərdi əlamətlərini məharətlə öyrənmək, fəalyyətdə onları nəzərə almaq qabiliyyəti tələb olunur. Bunun üçün müəllim və tərbiyəçi bir sıra mühüm fərdi keyfiyyətlərə malik olmalıdır. 1. Müəllim və tərbiyəçi dərin elmə, siyasi və pedaqoji nəzəriyyəyə yiyələnməli, sarsılmaz əqidəyə malik olmalıdır. Müəllim və tərbiyəçi Azərbaycan dövlətinin qarşıya qoyduğu məqsədə çatmaq üçün, xüsusilə, dövlət quruculuğu işində, müstəqillik, demokratiya uğrunda aparılan mübarizədə qabaqcıl olmalıdır. 2.Müəllim və tərbiyəçi geniş məlumata, yüksək mədəniyyətə malik olmalı, ölkəmizdə gedən iqtisadi və siyasi dəyişiklikləri, onların başvermə səbəblərini bilməli, meydana gələn elmi pedaqoji yenilikləri müntəzəm öyrənməlidir. 3. Müəllim və tərbiyəçi öz sənətinin peşəkar ustası olmalı, uşaqları təşkil və tərbiyə etmək texnikasına dərindən yiyələnməlidir. Bunun üçün o, pedaqogikanı, psixologiyanı, metodikanı və öz ixtisasını dərindən bilməli, bu sahədəki biliyini artırmalıdır. 4. Müəllim və tərbiyəçi pedaqoji fəaliyyətdə ancaq bilik verməklə kifayətlənməməli, eyni zamanda uşaqları sevməlidir. Bu məqsədlə müəllim və tərbiyəçi uşaq şəxsiyyətinə hörməti güzəştsiz pedaqoji tələbkarlıqla əlaqələndirməlidir. 5. Müəllim və tərbiyəçi öz üzərində müntəzəm çalışmalı, nöqsanlarını görməyi və onları tədricən aradan qaldırmağı bacarmalıdır.

6. Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda uşaq bağçası tərbiyəçilərinə və müəllimlərə bir sıra hüquqlar verilir ki, bunlar Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə uyğun olmaqla dövlət tərəfindən qorunur. Bu hüquqlar aşağıdakı sahələri əhatə edir: peşə şərəfinin və ləyaqətinin qorunması, normal iş şəraitinin yaradılması, təlimin forma, metod və vasitələrini sərbəst seçmək, təhsil müəssisələrinin nizamnaməsinə uyğun, onun idarə olunmasında iştirak etmək, təhsil sistemində seçkili vəzifələrə seçmək və seçilmək, ixtisasını artırmaq və yeni ixtisas almaq, qanunvericilikdə nəzərdə tutulmuş əlavə məzuniyyətə çıxmaq.

Ölkəmizdə müəıllim və uşaq bağçası tərbiyəçilərinin fəxri adları onlara ömür boyu məxsus edilir. Onlar yalnız məhkəmənin qərarına görə bu adlardan məhrum edilə bilərlər. Müvafiq qərarlara görə uzun müddət işləyən bağça tərbiyəçiləri və müəllimlər üçün təltiflər, əmək haqqı və təqaüdlərin artırılması müəyyən edilir.

Özünün elmi, ideya-siyasi biliyini artırmağa cəhd edən, yüksək mədəniyyətə, dərin biliyə, pedaqoji ustalığa malik olan hər bir bağça işçisi və müəllim yüksək nüfuza malik olur, uşaqların, valideynlərin və ictimaiyyətin dərin hörmətini qazanır.

Mövzu: 3. Məktəbəqədər təhsil proqramların-da uşaqların tərbiyəsi və inkişafı məsələləri.

PLAN:

1. İnsan şəxsiyyətinin sosial mahiyyəti haqqında. Şəxsiyyətin formalaşmasında irsiyyətin mövqeyi

2. Şəxsiyyətin formalaşmasında mühitin rolu. Şəxsiyyətin tərbiyənin rolu

3. Məktəbəqədər yaş dövründə tərbiyənin vəzifələri.

4. Kollektiv şəxsiyyətin formalaşmasının əsas amili kimi.

5. Kollektivin sosial-psixoloji səciyyəsi, dəyərləri. Pedaqoji kollektiv və uşaq kollektivi.

6. Məktəbəqədər tərbiyə müəssələrində kollektivinin təşkili və tərbiyəsi.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. Ə.Seyidov. Pedaqogika tarixi, Bakı, 1968.
4. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
5. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
6. R.Mursaqulova. N.Rüstəmova.Məktəbəqədər pedaqogika.Bakı-2012.

1. Şəxsiyyət anlayışı fəlsəfə, sosiologiya, estetika, etika və s. elmlərlə yanaşı pedaqogikanın da tədqiqat obyektinə daxildir. Bu problemi şəxs və fərd anlayışı ilə eyniləşdirmək olmaz. Şəxs bioloji və sosioloji xüsusiyyətlərin birliyidir. Şəxsiyyət isə adamın malik olduğu yalnız sosioloji keyfiyyətlərin məcmusudur. Bu keyfiyyətlər təbii və ictimai amillərin, eləcə də tərbiyəvi təsirlərin sayəsində təşəkkül tapır və inkişaf edir. Buna görə şəxsiyyətdən bəhs edən elmlərin hər biri onun müəyyən cəhətlərini öyrənir.

Adamlar malik olduqları fərdi xüsusiyyətləri və xarakter əlamətlərinə görə bir-birindən fərqlənirlər. Müxtəlif adamların, o cümlədən, uşaqların qabiliyyətlərini, maraq və meyllərini, əxlaqını müqayisə edərkən fərdi fərqlər daha aydın nəzərə çarpır. Bu xarici görünüşdə, daxili əlamətlərdə və dünyagörüşündə özünü daha qabarıq göstərir. Məsələn, uşaqların bəziləri hər hansı məsələnin izahını, söhbətin məzmununu tez başa düşdükləri halda, başqaları bunu bir qədər gec başa düşürlər. Bəzilərində hafizə məktəbəqədər dövrdə iti olur, digərləri öyrəndiklərini tez unudurlar. Bəzi uşaqlar ailədə yaşlılara qayğı ilə yanaşır, yaşıdları ilə mehriban və səmimi davranır, davranış qaydalarını gözləyir, digərləri isə əksinə, şıltaq və ərköyün olurlar.

Uşaqlar fiziki inkişafı və sağlamlığına görə də fərqli xüsusiyyətlərə malik olurlar. Səmərəli yemək, yatmaq, oyaq qalmağın düzgün təşkil olunması, habelə təmiz havadan, sudan, günəşdən istifadə edilməsi bütün ailələrdə eyni səviyyədə olmadığına görə, bəzi uşaqların səhhətində qüsurlar da nəzərə çarpır. Buna görə məktəbəqədər dövrdən uşaqların yeməyi düzgün təşkil olunmalıdır.

Uşaqların fiziki və zehni inkişafında yuxunun da özünəməxsus əhəmiyyəti vardır. Erkən yaşlı uşaqların gec və çətin yatması onların narahatlığına səbəb olur. Bu çox zaman əlverişli olmayan xarici şəraitin və düzgün olmayan tərbiyənin nəticəsində baş verir.

Şəxsiyyətin normal inkişafı üç mühüm faktorun təsiri ilə müəyyənləşdirilir. Bunlar aşağıdakılardır: tərbiyə, sosial mühit və irsi əlamətlər.

2. İrsiyyət nəzəriyyəsi orta əsrlərdə yaranmışdır. Bu dövrdə uşağın inkişafında irsiyyət əsas götürülür və belə hesab edilirdi ki, uşaq hər bir qabiliyyət və xasiyyəti hazır şəkildə ata və anasından irsən götürür. Bu nəzəriyyə orta əsrlərdə hakim olan dini əqidələrlə əsaslandırılırdı. Dini ehkamlara əsaslanaraq sübut etməyə çalışırdılar ki, hər hansı bir insan anadan olarkən taleyi alnına yazılır. Məsələn "Yazılanı pozmaq olmaz", "Quyuya su tökməklə quyu sulu olmaz" və s. Sonrakı illərdə insan xarakterini irsi əlamətlərlə izah edən alimlər meydana gəldi. ABŞ-da E.Torndayk, C.Dyun və başqaları buna misal ola bilər. Torndayk yazır ki, orqanizmdəki genlər adamın həm fiziki, həm də əqli keyfiyyətlərini təyin edir.C.Dyunin əqidəsinə görə, uşağın inkişafı anadangəlmə instinkt və qabiliyyətlər əsasında mümkün olur.

Kapitalizmin inkişafı ilə əlaqədar irsiyyət nəzəriyyəsinə qarşı etirazlar gücləndi. XVII əsrdə böyük slavyan pedaqoqu Y.A.Komenski uşağın taleyində irsiyyətin rolunu şişirtməyə qarşı çıxır və hamının təhsil almağa qadir olduğunu və bu işdə müəllimin, tərbiyəçinin rolunu yüksək qiymətləndirirdi. XVIII əsrdə isə ingilis pedaqoqu C.Lokk "Ağ lövhə" nəzəriyyəsini irəli sürərək, irsiyyəti tamamilə inkar edir, tərbiyənin vəzifəsini həddindən artıq şişirdirdi. Lokka görə, uşaq doğolarkən onun beyni ağ lövhə kimi tərtəmiz olur. Rus mütəfəkkiri V.Q.Belinski Lokkun nəzəriyyəsinə qarşı çıxaraq qeyd edirdi ki, uşaq doğularkən onun beyni "ağ lövhə" deyil, orada təbii imkanlar mövcud olur. Onu da qeyd etmək lazımdır ki, təbii imkanlar hələ hazır qabiliyyətlər deyil, qabiliyyətlərin əmələ gəlməsi və inkişafı üçün xüsusi qüvvəyə malik olan bir varlıqdır. Məsələn, anadan doğulan uşaq nitq imkanı ilə doğulur. Yəni onun boğazının, dilinin, damağının quruluşu və eləcə də sinir sisteminin inkişaf səviyyəsi, danışmaq və danışılanı başa düşmək imkanına malikdir. Eləcə də uşaq yazı yazmaq imkanı ilə doğulur. Çünki onun xırda əl əzələlərinin vəziyyəti, ağlının inkişaf səviyyəsi sonralar yazmaq qabiliyyətinin yaranamsı üçün imkan verir. Şübhəsiz, bütün təbii imkanların hamısı irsi olaraq nəsildən-nəslə keçir. Lakin bu o demək deyildir ki, hər şeyi həll edən irsiyyətdir. Uşaqlar doğularkən valideynlərindən zahiri fizioloji əlamətləri və psixoloji imkanları özləri ilə gətirirlər. Lakin bu keyfiyyətlərin şəxsiyyət səviyyəsində formalaşması üçün sosial amillər, ictimai mühit və tərbiyə prosesi xüsusi həlledici qüvvəyə malikdir. Deməli, irsiyyət vasitəsilə uşağa keçən hazır qabiliyyətlər deyil, hər uşağa məxsus olan ümumbəşəri təbii imkanlardır.Uşağın irsən gətirdiyi təbii fizioloji psixoloji imkanların qabiliyyətə çevrilməsi üçün şərait və tərbiyə həlledici əhəmiyyətə malikdir.

3. Şəxsiyyətin inkişafında mühitin də xeyli rolu vardır. Bu məfhum fərdin həyatı və inkişafın əlaqədar olduğu xarici şəraitin hamısını əhatə edir. Uşaq ictimai mühitdə doğulur, burada yaşayır, böyüyüb boya-başa çatır. İctimai mühitdə aparıcı yeri insanlar tutur. İctimai mühit analyışı insanların ictimai həyatını, cəmiyyətdəki ictimai münasibətləri, siyasi və mədəni həyatı və s. əhatə edir. Əlbəttə, uşaq bu mühitin təsirinə məruz qalır. Lakin fərdi xüsusiyyətlərdən asılı olaraq mühitin təsirinə müxtəlif formada məruz qalırlar. Yəni eyni mühit ayrı-ayrı uşaqlara müxtəlif şəkildə təsir göstərir.

Mühitin şəxsiyyətə təsiri haqqında məşhur pedaqoqların fikirlərində müəyyən fərqlər də vardır. Məsələn, fransız pedaqoqu J.J.Russonun fikrinə görə uşaqla uzun-uzadı söhbət aparmağın, onu öyüd-nəsihətlə yormağın mənası yoxdur. İstənilən əxlaqi keyfiyyəti uşaqda görmək üçün onu müvafiq mühitə salmaq lazımdır. Həmin mühit özü istədiyini uşağa aşılayacaqdır. Azərbaycan filosofu Siracəddin Mahmud Əbubəkr oğlu Urməvi sübut edirdi ki, insanın xasiyyəti irsi deyil, həyatda formalaşır. O qeyd edirdi ki, "Atası xristian olan uşağı müsəlman tərbiyə etsə, müsəlman olar".Bu pedaqoqların üstün cəhəti onda olmuşdur ki, onlar şəxsiyyətin formalaşmasında irsiyyətə, fatalizmə qarşı çıxaraq mühitin təsirinə üstünlük vermişlər.

Bütün bunlardan belə bir nəticə çıxarmaq olaq: madam ki, insan mühitin təsirinə məruz qalır, onda mühit elə qurulmalıdır ki, insan orada həqiqi insanlığını dərk etsin, oradakı nəcib keyfiyyətləri özündə birləşdirə bilsin.

Bəşər tarixi praktik olaraq sübut etmişdir ki, şəxsiyyətin inkişafında tərbiyənin rolu əvəzsizdir. Əvvəlcədən düşünülmüş, planlaşdırılmış, məqsədyönlü təşkil edilmiş tərbiyə işi güclü təsir qüvvəsinə malikdir. Y.A.Komenski, K.A.Helvetsi, R.Ouen və bir çox başqaları şəxsiyyətin inkişafında tərbiyəyə üstünlük verdikləri kimi, fransız materialistləri Helvetsi, Didro, Russo tərbiyənin təsirinə daha çox aludə olmuş, hətta onu həddən artıq şişirtmişlər. Helvetsiyə görə, tərbiyədə elə təsir qüvvəsi vardır ki, o hər şeyi yaradır. Didro isə Helvetsiyə nöqsan tutaraq qeyd etmişdir ki, tərbiyə hər şey deyil, çox şeydir.

Məhəmməd Peyğəmbər Əleyhissəlam hədislərinin birində deyir: Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz.

Müəyyən dövrlərdə şəxsiyyətin inkişafında gah tərbiyə və mühit əsas götürülmüş, irsi əlamətlər inkar edilmiş, gah da irsiyyətə və mühitə üstünlük verilmişdir. Onu da qeyd etmək lazımdır ki, tərbiyə daim eyni tərzdə həyata keçirilmir. Daim məzmunu zənginləşir və mürəkkəbləşir, forması dəyişir, rəngarəng yollarla uşaq şəxsiyyətinə təsir göstərir.

Uşaq şəxsiyyətinin inkişafı müxtəlif mərhələlərdən keçir. Hər bir mərhələ əvvəlki ilə sıx əlaqədə olub, sonrakı nailiyyətlər üçün əsas rolu oynayır. Tərbiyənin varisliyi əvvəlki zəmində tərbiyə keyfiyyətlərinin qazanılması ilə əlaqədardır. Eyni zamanda, tərbiyə heç də uşağın inkişafını süni formada sürətləndirməlidir. Buna görə də məktəbəqədər pedaqogika bu yaşlı uşaqların hərətərəfli inkişafını təmin etmək üçün yaş xüsusiyyətlərini nəzərə alır və onun həyat haqqında anlayışlarını tədricən zənginləşdirir.Uşaq şəxsiyyətinin inkişafında, xarakter xüsusiyyətlərinin formalaşmasında tərbiyə elmi aparıcı mövqeyə malikdir.

Tərbiyə bəşəriyyətin yaranma tarixindən mövcud olan bir prosesdir. Hələ bəşəriyyətdə dövlər quruluşu mövcud olmamışdan qabaq tərbiyə anlayışının məqsədyönlü məzmununu tayfaların, qəbilələrin başçıları, müdrik ağsaqqallar tərəfindən müəyyən edilən adət-ənənələr təşkil etmişdir. İctimai-iqtisadi münasibətlər inkişaf etdikcə dövlət quruluşunun yaranmasına səbəb olur. Dövlətçilik yaranandan sonra uşaqların tərbiyə olunması strateji əhəmiyyətli bir iş kimi dövlətin himayəsinə keçmişdir.

Tərbiyənin məqsədi kimsə tərəfindən uydurulmur. O, xalqın, dövlətin və millətin obyektiv həyat şəraitindən və tələbatından asılıdır. Respublikamızda uşaq bağçalarında və məktəblərdə tərbiyənin məqsədi dövlətimizi qoruya bilən və onun gələcək inkişafını təmin edə biləcək yüksək milli mənəvi intellektə malik olan hərtərfli kamil nəsil yetişdirməkdir. Şübhəsiz şəxsiyyətin hərtərəfli inkişafını yalnız tərbiyənin tərkib hissələrindən (əqli, fiziki, əxlaq, əmək, estetik, ekoloji) səmərəli istifadə etməklə həyata keçirmək olar.

Əqli tərbiyə insan intellektinin inkişafında ən mühüm əlamətdir.Onun vasitəsilə uşaqlar elmi biliklərə yiyələnir, təbiəti, cəmiyyəti, əməyi, iqtisadiyyatın başlıca qanunlarını, ictimai və siyasi həyatı, bütövlükdə dünyanı dərk edir, yüksək mənəviyyata sahib olur.Əqli tərbiyə prosesində uşaq fantaziyasının inkişaf etdirilməsinə, hafizə və diqqətin formalaşdırılmasına, uşaqların söz ehtiyatının zənginləşməsinə,onların rabitəli,düzgün nitqə yiyələnmələrinə dəqayğıgöstərilməlidir.

Fiziki tərbiyə hərtərəfli və ahəngdar inkişafın mühüm keyfiyyətlərindəndir. Fiziki tərbiyənin vəzifəsi yetişən nəsli əməyə, Vətənin müdafiəsinə hazırlamaq, orqanizmin sağlamlığına, iradi keyfiyyətlərin və əqlin formalaşdırılmasına kömək etməkdir. Məktəbəqədər yaş dövründə uşaqların fiziki sağlamlığına xüsusi diqqət yetirilməlidir.

Uşaqları məktəbəqədər yaş dövründən başlayaraq sadə əxlaqi keyfiyyətlərə yiyələndirməyin çox mühüm əhəmiyyəti var. Uşaq dil açmağa başalayanda ona salam verməyi, əl ilə görüşməyi, nəvazişlə sağ ol deməyi öyrədirlər. Bu cür nəvaziş, şən münasibət uşaqlarda sadə əxlaqi keyfiyyətlərin məhkəmlənməsinə səbəb olur. Uşaqlarda böyüklərə hörmət, nəzakətli münasibət, mədəni davranmaq vərdişləri tədricən tərbiyə edilir, doğruçuluq, sadəlik, mehribançılıq, dostluq, yoldaşlıq kimi əxlaqi keyfiyyətlər inkişaf etdirilir. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsini vaxtında başlayıb, pedaqoji yolla düzgün aparmaq lazımdır.

Məktəbəqədər yaş dövründə əmək tərbiyəsi uşaqlarda əməyə, əmək adamlarına rəğbət hissi yaratmaq, əmək məhsullarından qənaətlə istifadə etmək, işgüzarlıq, çətinlikdən qorxmamaq, dözümlülük, qayğıkeşlik, özünə xidmət və faydalı işindən fərəhlənmək kimi nəcib əxlaqi keyfiyyətləri tərbiyə edir. Bu yaşlı uşaqlar sadə əməklə məşğul olmaq vərdişlərinə yiyələnirlər.

Uşaq bağçasında estetik tərbiyənin vəzifəsi uşaqlara cəmiyyətdə, təbiətdə gördüklərini, insanların yaratdıqları maddi nemətləri qiymətləndirməyi, onların başa düşə bildikləri incəsənət əsərlərindəki gözəlliyi duymağı və hiss etməyi öyrətməkdir. Bunun üçün uşaqları təbiətin qoynuna çıxarmaq, bədii əsərlərlə, musiqi və rəsm əsərləri ilə tanış etmək mühüm əhəmiyyət kəsb edir. Estetik tərbiyə həm də uşaqların yaradıcılıq qabiliyyətini inkişaf etdirir, onlarda bədiii estetik zövqün formalaşmasında mühüm rol oynayır.

Ekoloji tərbiyə insanlara təbiətdən istifadə etmək işində məsuliyyət hissi aşılayır. Gəhc nəslin ekoloji tərbiyəsi müasir mərhələdə daha çox əhəmiyyət kəsb edir. Uşaqların ətraf mühiti qoruması, təbiətə qayğı və məhəbbət ruhunda tərbiyə edilməsi işini məktəbəqədər tərbiyə müəssisələrindən başlamaq əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Uşaqlar məktəbəqədər yaş dövründən başlayaraq, anlaq səviyyələrinə və güclərinə müvafiq təbiətin qorunması işlərinə cəlb olunmalıdırlar ki, məktəb illərində bu sahədə daha səmərəli iş görə bilsinlər. Bu məqsədlə məktəbəqədər yaş dövründə uşaqlara təbiət haqqında maraqlı söhbətlər etmək və torpağın, suyun, havanın insan həyatındakı əhəmiyyəti barədə maraqlı məlumatlar vermək lazımdır.

Məktəbəqədər yaş dövründə uşaqların ekoloji tərbiyəsində valideynlərin qüvvəsindən də səmərəli istifadə etmək lazımdır.

Kollektiv insan həyatını təşkil etməyin səmərəli formalarından biridir.O,şəxsiyyətin formalaşması ücün əlverişli sosial mühit rolunu oynayır.Kollektiv nəzəriyyəsi sahəsində görkəmli mütəxəssis A.S.Makarenko kollektivin insana güclü təsirini qeyd edərək deyirdi ki,ən yaxşı oğlanlar pis təşkil olunmuş kollektiv şəraitində çox tezliklə vəhşi heyvancıqlara çevrilirlər.Yaxşı təşkil edilmiş kollektivdə isə təlim-tərbiyə sahəsində əsl möcüzələr yaratmaq olar.Böyük pedaqoq özü məhz kollektiv sayəsində belə möcüzə əldə etmişdi:16 illik pedaqoji fəaliyyəti ərzində 3 mindən artıq nəzarətsiz,gələcəyə ümidini itirmiş,cinayət yoluna düşmüş uşağı düzgün həyata qaytara bilmiş,onlardan gözəl vətəndaşlar yetişdirə bilmişdi.O, ”kollektivdə, kollektiv ücün və kollektiv vasitəsilə tərbiyə” prinsipini özünün başlıca fəaliyyət prinsipi kimi səciyyələndirirdi.Məktəb kollektivinə düzgün rəhbərliyi təmin etmək ücün onun mahiyyətini yaxşı bilmək və pedaqoji-psixoloji əsaslarına yiyələnmək lazımdır.

Kollektiv və onun əlamətləri. ”Kollektiv” sözü latınca coxluq,qrup,insan birliyi menasını verir.Kollektiv müəyyən əlamətlərinə görə təsadüfi insan yığınından (sərnişinlər,tamaşacılar və s.)fərqlənir.Kollektivin əlamətlərinə ictimai faydalı məqsəd,birgə fəaliyyət,təşkilatlanma,qarşılıqlı asılılıq,ictimai rəy kimi əlamətlər aiddir.Təsadüfi insan qrupu bu elamətlərə malik deyildir.Birgə fəaliyyət göstərən oğru,quldur dəstəsi cəmiyyətə zidd məqsədlər güddüyü ücün kollektiv hesab edilə bilməz.Göstərilən əlamətlərdən cıxış edərək kollektivə belə tərif vermək olar: **kollektiv** ictimai-faydalı məqsədlər naminə birgə fəaliyyət göstərən(1), qarşılıqlı asılılıq münasibətlərinə daxil olan(2), özünü idare orqanlarına (müvəkillərə)(3) və ictimai rəyə malik olan (4) insanları mütəşəkkil birliyi,yüksəl təşəkkül tapmış sosial qrupdur(5).

Bu tərifdən göründüyü kimi,kollektivin yaranması və yaşaması ücün göstərilan şərtləri ödəmək lazımdır.Kollektiv sosial qrupdur.Sosial qrup ünsiyyət tələbatı ilə bağlı yaranan insan birliyidir.Hər bir kollektiv qrup sayılır.Lakin hər qrup kollektiv deyildir.Sosial qrupun kollektive cevrilməsi asan olmur,müəyyən səviyyələrdən kecir.Sosial qrupun kollektivə dogru hərəkəti-kollektivin inkişaf səviyyələri hansılardır? Pedaqoji-psixoloji ədəbiyyatda bunla bağlı 6 səviyyə nəzərdən kecirilir.

Pedaqoji kollektiv və uşaq kollektivi.

Məktəbdə sosial tərbiyə işinin səmərəsi müəllim və şagird kollektivlərinin fəaliyyətinin əlaqələndirilməsindən cox asılıdır.Tərbiyə kollektiv prosesdir;buna görədə o,bütün məktəb kollectivini birgə və məqsədyönlü səyi nəticəsində mümkündür.Tərbiyə ustası A.S.Makarenko məktəbdə təlim-tərbiyə işinin müvəffəqiyyəti üçün ümumi məqsəd və normalarla yaşayan tərbiyyəçi və tərbiyyə olunanların vahid kollectivliyinin vacibliyini,bunsuz hec bir tərbiyyə prosesinin mümkün olmadığını qeyd etmişdir. Vahid pedaqoji kollectivin mühim şərti orada şəxsiyyətlər arası münasibətlərin(o

cümlədən məktəb direktoru-müəllim-şagird münasibətlərinin)düzgün qurulmasından,düzgün **ümumi ton və üslubun** yaradılmasından ibarətdir. A.S.Makarenko kollectiv üslubun fərqləndirici əlamətlərini müəyyən etmişdir onlar aşağıdakılardan ibarətdir:

a)gümrahlıq;

b)şəxsi ləyaqətin dərk edilməsi;

c)kollectiv üzvlərinin yoldaşlıq birliyi;

ç)müdafiə olunmaq hissi;

d)özünü saxlaya bilmək;

e)fəallıq.

Görkəmli pedaqoqun təcrübəsində kollektiv üslubun digər əlamətləri də gözlənilirdi:hər kəs ətraf mühiti qorumalı və şəraitə görə özünü aparmağı,yoldaşa güzəştə getməyi bacarmalıdır;kollektiv üzvləri işdə məsilyət və vicdanlı olmalı,zahiri estetikaya(geyim,təmizlik,davranış və münasibət gözəlliyinə əməl etməlidir. Bütün bu üslub və ton təzahürləri kollektivin tərbiyəvi rolunu gücləndirmək,habelə kollektivdə **ümumi ahəng** yaratmaq baxımından böyük əhəmiyyətə malikdir. Ümumi ahəng müəllim və şagird kolectivlərini ümumi idea və dəyərlər,umumi intellektual həyat və ümumi fəalliyyət ətrafında birləşdirməklə sıx bağlıdır.Ümumi intellektual həyat pedaqoji və şagird kollektivlərini vahid məktəb kollectivlərində birləşdirir.Şən hazır cavabların yarışı,bilik yarışları,fən dərnəkləri,fən olimpiadaları,elm və mədəniyyət adamları ilə görüşlər-müəllim və şagirdlərin ümumi işini sayəsində mümkün olur.

Eləcə də ümumi əmək məktəbəqədər tərbiyə müəssəsinin pedaqoji və uşaq kollectivlərini bir birirnə yaxınlaşdırır. Uşaq bağcası üçün insanlar və cəmiyyət üçün ürəkdən görülən iş və müntəzəm ictimai mühitə faydalıəmək məktəb kollectivinin mənəvi həyatanı zənginləşdirir və şagirdlərin şəxsiyyət kimi formalaşmasina təsir göstərir.Məktəb kollectivinin fomalaşması və inkişfında oradakı çox cəhətli əlaqə və münasibətlərin təşkili mühüm əhəmiyyət kəsb edir.Uşaq və gənclər müxtəlif fəalliyyət növlərində iştirak etmeklə,məktəbdə və məktəbdən kənar müxtəlif kollektivlərin(dərnəklər kulublar idman bölmələri marağa görə dəstələr və uşaq biliklərinin)üzvləri ilə qarşılıqlı əlaqələrə daxil olmaqla icitimai münasibətlər və sosial ünsiyyət təcrübəsi qazanırlar.Buna görə də məktəbədə müxtəlif kollektivlərin yaradılmasına və şagirdlərin onların fəalliyyətində fəal iştirak etmələrində nail olmaq vacibdir. Məktəbdə uşaq kollektivlərinin növləri coxdur onlar iki böyük qrupa bölünür.Kiçik(ilkin)kollektiv və böyük(ikincili)kollektiv.İlkin kollektiv-bilavasitə ünsiyyət və fəaliyyətlə(iş,məişət,emosional)bağlı olan uşaq qruplarıdır(sinif,dərnək,marağa görə dəstələr və s.) Böyük (ikincili)kollektiv öz tərkibi və istiqamətlərinə gorə kiçik (ilkin)qrupları birləşdirən kollektivdir(məktəb,istirahət düşərgələri və b.).

Kollektivlərin müxtəlifliyi,bir tərəfdən,hər bir uşaqın ahəngdar şəxsiyyət kimi inkişafı üçün imkan yaradır,digər tərəfdən isə şagird müxtəlif münasibətlərə daxil olmaqla özünü şəxsiyyət kimi daha yaxşı ifade və təsdiq edir.Hər bir şagird coxcəhətli kollektiv əlaqə və münasibətlər sisteminə daxil olaraq sosial təcrübə qazanır.Belə qarşılıqlı əlaqələr eyni zamanda məktəbdə bütün şagirdlər (həmyaşıdları,bğyük və kiçiklər)arasında ümumi müsbət emosional mühitin yaranmasına kömək göstərir.

Məktəbəqədər tərbiyə müəssəsi təcrübəsində ilkin kollektivlərlə ümumiməktəb kollektivi arasında əlaqələrin müxtəlif formaları tətbiq olunur: məktəbdə və ondan kənarda ictimai-faydalı əmək, ümumi məktəb tədbirləri(bayramlar,müsabiqələr,tematik axşamlar,yarışlar,idman oyunları,gəzintilər,olimpiyadalar,diskusiyalar və s.) bu qəbildəndir.Bunun sayesində müxtəlif kollektivlərin qarşılıqlı əlaqələri genişlənir,işdə qarşılıqlı kömək təşkil edilir,sosial təcrübə mübadiləsi aparılır,uşaq və gənclərin təşkilati,icra,komunikativ və digər bacarıqları formalaşır. Tərbiyəci və sosial pedaqoqlar şagird kollektivlərində,xüsusən ilk (sinif) kollektivlərdə sağlam qarşılıqlı münasibətlərin formalaşmasına xüsusi diqqət yetirməlidir.

Sinif kiçik qrup(kollektiv)kimi

Sinif-kiçik qrup kimi müəyyən xüsusiyyətlərlə qrupun digər növlərindən fərqlənir:oradakı münasibətlər müəllim-şagird və şagird-şagird münasibətlərinə əsaslanır.Müəllim və şagirdlərin hər birinin özünə məxsus rolu vardır:müəllim həm peşəkar öyrədən və tərbiyəçi,həm də böyük həyat təcrübəsinə malik insandır.Şagird isə öyrənən və təhsil alan şəxs olmaqla eyni zamanda müəyyən yaş qrupuna malik olan(uşaq,yeniyetmə,gənc)şəxsiyyətdir.Bu hal kiçik qrup kimi sinif kollektivində şəxsiyyətlər arsı münasibətlərin xarakterinə təsir edir. Digər tərəfdən, sinif kollektivində qarşılıqlı münasibətlər iki səviyyədə-formal (rəsmi)qeyri-formal(qeyri-rəsmi)səviyyələrdə qurulur.

Uşaq bağcasının rəsmi qaydaları ilə tənzimlənən münasibətlər(tərbiyəci-uşaq, uşaq-uşaq. Və s.)rəsmi münasibətlərdir.Bununla yanaşı həmin münasibətlər qeyri-rəsmi(isti,yaxın)səciyyə daşıya bilər.Sinif daxilində ayrı-ayrı uşaqlar və ya kiçik qrupda birləşən şagirdlər dostluq münasibətində ola bilərlər.Bu yolla qrup daxilində mikro qruplar yaranır və onlar sinif kollektivinin həyatında müəyyən rol oynayır;oradakı münasibətlərə güclü təsir edir.Tədqiqatlar(Ə.Bayramov,Ə.Əlizadə və b.)göstərir ki kollektvdə şagirdin mövqeyi,statusu dəyişə bilər.Məsələn,sinif nümayəndəsi normal münasibətdə kollektivin həyatında xüsusi yer tuturvə müəyyən sosial rol oynayır.Halbuki,qeyri-formal münasibətlərdə qrupun adi üzvlərindən biridir.Sinif kollektivində şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsi zamanı tərbiyəçi,sosial pedaqoq şagirdlərin formal və qeyri-formal münasibətlərindəki mövqeyi nəzərə almalıdır.

Qrupda qarşılıqlı təsirlərin və şagirdlərin qrup statusunun təhlili (R.Beyls) göstərir ki,nüfuz səviyyəsinə görə şagirdlərin qrup statusu dəyişir:daha

nüfuzlu(I,IIqrup)nisbətən nüfuzlu (IIIqrup) və az nüfuz, təcrid olunan(IVqrup).R.Beylsin sxemi və müvafiq sosial meyarlar əsasında aparılmış tətqiqat(H.Ə.Əlizadə)zamanı müəyyən edilmişdir ki,qrup diferensiyası keçirilən sinifdə(IXsinif)şagirdlərin 41.4%-i I və II qrupa,1/3-i III qrupa daxil olmuş,təcrid olunan şagirdlərdə az olmamışdır.Bu göstəricilər əsasında sinfin tərbiyə işinin səviyyəsini və kolektiv kimi inkişaf mərhələlərini müəyyən etmək mümkündür.Göstərilən tətqiqatda həmin sinfin tərbiyə səviyyəsinin aşagı olduğu kollektiv kimi inkişafını II mərhələsinə uyğun gəldiyi müəyyən edilmişdir. Tədqiqatda həmdə aşkar edil mişdir ki,sinfin bir çox fəalları nüfuz baximindan I qrupa deyil II-III qrupa daxil olmuşlar. Onlar sinifin şəxsi(qeyri-formal)münasibətlər sistemində fərqlənsələr də,işgüza(formal)münasibətlərdə nüfuza malik deyildirlər.Sinif kollekttivində əlaçılara.sinif nümayəndələrinə və qeyri-rəsmi liderlərə münasibət hec də həmişə bir mənalı olmur.Sosial pedaqoq qrup diferensiyasında bu cəhətləri nəzərə almalıdır.Sinif nümayəndəsi və qeyri rəsmi liderin qarşılıqlı münasibətləri kollektivin ümumi məqsədi baxımından tənzim edilməlidir.Bu tələb sinif kollektivi ilə ayrı-ayrı mikro qrupları arasındakı munasibətlərdə də gözlənilməlidir.Sinifdə kollektivdən təcrid olunmuş-təklənən uşaqların kollektivlə qaynayıb qarışmasını təmin etmək,onları kollektivdəki mövqeyini dəyişmək lazımdır.Bu yolla yeni yetmelerin qeyri-formal kücə qruplarından ayırmaq və normal kollektiv həyata qaytarmaq olar.

Uşaq kollektivinin təşkili və tərbiyyəsi . Kollektiv düzgün təşkil edildikdə sosial tərbiyyə işində təsirli vsitə ola bilər.Kollektivin təşkili müəyyən şərtlərlə bağlıdır.Həmin şərtlər sırasında aşağıdakıları qeyd etmək olar:
---səlahiyyətlərin,ictimai vəzifələrin düzgün bölünməsi;

--mümkün qədər daha çox şagirdin ictimai vəzifələrə cəlb edilməsi;

--uzunmüddətli vəzifələrin vaxtaşırı dəyişdirilməsi;

--vəzifəyə secilmiş şəxslərin vaxtaşırı olaraq kollektiv qarşısında hesabat vermələri;

--kollektivin təşkilində demokratik prinsiplərin əsas götürülməsi.Bu prinsiplərə demokratiya(kollektivin həyatında və idarə olunmasında hamının seçkili orqanlar vasitəsi ilə iştirakının təmin olunması),aşkarlıq(işlərin gizli və qapalı yox,aşkarlıq şəraitində icrası),plüralizm(fikir müxtəlifliyinə azadfikirliyə şərait yaradılması),coxluğun rəyinin əsas götürülməsi və azlığın rəyinə hörmət edilməsi və s. Prinsilər daxildir.Həmin prinsiplər əsasında sağlam,demokratik kollektiv yaratmaq və onu tərbiyyənin təsirli subyektinə çevirmək olar. Kollektivin təşkili uzun sürən prosesdir;bunu qısa müddətdə nail olmaq çətindir.Kollektivin inkişafı kortəbii yox,idarə olunan prosesdir.Buna gğrə də onun inkişaf mərhələlərini bilmək və bu inkişafı düzgün istiqamətləndimək lazımdır. **Kollektivin inkişaf mərhələləri.**Kollektivin inkişafının göstəricisi kimi onun üzvlərinin fəalllq dərəcəsi (1) və tələblərin verilməsi (2)-xarici tələbələrin daxili tələbələrə keçməsi prosesi əsas götürülür.Bu baxımdan kollektivin inkişafında 4 mərhələ ayrd edilir.1 ci mərhələ kollektivin təşkili mərhələsi adlanır.Burada əsas

təşkilatçı kimi müəllim-tərbiyyəçi mıxıç edir:o,şagirdlərin arzu və maraqlarını nəzərə alaraq birgə maraqlı işlər təşkil edir,ardıcıl tələblər verir.Müəllim eyni zamanda uşaqlar içərisində özünə tərəfdarlar seçir onları təşkilatçılıq işinə cəlb edir.
İkinci mərhələ kollektiv pzəyin təşkili mərhələsi adlanır.Fəallar müəllim-tərbiyəçinin dayağı kimi çıxış edirlər:onun tələblərini müdafiə edir və kollektivin həyatında fəallıq göstərirlər.

Üçüncü mərhələ özünü idarəyə keçid mərhələsi adlanır.Bu mərhələdə kollektivin əksər üzvləri onun həyatında fəal iştirak edir,yoldaşlarına tələblər verirlər.Kollektivin seçkili orqanları əsas təşkilatçı kimi çıxış edir.Bu mərhələdə kollektivin ictimai rəyi formalaşır və əsas tərbiyəedici,tənzimedici amilə cevrilir.Məhz bu pillədə ayrı-ayrı şagirdlərin xoşagəlməz hərəkətlərini kollektivin müzakirəsinə çıxarmaq və onlara səmərəli kollektiv təsiri təşkil etmək mümkündür.

Dördüncü mərhələ kollektivin yetkinlik mərhələsi adlanır.Bu mərhələdə kollektivin bütün üzvləri onun həyatında fəal iştirak edir,hərə özünə tələb verir.Beləliklə,tərbiyə özünü tərbiyə ilə qovuşur.
Kollektivin təşəkkülü və formalaşmasının göstərilən mərhələləri onun inkişaf dinamikasını ifadə edir:kollektiv pedaqoji rəhbərlikdən tədricən özünü idarə və özünü tənzimləmə sisteminə çevrilir və mühüm tərbiyyə vasitəsi kimi çıxış edir. Kollekti təşkil edib formalaşdırmaqla yanaşı,onun tərbiyyəsi qeydinə də qalmaq lazımdır.Əks halda,böyük zəhmətlə yaradılan kollektiv inkişaf etməz,zəifləyib dağıla bilər.

Kollektivin tərbiyyəsi yolları.

Məktəb şagird kollektivinin tərbiyyəsi ücün müxtəlif yollardan istifadə edilir:
a)kollektiv qarşısında fərəhli məqsədlərin qoyulması;
b)məktəbdə tərbiyyəvi ənənələrin formalaşdırılması;
c)kollektivdə fəalların rolunun və sayının artırılması;
ç)kollektiv üzvləri arasınsa səmimi qarşılıqlı münasibətlərin (yoldaşlıq və dostluğun) yaradılması.
Kollektiv tərbiyyəsinin əsas yolu onun qarşısında fərəhli məqsədlarin qoyulmasıdır.Kollektivin özünü möhkəmləndirməsi qanununa əsasən,birgə fəaliyyət məqsədlərinin mövcudluğu nəinki insan qrupunu kollketivə çevirir,həm də onun özünü möhkəmləndirməsini;bu məqsədlərin itirilməsi kollektivin də dağılmasına,onun korperativ qrupa çevriliməsinə səbəb olur. Fərəhli və ictimai-faydalı məqsəd uğrunda mübarizə kollektivi möhkəmləndirir onun həyatına sevinc və gümrahlıq gətirir.A.S.Makarenko kollektiv qarşısında qoyulan fərəhli perspektiv məqsədlərin üç növünü müəyyən etmişdi:yaxın,orta və uzaq perspektivlər.Bu halda yaxın məqsəd əldə edilərkən yenisis irəli sürmək lazımdır.Məsələn,məktəb həyətini təmizləmək-idman kompleksi yaratmaq-daha sonra məktəb daxili və rayon üzrə idman yarışları keçirmək.
Kollektivin tərbiyəsində ənənələrin rolu böyükdür.Ənənə dedikdə,dövri olaraq

təkrarlanan və hamı tərəfindən qəbul edilən möhkəm qaydalar başa düşülür.Ənənə kollektivi birləşdirir,onun həyatına gümrahlıq,gözəllik verir,onu dağılmaqdan qoruyur.Bu mənada A.S.Makarenko ənənəni "ictimai yapışqan" adlandırıb qeyd edirdi ki,heç nə ənənə qədər kollektivi möhkəmlədmir.Məktəblərdə ilk zəng,son zəng,məzunların görüşü,hər şagirdin bir ağac əkib on bir il ona qulluq etməsi,hər il idman spartaki adası keçirilməsi və s. kimi ənənələr vardır. Kollektivi inkişaf etdirməyin bir yolu da fəalların rolunun və sayını artırmaqdan ibarətdir. Fəallar kollektivin canlı özəyini təşkil edir,tərbiyəçinin yaxın köməkçisi kimi çıxış edirlər. Onlar kollektivin gündəlik həyatında yaxından iştirak edir,təşəbbüs göstərir verilən ictimai işləri yerinə yetirir,öz yoldaşları üçün nümunə olurlar. Kollektivin tərbiyyəsində şəxsiyyətlər arasında səmimi qarşılıqlı münasibətlərin yaradılması yoldaşlıq və dostluğun möhkəmləndirilməsi mühim şərtdir.Kollektivdə münasibətlər qarşılıqlı rəğbət,hörmət,bərabərlik,yoldaşlıq və dostluqa əsaslanmalıdır.Belə münasibətlər kollektivi birləşdirir,onu mehribanlaşdırır və möhkəmləndirir.Əksinə,şagirdlər arasında qeyri-səmimi münasibətlər,küsülülük,çəkişmə və parçalanma halları kollektivi zəiflədir,onun dağılmasına gətirib çıxarır.Buna görə də kollektivdə işgüzar,humanist,səmimi münasibətlərin yaradılması qeydinə qalmaq,bu məqsədlə birgə maraqlı tədbirlər(əmək,idman yarişları,ekskursiya və gəzintilər,oyun və əyləncələr və s.)keçirmək faydalıdır.

Mövzu: 4. Körpəlik dövründə uşaqların inkişafı və tərbiyəsi (həyatının I ili).

PLAN:

1. Uşaqların həyatının birinci ili
2. Həyatının ikinci ilində uşaqların xüsusiyyətləri
3. Uşaqların həyatının üçüncü ili
4. Uşaqların həyatının dördüncü ili.
5. Həyatının beşinci ilində uşaqların xüsusiyyətləri.
6. Uşaqların həyatının altıncı ili.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.

2. Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı,1964.

3. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

4. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı, Bakı, 1998.

5. Y.Ş.Kərimov. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası, Bakı, 1997.

1. Həyatın birinci ilində -----uşaq böyüklərin köməyinə möhtacdır. Buna görə də bu yaşda uşaqların inkişafına kömək etmək üçün onları qorumaq, sağlamlığına xüsusi diqqət yetirmək, həyatlarını düzgün təşkil etmək, onlarda müsbət keyfiyyətlərin yaranmasına xüsusi fikir vermək lazımdır.

Yeni anadan olmuş normal uşağın boyu 50-60, çəkisi isə 2800-4500 qrama qədər olur. Birinci yarım ildə hər bir uşağın aylıq çəkisi 600-700qram, boyu isə 2-3 sm artır. İkinci yarım ildə isə boyun artım sürəti bir az azalsa da, çəki yenə çox yüksək olur. Uşağın aylıq çəki artımı 400 qr, boy artımı isə 2sm olur.Uşaq doğulandan 10-15 gün sonra anadangəlmə şərtsiz reflekslər əsasında xarici mühitlə əlaqədə onda şərti reflekslər əmələ gəlir. Məsələn, 2-ci aydan sonra rejim əsasında qidalanmağa adət edir, müəyyən edilmiş vaxtda yatır və durur. Bu dövrdə uşaq üçün yaradılan rejimin də rolu böyükdür. Rejimin düzgün təşkil olunması, mükəmməl qidalanma, təmiz havada yatma, ciddi gigiyenik qulluq və s. uşağın normal psixi-fizioloji inkişafını təmin edən əsas şərtlərdir.

1-3 yaş müddətində uşaqda sümüklərin bərkiməsi çox sürətlə gedir. Uşağın dişləri 6 ayından çıxmağa başlayır və 1 yaşında normal inkişaflı uşağın 8-ə qədər dişi olur. Uşağın bel sütunu qığırdaq halında olur. Ümumiyyətlə, uşağın sümükləri yumşaq və qığırdaq halında olduğu üçün onunla fiziki rəftarda (bələmə, qucağa götürmə) bu xüsusiyyətlərə ciddi əməl olunmalıdır.

Uşağın ciyərləri və ürəyi çox sürətlə böyüyür. Uşağı kiçik yaşdan burnu ilə düzgün nəfəs almağa alışdırmaq lazımdır. Bunun üçün onları tez-tez təmiz havaya çıxarmaq lazımdır. İlk günlərdə uşaqda qoxu və dadbilmə, toxunma və hissetmə, eşitmə (2-3 həftə ərzində uşaq heç bir səs eşitmir), görmə (uşaq 3 həftədən sonra görməyə başlayır), qavrama çox zəif olur.

Uşaq 5 aylığında kürəyi üstündən qarnı üstə çevrilməyə başlayır.9 aylığında uşaq dayaq ətrafında yaxşı gəzməli, 11 aylıqda dayaqsız yaxşı durmalı, 1 yaşında isə gəzməyə başlamalıdır. Uşaq həyatının birinci ili nitq inkişafına hazırlıq mərhələsidir. Uşaq 2-3 ayında qığıldanmağa başlayır, 5-6 ayında hecalar tələffüz edir, 9-10 ayında böyüklərin təklifi ilə sadə sözləri deməyə başlayır. 1 yaşına kimi uşaq ən azı 10 sözü tələffüz etməyi öyrənməlidir.

Uşağın təbii yolla – ana südü ilə qidalandırılması həmişə təhlükəsiz olmuşdur. Körpə ana südü ilə qidalandıqda onlarda xəstəliklərə qarşı immunitet yaranır, mədə-bağırsağı sağlam olur və yaxşı inkişaf edir. Erkən yaşda uşağa su verilməsi çox vacibdir. Uşağa gün ərzində bir neçə dəfə su vermək olar, uşağa ancaq qaynadılmış su vermək lazımdır. Uşağın normal inkişafı onun düzgün qidalandırılmasından çox asılıdır. Uşağa gündə 3 dəfə, səhər, nahar və axşam yeməyi verilməli, hər gün yedizdirmə arası meyvə şirəsi verilməlidir.

Adətən, uşağı yedizdirmədən əvvəl çimdirmək lazımdır. Suyun istiliyi 32-38 dərəcə arasında ola bilər. Bir yaşa qədər uşağı 5-7 dəqiqə müddətində çimdirib qurtarmaq lazımdır. Uşaqların normal inkişafı üçün təmiz havada olması çox vacibdir.

2. Uşağın həyatının ikinci ili. fiziki inkişafın sürətlə getdiyi dövrdür. Bu dövrdə sinir sisteminin iş qabiliyyətinin həddi genişlənir. Uşaq yaş yarıma yaxın 3-3,5 saat, ikinci ilin sonuna yaxın 5 saat oyaq qala bilir, orqanizmin müqavimət göstərmək qabiliyyəti xeyli artır. Bu da xəstəliklərin azalmasına səbəb olur.

Skelet hələ bərkimədiyindən uşağın müxtəlif hərəkətlərini sakit oyunla əvəz etmək lazımdır. Oynamaq üçün uşağa müxtəlif ölçülü toplar, arabacıqlar və s. vermək olar. Bu dövrdə uşaqlarda öyrənmə həvəsi artır, müşahidəçilik qabiliyyəti güclənir, görmə həssaslığı xeyli çoxalır. İkinci ilin sonuna yaxın uşaq əvvəlki hərəkətlərini daha da təkmilləşdirir. Onlar ailə üzvlərinin hərəkətlərini oyunlarında təqlid etməyə başlayırlar. Oyun bu yaşda uşaqların həyatında yüksək əhəmiyyət kəsb edir. Oyun komplektlərinə didaktik oyucaqlardan başqa, süjetli oyuncaqlar: gəlinciklər, pişik, xoruz, oyuncaq qaşıqlar, boşqablar və s. daxil edilir.

Həyatın ikinci ilində uşağın nitqi daha da təkmilləşir. 1,5 yaş dövrü ərzində uşaq cəmi 30-40 söz öyrənir. İki yaşın sonuna yaxın uşaq 300-ə qədər söz işlədir ki, bunlardan bəziləri hətta əşyaların keyfiyyətinə aid olur.

Bu dövrdə uşağa cisim və hadisələrin məzmununu anlatmaqla yanaşı, anladıqlarına aid danışmağı da öyrətmək lazımdır. Onun nitqində qısa cümlələr get-gedə geniş yer tutmalıdır. Bu dövrdə eyni zamanda uşağın müstəqilliyi artır.

Yemək və geyindirmə zamanı buna geniş yer vermək lazımdır. Bu yaş dövründə olan uşaqlarla hər gün məşğələ və ya xüsusi təşkil olunmuş oyunlar keçirilir: 1. nitqin inkişafı və mühitə bələdliyi genişləndirmək üçün; 2. hərəkətin inkişafı üzrə; 3. əşya ilə hərəkətin inkişafı üzrə; 4. oyunlar-əyləncələr; 5. musiqi məşğələləri. Bu dövrdə uşaqlara əşyaların adlarını deməklə göstərilməsi, bu adların düzgün tələffüzü nitqin inkişafına müsbət təsir göstərir. Hərəkətlərin inkişafı üzrə məşğələ-oyunlar, gimnastik və mütəhərrik oyunlar şəklində aparılır.

3. Həyatın üçüncü ilində uşağın fiziki inkişafı ləng gedir. Bir ildə orta hesabla uşağın çəkisi 2-2,5 kq, boyu isə 7-8 sm artır, lakin onlar artıq daha möhkəm və dözümlü olurlar. Sinir sisteminin iş qabiliyyəti bu yaşda daha da artır. Fasiləsiz olaraq o, 6 saatdan 6,5 saata kimi oyaq qala bilir.

Bu dövrdə yerimək müntəzəm xarakter alır. Üç yaşa yaxın müstəqil geyinir, soyunur, əl-üzünü yuyur, karandaşla işləyir və s.Üç yaş içərisində olan uşaqda nitqin əhəmiyyəti yüksəlir, xatirələr danışır, nəticə çıxarır, təbiət hadisələrinə öz münasibətini bildirir, göy guruldayanda "yağış yağacaq" deyir.

Üç yaşda uşaqda lüğət ehtiyatı zənginləşir, 1200-1300 sözdən istifadə edir, öyrəndiyi şeri yadda saxlayır. Bu yaş dövründə uşaqların nitq inkişafını, ətraf mühitə münasibətini formalaşdırmaq üçün didaktik vəsait komplektindən istifədə etmək çox faydalıdır. Bu komplektdə aşağıdakı vəsaitlər olmalıdır: a) mürəkkəb hərəkətləri inkişaf etdirmək üçün arabacıq, top, yelləncək, velosiped və s. oyuncaqlar; b) nitqin inkişafı üçün şəkillər, tablolar, oyuncaq heyvanlar, meyvələr və s.; c) süjetli oyunlar üçün kuklalar; d) təsviri fəaliyyət üçün taxta, təbaşir, rənglər və s. Uşaqlarda əhval-ruhiyyə yaratmaq üçün əyləncəli oyunlardan, o cümlədən "Gizlənpaç" oyunundan da geniş istifadə etmək lazımdır.

Uşaqların ümumi inkişafını, xüsusən nitqini inkişaf etdirmək üçün gəzinti və ekskursiyaya getmək, şəkil və tablolar üzrə söhbət keçirmək, heyvanlar haqqında qısa şer öyrənmək və s., yaddaşı və təsəvvürü inkişaf etdirmək üçün tapmaca xarakterli oyunlardan da istifadə etmək səmərəlidir.

Konstruktiv oyunları keçirmək üçün tərbiyəçi əvvəlcə nümunə göstərməli (kubikdən ev düzəltmək) , sonra uşaqları işə qoşmalıdır. Uşaqların yaxşı işi tərbiyəçi tərəfindən təriflənməli , bəzən də tərbiyəçi uşaq fəaliyyətində çatışmazlıqları aradan qaldırmaq üçün suallar verir: "Tikdiyin evin qapısı hanı?" "O biri pəncərəni hara qoyacaqsan?" və s. Karandaş və kağızla iş bu yaş dövründə daha çox kollektiv xarakter daşıyır. Uşaqlar tərbiyəçinin göstərişi və nümunəsi əsasında ağac, ev, quş şəkli çəkir, çəkdiklərini müqayisə edirlər.

Tərbiyəvi tədbirlər zamanı hər bir uşağın fərdi xüsusiyyəti tərbiyəçi tərəfindən düzgün nəzərə alınmalıdır.

4. Məktəbəqədər yaşlı uşaqların bağça dövrü dörd qrupa bölünür:

3-cü yaş dövrü kiçik qrup;

4-cü yaş dövrü orta qrup;

5-ci yaş dövrü böyük qrup;

6-cı yaş dövrü məktəbə hazırlıq qrupu.

Hər qrupa daxil olan uşaqların özünəməxsus yaş xüsusiyyətləri olduğu kimi, hər bir uşağı başqalarından ayıran fərdi xüsusiyyətləri də vardır. Bağça yaşlarında uşağın orqanizminin daha da möhkəmlənməsinə, inkişafına, həmçinin, onun zehni, əxlaqi, fiziki və estetik tərbiyəsinə ciddi diqqət yetirilir.

Uşaq bağçasında uşaqların tərbiyəsini həyata keçirmək üçün aşağıdakı məsələlərə ciddi əməl olunmalıdır: a) uşaqların sağlamlığı qayğısına qalınmalı, bağçada bütün şərait və rejim gigiyenik səhiyyə tələblərinə müvafiq surətdə təşkil olunmalı, oyunlar keçirilməli, fiziki təmrinlər yerinə yetirilməlidir; b) əyləncəli oyunlar və məşğələlər, bədii söz, nəğmə, təbiətə ekskursiyalar və gəzintilər, ətraf həyatla tanışlıq vasitəsilə uşaqlar zehni və bədii cəhətdən tərbiyə edilməlidirlər; c) oyun prosesində və əmək tapşırıqlarının icrasında gücləri çatan qədər iştirak etməklə uşaqlara kollektivdə özünü aparmaq bacarığı öyrətmək lazımdır; d) uşaqların başa düşəcəyi maraqlı misallarla onlarda müstəqil Azərbaycan dövlətinə, xalqımıza, Vətənimizə, Milli Ordumuza məhəbbət hissi tərbiyə olunmalıdır. Uşaq bağçası bu vəzifələri yerinə yetirməklə uşaqları məktəbə hazırlayır.

MÖVZU: 5. Körpəlik dövründə uşaqların inkişafı və tərbiyəsi (həyatının II ili).

PLAN:

1. Əqli tərbiyənin əhəmiyyəti, vəzifələri.

2. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsində valideynlərin rolu.

3. Fiziki tərbiyənin əsas anlayışları, məqsəd və vəzifələri,prinsipləri.

4. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində tətbiq olunan metodlar.

5. Əxlaq tərbiyəsinin ümumi əsasları, prinsipləri . Vətənə sədaqət və Milli Orduya məhəbbət hisslərinin formalaşdırılması.

6. Məktəbəqədər yaşlı uşaqların insanpərvərlik və ədəb-ərkanlıq ruhunda tərbiyəsi.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı, 1964.
3. A.Həsənov. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsi (metodik vəsait) Bakı, 1993.
4. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

1. Əqli tərbiyə zamanı uşaqlar tədricən planlı şəkildə bəşəriyyətin əldə etdiyi bilik, bacarıq və vərdişlər sisteminə, ictimai-siyasi təcrübəyə yiyələnirlər. Bu, böyüklər tərəfindən müxtəlif prinsiplər, metod və təmrinlərədn istifadə edilərək həyata keçirilir. Uşaqların əqli inkişafı təlim tərbiyə və ətraf aləmin təsiri altında formalaşır. Formalaşma prosesində uşaqıarda hər şeyi bilmək həvəsi, müşahidəçilik, habelə əqli işin ilk vərdişləri tərbiyə edilir.

Uşağın əqli inkişafı onda psixi proseslərin, xüsusən də duyğuların inkişafından, qavrayışın təkmilləşməsindən, yəni ətrafdakı əşya və hadisələrin hisslərlə əks etdirməsindəın başlanır. Ətraf aləmin duyğular vasitəsilə dərk edilməsi insanın əqli cəhətdən təkmilləşməsinə səbəb olur. Uşaqlar təlim

məşğələləri vasitəsilə ətraf mühiti dərk edir, onlar tədricən mühitə və burada əmələ gələn dəyişikliklərə uyğunlaşırlar.

Uşağın əqli fəaliyyəti onun təxəyyülünə, təsəvvürünə, mühakiməsinə özünəməxsus rəngarənglik verən emosiya ilə sıx bağlıdır. Bütün yeniliklər uşaqlarda təəccüb əmələ gətirməklə bəzən heyrət, sevinc, bəzən vahimə, qorxu yaradır. Bu emosiyalar hafizədə saxlanılaraq, elə bil həmin əşyanın və ya hadisənin keyfiyyəti kimi əks olunur. Uşaqalrın əqli inkişası öz tutumu, xarakteri və biliyinin məzmununa görə fərqlənir. Daim axtarışda olan, bilmədiyini öyrənməyə həvəs göstərən uşaqda fəallıq daha üstün olur.

Əqli fəaliyyətin mühüm keyfiyyətlərindən biri də tənqidlikdir. Əqlin tənqidlik bacarığı keyfiyyəti öyrənmə bacarığı kimi qiymətləndirilir. Belə ki, fəaliyyət zamanı adamda qarşıya çıxan çətin məsələni həll etmək, nəticə çıxarmaq və mühakimə yürütmək qabiliyyəti formalaşır. Əşya və hadisələr arasında qarşılıqlı əlaqəni tapmaq, ona münasibət göstərmək, biliyi ümumiləşdirmək əqli inkişafın göstəricilərindəndir. Yetişən nəsildə əqli inkişafın səviyyəsi öyrənmə marağına, biliyə yiyələnmək, biliyi dərk etmək qabiliyyəti və s. sahələrdə özünü göstərir. Bu da uşağın həyat tərzi və onu əhatə edən mühitdən çox asılıdır. Uşaqlarda əqli inkişafın ardıcıllığını təmin edən başlıca faktor onun tərbiyəsi ilə müntəzəm məşğul olmaqdır.

2. Uşaqlar kiçik yaşlarından təbiət və cəmiyyət hadisələri haqqında müəyyən biliklərə yiyələnməklə əqli cəhətdən də inkişaf edirlər. Əqli inkişaf əxlaq tərbiyəsi ilə sıx bağlıdır. Əxlaq tərbiyəsi insanda müəyyən ideya istiqaməti və əqidə formalaşdırır ki, bu da biliyə yiyələnmədə mühüm əhəmiyyət kəsb edir. Ətraf mühit praktik, elmi-nəzəri və estetik cəhətdən dərk edilə bilər. Bu keyfiyyətlər bir-birilə sıx bağlıdır.

Əqli cəhətdən formalaşma həm də fiziki tərbiyə ilə əlaqəlidir. Uşağın əqli inkişafı onun sağlamlığından çox asılıdır. Fiziki cəhətdən sağlam olan uşaq hadisələrə sürətlə münasibət bildirir, düzgün fikirləşməyi bacarır, normal böyüyür və gələcək cəmiyyətdə öz layiqli yerini tutmaq üçün müvəffəqiyyətlə irəliləyir. Fiziki tərbiyə sahəsindən düzgün baş çıxaran tərbiyəçi əqli inkişafın da zəruriliyini aydın dərk edir. Belə ki, iradi keyfiyyətlərin formalaşması (dözümlülük, cəsarətlilik, qətiyyətlilik, mərdlik və s.) əqli davranış formaları ilə sıx bağlıdır.

Uşağın əqli inkişafı estetik, əmək tərbiyəsi ilə də əlaqəlidir. Bütün pedaqoji proseslərdə olduğu kimi uşaqların əqli tərbiyəsində də həlledici rol tərbiyəçilərin və valideynlərin üzərinə düşür.

3. Məktəbəqədər tərbiyə müəssisələrində əqli tərbiyənin vəzifələri aşağıdakılardır:

1. Cəmiyyət və təbiət haqqında elmi anlayışları formalaşdırmaq, real elmi dünyagörüşü yaratmaq;

2. Əqli fəaliyyəti inkişaf etdirmək məqsədilə öyrənmə marağı, qabiliyyəti və əqli fəaliyyətin digər rəngarəng növlərini formalaşdırmaq;

3. Müstəqil öyrənmə meyli, mədəni əqli iş tərbiyə etmək.

Əqli tərbiyənin birinci və əsas vəzifəsi uşaqların ətraf aləm, təbiət, əmək, ictimai hadisələr, müxtəlif əşyalar, onların keyfiyyətləri və xüsusiyyətləri haqqında sadə biliklərə yiyələnməsini təmin etməkdir. Kiçik yaşlı uşaqlar fəaliyyət prosesində yaxın adamlarla, onları əhatə edən əşyalarla tanış olurlar. Sonra bu əşyaların əsas əlamətlərini ayırmağa, onlar arasındakı əlaqəni anlamağa, müxtəlif təbiət və həyat hadisələrinin başvermə səbəblərini öyrənməyə başlayırlar.

Ətraf mühit haqqında biliklər uşaqların əxlaq və estetik tərbiyəsində də mühüm rol oynayır. Tərbiyəçinin bu sahədə başlıca vəzifəsi uşaqlara bilik vermək, bunun əsasında onların marağını, öyrənmək həvəsini, diqqətli olmasını inkişaf etdirməkdir.

Kiçik yaşlı uşaqların hafizəsi də sürətlə inkişaf edir, bilikləri artır, düşüncəli yadasalma və yaddasaxlama qabiliyyəti formalaşır. Bu yaş dövründə uşaqlarda məqsədli yaddasaxlama sistemini gücləndirmək lazımdır. Məktəbəqədər yaş dövründə ixtiyari hafizəni inkişaf etdirmək mühüm vəzifələrdən biridir.

Əqli tərbiyənin əhəmiyyətli vəzifələrindən biri də uşaqlarda təxəyyülün inkişafı qayğısına qalmaqdır. Təxəyyülün düzgün tərbiyəsi uşağın həyatı dərk etməsinə çox kömək edir. Təxəyyülün ilk əlamətləri uşaqlarda əsasən həyatının üçüncü ilindən başlanır. Sonrakı illərdə yaradıcı təxəyyül tədricən inkişaf edir ki, bu da oyun prosesində, rəsm və s. məşğələ növlərində özünü göstərir.

Əqli tərbiyənin əsas vəzifələrindən biri də məktəbəqədər yaş dövründə uşaqlarda əyani-əməli təfəkkürün, duyğu və qavrayışın, diqqətin inkişafına xüsusi qayğı göstərmək və düzgün istiqamətləndirməkdir.

4. Hər bir demokratik ölkənin tərbiyə ocaqlarında müntəzəm olraq ahəngdar inkişaf etmiş adamlar yetişdirilməlidir. Bu məqsədlə tərbiyə müəssisələrində uşaqların mənəvi cəhətdən normal inkişafı üçün hər cür şərait yaratmaq lazımdır.

Uşaq bağçasının proqramında ətraf həyatla tanışlığın əsas bölmələri - təbiətlə, müxtəlif ixtisaslı əmək adamları ilə, bir sıra ictimai hadisələrlə, əşyalarla, onların keyfiyyət və xüsusiyyətləri ilə tanışlıq verilmişdir.

Birinci üç ildə uşaqlara əşyalar, onların keyfiyyəti haqqında məlumat verilir. Uşaqlar müxtəlif əşyaların adlarını bilməli və onları nitqdə düzgün işlətməlidirlər.

Uşaqların ətraf mühitlə tanışlığında tərbiyəçi müstəsna rol oynayır. O, uşaqları öz işi ilə və ətraf mühitlə tanış edir. Tərbiyəçi böyük qrup uşaqlarına öz evlərinin və bağçanın ünvanını öyrədir, evə, yaxud parka və ya meşəyə gedən yolu tanıtdırır. Bununla o, uşaqlarda müşahidəçilik , müstəqillik və özünə inanmaq bacarığı formalaşdırır. Təbiətlə tanışlıq tərbiyəçinin diqqət mərkəzində olur. Kiçik qrup uşaqları havanın vəziyyətini, orta və böyük qrup uşaqları fəsli, hər fəslin

əlamətlərini öyrənir, bu sahədə öz təsəvvürlərini genişləndirirlər. Eləcə də kiçik qrup uşaqları ev heyvanları haqqında müəyyən biliklər əldə edir və onların verdiyi faydanı öyrənirlər. Böyük qrup uşaqalrı isə ev heyvanlarını qruplaşdırır, Azərbaycanın zəngin sərvətləri haqqında müəyyən məlumata yiyələnirlər.

Təbiətlə tanışlıq uşaqların dünyagörüşünə də müsbət təsir göstərir. Qışda Xəzəri müşahidə edən uşaqlar ağ qağayılara tamaşa etməkdən doymurlar. Çayın, gölün sahilində buzu müşahidə edən uşaqlar yayda bu xüsusiyyətlərə rast gəlmir və bunun səbəbini öyrənməyə çalışırlar. Heyvanxanada ayını, fili, canavarı, şiri, pələngi görən uşaqlar onların haradan gətirilməsi haqqında düşünürlər. Tərbiyəçi təbiətin belə sirlərini uşaqların anlaq səviyyəsinə uyğun olaraq onlara izah etməlidir.

Təbiətlə tanışlıqda yaranan müsbət hisslər torpağa məhəbbət və vətənpərvərlik tərbiyəsində müstəsna rol oynayır. Vətənə kiçik yaşlarından fayda vermək hissi, öz yaşına uyğun işləri görmək uşaqlarda işgüzarlığın yaranmasını gücləndirir.

Uşaq bağçasında vətənpərvərlik tərbiyəsi əmək işləri ilə sıx vəhdətdə aşılanır. Məktəbəqədər yaşlı uşaqlar ailədə valideynlərinin, bağçada aşpazın, xadimənin, tərbiəyçi köməkçisinin əməyini müşahidə edir və onda əmək adamlarına hörmət hissi yaranır. Əməyin keyfiyyətli, sistemlə həyata keçirilməsi, əmək alətlərinin adını və funksiyasını bilmək, görülən işin məzmununu dərk etmək onların gələcək fəaliyyətində mühüm əhəmiyyət kəsb edir.

Doğma təbiətlə təmas, onun sirlərinə bələd olmaq uşaqların əqli və əxlaqi tərbiyəsində, estetik zövqünün formalaşmasında misilsiz təsir qüvvəsinə malikdir. Ətraf aləm, ictimai mühit uşaq həyəcanlarının, düşüncə və hisslərinin əsas mənbəyi olmaqla yanaşı, həm də uşaqların rəsm və əmək işlərinin başlıca ilham mənbəyinə çevrilir.

5. Uşaqların əqli tərbiyəsində valideynlərin rolu böyükdür. Ev şəraitində, valideynlərlə gəzinti zamanı uşaqlar cisim və hadisələr haqqında çox şey öyrənirlər, onların dünyagörüşü zənginləşir, nitqi inkişaf edir, öyrənmə marağı artır. Tərbiyəçinin vəzifəsi valideynləri uşaqalrın əqli tərbiyəsinə köməklik göstərməyə hazırlamaqdır. O, valideynləri tərbiyənin məzmunu ilə tanış edir, uşaq bağçasında təlimin qoyuluşu, məişət işlərində uşağın dünyagörüşünü zənginləşdirmək imkanları ilə silahlandırır. Bunula uşaqlar bağçada aldıqları bilik və bacarıqlarını ailədə valideynlərinə danışmaqla təkrar edir, seri əzbərdən deyirlər. Hesab və quraşdırma işlərini valideynlərinin müşahidəsi altında təkrar icra edirlər.

Gəzinti zamanı valideyn uşağa rast gəldikləri cisim və hadisələr haqqında danışır, onun suallarına cavab verir, təbiət, hündür binaların tikilməsi, avtobus, metro haqqında söhbətlər bu yaşda uşaqların əqli inkişafına səbəb olur.

Valideynlərin uşaqlar üçün kitab oxuması da çox faydalıdır. Valideynlər uşaq üçün kitab oxusu və nağıl danışmaq texnikasına yiyələnməlidirlər. Belə metodiki

işlər barəsində tərbiyəçilər valideyn yığıncağında danışmalı və fərdi söhbətlər aparmalıdırlar.

Bağçanın və ailənin müntəzəm və səmərəli əlaqəsi uşaqların əqli tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Buna görə də bağça ailəni pedaqoji cəhətdən müntəzəm məlumatlandırmalıdır.

Şəxsiyyətin mühüm mənəvi keyfiyyətlərindən biri olan **fiziki tərbiyə** uşaqların səhhətinin mühafizəsi və möhkəmləndirilməsinə, onların mükəmməl fiziki inkişafına yönəldilmiş, düzgün inkişafetdirmə prosesidir. Uşaqalrın ahəngdar fiziki inkişafı rəngarəng fiziki təmrinlərin həyata keçirilməsindən çox asılıdır.

Fiziki tərbiyə pedaqoji anlayış olub məqsədi orqanizmin anatomik-fizioloji xüsusiyyətlərinə istinad edərək pedaqoji qanunlar əsasında uşağın inkişafını tənzim etməkdir. Fiziki tərbiyə prosesində uşaqda müvafiq bilik, bacarıq və vərdişlər sistemi yaranır. Fiziki tərbiyənin əsas anlayışları aşağıdakılardır: fiziki təhsil, fiziki inkişaf, fiziki hazırlıq, fiziki mədəniyyət.

Fiziki təhsil fiziki tərbiyənin mühüm anlayışlarından biri olmaqla uşaqda fiziki inkişaf sahəsində müvafiq bilik, bacarıq və vərdişlər yaratmaq məqsədi güdür. Hər hansı bir hərəkətin mahiyyəti və icra tərzi uşaq üçün tam aydın olmalıdır. Uşağa verilən hərəki tapşırıqların icrası təkcə tərbiyəçinin deyil, həm də uşağın arzusu və istəyi əsasında yerinə yetirilməlidir.

Fiziki inkişaf uşaq orqanizmində gedən təbii proses və bizdən asılı olmayaraq həyat tərzinin təsiri ilə uşaq orqanizmində baş verən funksional fizioloji dəyişikliklərdir. Fiziki tərbiyənin elmi metodoloji cəhətdən düzgün təşkili uşaqların fiziki inkişafını maksimal səviyyəyə çatdırır.

Fiziki tərbiyənin əsas vəzifələrindən biri də yetişməkdə olan gənc nəsli fiziki cəhətdən həyata tam hazırlamaqdan ibarətdir. Bu, əməyə və Vətənin müdafiəsinə hazır olmaqla dözümlülük, gümrahlıq, qorxmazlıq, cəsurluq, mərdlik, mübarizlik kimi yüksək əxlaqi keyfiyyətlərin formalaşması ilə müəyyənləşdirilir.

Fiziki mədəniyyət anlayışı fiziki hazırlağa malik olan gənc nəslin sadəcə cismani güclülüyü deyil, həm də mənəvi güclülüyü kimi başa düşülür. Yəni fiziki tərbiyə prosesində uşaqların əzələlərinin inkişafı ilə yanaşı, onlarda yüksək əxlaqi keyfiyyətlər: mədəni davranış qaydaları, qayğıkeşlik, insanpərvərlik kimi əxlaqi keyfiyyətlər də formalaşdırmalıdır.

2. Fiziki tərbiyənin başlıca məqsədi uşaqları sağlam, fiziki cəhətdən normal inkişaf etmiş, çevik, dəyanətli, qüvvətli, bədəncə gümrah böyütməkdən ibarətdir. Fiziki tərbiyə uşaqlarda belə keyfiyyətlərin yaranmasına xidmət etdiyindən bütün xalqlar ona həmişə ciddi fikir verirlər. Bu məqsədlə uşaq hələ ana bətnində olarkən onun normal fiziki inkişafına xüsusi qayğı ilə yanaşırlar. Yeni doğulmuş uşağı isə vaxtlı-vaxtında yuyundurmaq, düzgün bələmək, xüsusi rejim üzrə ana südü ilə qidalandırmaq, tez-tez o üz - bu üzü üstə uzandırmaq, bələyi vaxtlı-vaxtında

dəyişdirmək, 5-6 ayında uşağı oturmağa alışdırmaq, 8-9 ayında ona yeriməyi öyrətmək və s. fiziki inkişafla bağlı olan ilk tədbirlərdir.

Fiziki tərbiyə yetişməkdə olan gənc nəslin fiziki kamilliyini təkmilləşdirmək, dövlət və quruculuq işlərində fəal iştirak etmək, Vətən torpağını mərdliklə qorumaq kimi mühüm vəzifələri əhatə edir. Bundan irəli gələn bir neçə mühüm vəzifələrin yerinə yetirilməsi zərurət kimi qarşıda durur:

1. Uşaq orqanizminin forma və funksiyasını inkişaf etdirməklə onun fiziki qabiliyyətlərini hərtərfli təkmilləşdirmək, yaradıcı əməkdə iştirakına kömək etmək və xoşbəxt gələcək naminə onun uzunömürlülüyünü təmin etmək;
2. Fiziki tərbiyənin mühüm sahələri üzrə müvafiq bilik, bacarıq və qabiliyyətləri formalaşdırmaq;
3. Hər bir uşaqda yüksək fiziki mədəniyyət və möhkəm iradi keyfiyyətlər tərbiyə etmək;
4. Hər bir uşaqda mütləq estetik fiziki baxış və gigiyenik vərdişlər formalaşdırmaq;

Nəzərdə tutulan bu vəzifələr müxtəlif yaş dövrləri ilə əlaqədar olaraq konkret şəkildə xüsusi rejimlə tətbiq edilməlidir.

3. Fiziki tərbiyənin məzmununa hərəki mədəniyyət qaydaları, sanitar-gigiyenik mədəniyyət qaydaları, bunların həyata keçirilməsi imkanları və yolları daxildir. Hərəki mədəniyyət xüsusi rejim vasitəsilə müxtəlif hərəkətlərin icra tərzinin formalaşdırılmasıdır. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsini səmərəli həyata keçirmək üçün onlarda vaxtında bir neçə mədəni gigiyenik vərdişləri möhkəmləndirmək lazımdır:

a) qidalanma mədəniyyətinə alışdırmaq; b) sanitariya-gigiyena mədəniyyətinə alışdırmaq; c) məişət qaydalarına riayət etmək mədəniyyətinə alışdırmaq.

Uşaqlarda hərəki vərdiş və bacarıqları yaradn fiziki təmrinlər də müəyyən edilməlidir: a) əsas ümumi hərəkətlər (yeriş,qaçmaq, tullanmaq və s.); b) idman təmrinləri (gimnastik hərəkətlər, üzmə, dırmanma və s.) c) göstərişli hərəki oyunlar (süjetli, süjetsiz elementli oyunlar, gəzintilər və s.).

Uşaqların fiziki tərbiyəsi rəngarəng vasitələrlə həyata keçirilməlidir:

- gigiyenik faktorlar (düzgün rejim, faydalı qida, gigiyenik şərait, mədəni gigiyena vərdişlərinin formalaşdırılması)
- təbii faktorlar (sudan, havadan və günəş şüasından istifadə

Rejim fiziki tərbiyənin başlıca vasitələrindən biridir. Rejim uşaq bağçasında və ailədə uşaqların həyatı üçün qəbul edilən müxtəlif fəaliyyət növlərinin gün ərzində həyata keçirilməsidir. Rejimin köməyi ilə uşaqlar vaxtında yatır, yeyir, oynayır, məşğul olur, gəzintiyə çıxır və təmiz havada olurlar. Rejimin təşkilində aşağıdakılar nəzərə alınmalıdır: 1. Rejim uşaq orqanizminin fərdi fizioloji xüsusiyyətlərinə və uşaqların yaş xüsusiyyətlərinə müvafiq olmalıdır. 2. Rejim müəyyən dövr üçün sabit olmalıdır. 3. Rejimin müntəzəm icrası vacibdir. 4. Rejim

pedaqoji qanunlar əsasında həyata keçirilməlidir. Tərbiyəçi yaşından asılı olaraq uşaqların gəzintisinə, soyunmasına, geyinməsinə, yuyunmasına, yemək yeməsinə, yuxusuna ayrılan vaxtı bilməlidir.

Uşaqların normal inkişafını təmin edən əsas şərtlərdən biri də qidalanma prosesidir. Məktəbəqədər yaşlı uşaqalr mütəhərrik olduğu üçün daha çox enerji itirirlər. Buna görə də qəbul edilən qida maddələri kalorilik etbarilə uşaqların oyuna sərf etdikləri enerjini təmin etməlidir.

Məktəbəqədər yaşlı uşaqlarda mədəni-gigiyenik adət və vərdişlərin tərbiyə edilməsi fiziki inkişaf üçün çox əhəmiyyətlidir. Belə adət və vərdişlər sinir sisteminin normal inkişafını təmin edir. Səliqəlilik, sakitlik, tarazlığı saxlamaq qabiliyyəti artıq enerji itkisinin qarşısını alır. Bu da uşaqların fiziki cəhətdən sağlam böyüməsinə kömək edir. Mədəni gigiyenik vərdişlərin formalaşmasında gündəlik səhər gimnastikasının keçirilməsi də müstəsna əhəmiyyət kəsb edir. Səhər gimnastikası sürətli yerişlə, hava soyuq olduqda isə qaçışla başlanmalıdır. Sonra əzələləri möhkəmləndirmək məqsədilə bir sıra gimnastik hərəkətləri icra etməlidirlər. Səhər gimnastikası hərəkətlərin sürətini zəiflətməklə başa çatdırılır.

Hava vannası uşaq orqanizmini möhkəmlətməkdə böyük əhəmiyyət kəsb edir. Hava vannaları daha çox yay aylarında qəbul edilir. Belə vannaların qəbuledilmə müddəti 10 dəqiqədən başlayaraq, 25 dəqiqəyə çatdırılır.Su vannaları bədəni yaş dəsmalla silmək, bədənə su çiləmək və ya çimməklə həyata keçirilir.Yaş dəsmalla bədənin silinməsi bütün yaş dövrlərində səmərəlidir.

4. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi didaktikanın prinsipləri (şüurluluq və fəallıq, əyanilik, müvafiqlik, yaşauyğunluq, fərdi xüsusiyyətlərin nəzərə alınması, müntəzəmlik, tədricilik) əsasında həyata keçirilir.

Şüurluluq və fəallıq prinsipi fiziki fəaliyyətin məqsədəmüvafiq və faydalı icra olunmasını nəzərdə tutur. Yəni fiziki tərbiyə üzrə uşaqlara verilən hər bir tapşırığın məzmunu, mahiyyəti, zəruriliyi, əhəmiyyəti və icra tərzi tam aydın olmalıdır. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində şüurluluq və fəallıq prinsipinə əməl etdikdə fiziki təmrinlərin icrası zamanı onlarda çətinliyi aradan qaldırmaq anlayışı güclənir. Məsələn, uşaq fikirləşir ki, ipdən asılmış şarın altından necə keçmək olar ki, ona toxunmasın, oyun zamanı maneələrdən necə keçmək olar və s.

Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür zəif olduğundan fiziki tərbiyəni əyani yolla həyata həyata keçirmək xüsusi əhəmiyyət kəsb edir. Fiziki tərbiyəni əyanilik üzərində qurmaq məqsədilə tərbiyəçi fiziki təmrinləri ilk növbədə özü yerinə yetirməli, sonra plakatlar üzərində izah etməli, daha sonra onların icra tərzini yaxşı bacaran uşaqlara nümayiş etdirməlidir.Bu zaman uşaqlar fiziki təmrinlərin icrasını asan mənimsəyirlər.

Müvafiqlik imkan və çətinliklə üzvi surətdə əlaqədardır. Tərbiyəçi uşağın imkanını nəzərə alaraq, onu müvafiq çətin fiziki təmrinlərə cəlb etməlidir. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsini həyata keçirərkən onların yaşı,

fiziki və anlaq səviyyəsi nəzərə alınmalıdır. Əgər verilən tapşırıqların icrasında uşaq həddən artıq çətinlik çəkirsə, deməli, həmin tapşırıq onun gücünə və anlaq səviyyəsinə uyğun deyil.Belə tapşırıqlar uşağın fiziki inkişafına mane olur, onlarda inamsızlıq, qorxaqlıq kimi hisslər oyadır. Ona görə müvafiqlik prinsipinə ciddi əməl edilməlidir.

Məktəbəqədər yaşlı uşaqlar fərdi xüsusiyyətlərinə, boyuna, sağlamlığına, xarici görünüşünə, temperament və xarakter əlamətlərinə görə müxtəlif olurlar. Fiziki tərbiyə prosesində tərbiyəçi birinci növbədə uşaqları yaxşı tanımalı, yeri gəldikcə fiziki təmrinləri elə fərdiləşdirməlidir ki, uşaqlar bunu hiss etməsinlər.Nisbətən zəif uşaqlara verilən fərdi tapşırıqlar inkişafetdirici əhəmiyyətə malik olmalıdır. Yəni, bu proses elə aparılmalıdır ki, uşaqlar az müddət ərzində öz yoldaşlarına çata bilsinlər.

Fiziki tərbiyənin müvəffəqiyyəti məşğələlərin müntəzəmliyindən çox asılıdır. Məşğələlərin ardıcıl aparılması uşaqlarda müvafiq bacarıq və vərdişlərin formalaşmasına səbəb olur. Fiziki təkmilləşmənin optimal yolu fiziki tərbiyənin müntəzəm aparılmasındadır. Fiziki tərbiyə zamanı istirahətin verilməsi də vacibdir.

Fiziki tərbiyə uzunmüddətli prosesdir. Fiziki tərbiyə zamanı tələblərin tədricən çətinləşdirilməsi, sadə təmrinlərdən başlayaraq tədricən mürəkkəbləşdirilməsi və idman yükünün artırılması vacibdir. Yalnız tədriciliyi gözləməklə uşaqlarda mühüm fiziki və iradi keyfiyyətləri formalaşdırmaq olar.

5. Məktəbəqədər yaşlı uşaqların zəruri fiziki bacarıq və vərdişlərə yiyələnmələri müvafiq metodların tətbiqindən çox asılıdır. Didaktik metodlar kimi tərbiyə metodları da üç qrupa bölünür: a) əyani metodlar; b) şifahi metodlar; c) praktik metodlar.

Əyani metod fiziki təmrinlərin şüurlu qazanılmasında böyük əhəmiyyətə malikdir. Əyani metodlara fiziki təmrinlərin nümayişi, əyani vəsaitlər, imitasiya, kömək, görmə oriyentasiyası daxildir.

Fiziki təmrinlərin nümayişi zamanı uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalı, hərəkətlər aramla və dəqiq icra texnikası ilə göstərilməlidir ki, uşaqlar hərəkətin bütün elementlərini görə bilsinlər. Təmrin bir neçə dəfə təkrar göstərilməlidir.

Plakatlar, şəkillər, oyuncaqlar, idman vəsaitləri uşaqların fiziki tərbiyəsində əyani vəsait kimi tətbiq olunur.

İmitasiya oxşatma, bənzətmə, təqlidetmə deməkdir. Məktəbəqədər yaşlı uşaqlar həyatda, cizgi filmində gördükləri fiziki təmrinləri təqlid etmək meylində olurlar. Məsələn, uşaqlar dovşan kimi hoppanır, ayı kimi pəncələri üstündə gəzir, meymun kimi nərdivana dırmaşır və s. Bu hərəkətlər onların əzələlərinin möhkəmlənməsinə və ümumi inkişafına kömək edir.

Kömək hərəkətin daha bir əyani icra tərzi olub, çətinliyi aradan qaldırmaqda əsas şərtdir. Uşaq hərəkətlərin icrasında çətinlik çəkərsə, tərbiyəçi tərəfindən ona mütləq kömək göstərilməlidir.

Görmə oriyentasiyası məktəbəqədər yaş dövrünün bütün pillələrində tətbiq olunur, lakin uşaq həyatının birinci və ikinci ilində görmə oriyentasiyası daha geniş tətbiq olunur. 6-7 aylıq uşaq rəngli əşyanı görür və ona tərəf hərəkət etməyə səy göstərir. Əşyaya tərəf imək̇ləmək, sürünmək, dartınmaq, yerimək orqanizmin fiziki cəhətdən normal inkişafına kömək göstərir.

Şifahi metodlar uşaqlarda eşitmə analizatorunu, qavrayışı, düşünməni, hissetməni və hərəkətin icrası üzrə təsəvvüretməni formalaşdırır. Şifahi metodlara təmrinləri adlandırmanı, təsviretməni, izahatı, göstərişi, sərəncamı daxil edirlər.

Təmrinlərin adlandırılması (“Pezinin dartılması”, “Paravoz”, “Siçan-pişik”, “Qazlar” və s.) hərəkətlərin icrasını tez başa düşməkdə uşaqlara kömək edir.

Təsvir metodu bir növ təmrinlərin adlandırılması metodunun davamı olub hərəkətlərin bütün gedişi uşaqlara təsvir vasitəsilə çatdırılır.

Hər bir hərəkətin elementlərini başa salmaq və onu düzgün icra etmək üçün izah metodundan istifadə olunur. İzah qısa, dəqiq və emosional olmalıdır.

Bir qayda olaraq aydınlaşdırma metodu yeni hərəkətlərin icrası zamanı nöqsanlara yol verilərkən tətbiq edilir.

Fiziki təmrinləri öyrətmək və hərəki vərdişləri möhkəmləndirmək üçün göstəriş metodundan istifadə olunur.

Sərəncam bu və ya digər idman hərəkətlərinin icrasına başlamaq komandasıdır.

Praktik metodlar uşaqlarda toxumaları inkişaf etdirmək, onlarda fiziki təmrinləri formalaşdırmaq və fiziki vərdişlər yaratmaq məqsədilə tətbiq edilir.Buraya təmrinlərin təkrarı, oyunlar, məşqlər daxildir.

Təmrinlərin təkrarı metodu məktəbəqədər yaş dövrünün bütün mərhələlərində geniş tətbiq olunur. Düzgün yerimək, oturmaq, qaçmaq, tullanmaq, turnikdə dartınmaq, pilləkənə dırmaşmaq, tir üzərində yerimək və s. vərdişlərini yalnız təkrarların nəticəsində yaratmaq olar.

Oyun metodu məktəbəqədər yaş dövründə daha çox tətbiq edilir. Tərbiyəçi oyuna başlamazdan əvvəl uşaqlara müvafiq məlumat verir və oyunun məqsədini, icra müddətini izah edir. Oyun metodu uşaqları fiziki, əqli və əxlaqi cəhətdən inkişaf etdirir. Bu metod uşaqlarda oyunda qalib gəlmək üçün düşünmək, qaydalara əməl etmək, çətinliklərə dözmək və s. kimi əxlaqi keyfiyyətlərin yaradır.

Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində yarış metodundan istifadə etmək çox faydalıdır. Yarış zamanı uşaqlar bütün imkanlarını və qüvvələrini tam

sərbəstliklə işə salırlar. Fiziki təmrinlərin yarış metodu ilə həyata keçirilməsi uşaqlarda hərəkətləri dəqiq icra etmək qabiliyyətini inkişaf etdirməklə yanaşı, onları daha mürəkkəb hərəkətlərin icrasına hazırlayır. Bu da fiziki inkişafda başlıca şərtdir. Yarış metodu uşaqlar fiziki təmrinlərin icrasına tam hazır olduqdan sonra tətbiq edilir. Yarış fərdi və kollektiv formada aparıla bilər. Məktəbəqədər yaşlı uşaqlarda yüksək **əxlaqi keyfiyyətlərin** aşılanması çətin və mürəkkəb prosesdir. Vətənə məhəbbət, milli həmrəylik, milli birlik, mərdlik, insana qayğı, əməksevərlik və s. kimi əxlaqi keyfiyyətlərin bünövrəsi təlim tərbiyə prosesində qoyulur. Məktəbəqədər yaşlı uşaqlarda bu keyfiyyətləri yaratmaq, onu tədricən inkişaf etdirmək tərbiyəçidən, eləcə də valideyndən bacarıq, pedaqoji mədəniyyət, səbr və gərgin əmək tələb edir. Bunun üçün tərbiyəçi əxlaq tərbiyəsinin elmi əsaslarına mükəmməl yiyələnməli, öz fəaliyyətində onlardan bacarıqla istifadə etməlidir.

Əxlaq insanların mənəvi münasibətlər sahəsini əhatə edən ictimai şüurun formalarından biridir. İctimai quruluş, iqtisadi şərait dəyişdikcə əxlaq normaları da dəyişir, inkişaf edir və daha yüksək əhəmiyyət kəsb edir. Ona görə də bu əxlaqi normaları məktəbəqədər dövrdən uşaqlara aşılamaq üçün tərbiyəçi əxlaq tərbiyəsinin prinsip və metodlarını dərindən bilməlidir. Uşaqların əxlaq tərbiyəsi onlarda davranış normalarının tələblərinə uyğun gələn yüksək mənəvi keyfiyyətlərin, adət və vərdişlərin şüurlu surətdə formalaşmasına yönəldilmiştərbiyəvi təsir prosesidir. Əxlaq tərbiyəsi uşaqlarda əxlaqi hisslərin, adətlərin, əxlaqi şüurun inkişaf etdirilməsinə xidmət edir, çünki məktəbəqədər yaşda uşaqların hərəkət və davranışında hələ hisslər üstünlük təşkil edir. Uşaqda ilk əxlaqi hisslər onu əhatə edən adamlara münasibətdə özünü göstərir. Ancaq 2-4 yaşlı uşaqların insanlara münasibəti hələçox möhkəm olmur. Məsələn, öz oyuncağı ilə oynadığı zaman başqasının ona xoş gəldikdə onun əlindən alır, ağlamasına və etirazına baxmır. Lakin 4-5 yaşlı uşaqlarda əxlaqi hisslər get-gedə sabitləşir. Bu yaşlı uşaqlar balacalara oyun zamanı kömək edir, sınmış oyuncağı düzəltməyə çalışırlar. 5-6 yaşlı uşaqlar isə artıq öz hisslərini idarə etməyə çalışırlar. Məsələn, 6 yaşlı uşaq ağlamağını böyüklərin məsləhəti ilə dayandırır, ətrafdakılara mane olan hərəkətlərini – qaçmağı, qışqırmağı dayandırır. Kiçik yaşlı uşaqlarda əxlaqi adətlər qeyri-ixtiyari yarnır. Buna görə də əxlaqi adətləri uşaqlarda səmərəli inkişaf etdirmək üçün onları daha yaxşı hisslərə və meyllərə alışdırmaq lazımdir. Kiçik yaşda yaranan vərdiş və adətlər böyük məktəbəqədər yaşlı uşaqların fəaliyyətində daha dərin və möhkəm olur. Məktəbə hazırlıq qrupunda uşaqlara davranışın bəzi şüurlu elementləri də tədricən aydın olmağa başlayır. Onlar davranış tələblərini dərk etməyə, öz hərəkətlərini və rəftarını aydınlaşdırmağa daha çox qabil olurlar. 6 yaşlı uşaqlarla aparılan tərbiyə işləri onların hərtərəfli inkişafına, məktəbə hazırlığının tam formalaşmasına yönəldilməlidir. Onun ən mühüm mərhələsi ictimai həyatın hadisələri haqqında uşaqlarda təsəvvür və biliklərin ardıcıllıqla genişləndirilməsi, təlimə marağın formalaşdırılması və məktəbdə oxumağa həvəsin yaradıması olmalıdır.

Uşaq bağçasına məxsus əxlaq tərbiyəsi proqramı yaşdan asılı olaraq tədricən dərinləşir və genişlənir. Əgər kiçik qrupda sadə davranış normaları tələb olunursa,

böyük yaşlı qruplarda bu normalar daha da genişlənir. 5 yaşdan başlayaraq uşaqlarda yaxşı adamların əxlaqi keyfiyyətləri haqqında ilkin ümumi anlayışlar, özünün və başqalarının hərəkətlərini qiymətləndirmək təsəvvürləri formalaşdırılır. Bununla da cəmiyyət üçün gələcək vətəndaşın mənəvi simasının əsası qoyulur.

Məktəbəqədər yaşlı uşaqların əxlaqi cəhətdən formalaşmasında tərbiyəyə verilən başlıca tələbləri tərbiyəçi dərindən bilməlidir ki, öz məqsədinə nail olsun.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində istifadə olunan prinsipləri aşağıdakı qaydada təsnif etmək olar:

1. İdeyalılıq və məqsədyönlülük prinsipi;

2. Tərbiyənin real həyatla əlaqələndirilməsi prinsipi;

3. Tərbiyənin milli zəmində qurulması prinsipi;

4. Kollektivdə tərbiyə prinsipi;

5. Tərbiyədə fərdi yanaşma prinsipi;

6. Tərbiyədə yaşauyğunluq prinsipi;

7. Tərbiyədə hörmət və tələbkarlıq prinsipi;

8. Tərbiyədə nikbinlik prinsipi;

9. Tərbiyədə vahidlik və müntəzəmlik prinsipi;

10. Tərbiyədə şəxsi nümunə prinsipi;

İdeyalılıq tərbiyəsində uşaqların yaşına və anlaq səviyyəsinə uyğun çatdırılmalıdır ki, Vətən, xalq, milli hisslər nə deməkdir. Uşaqlar bilməlidirlər ki, Azərbaycan xalqı özünəməxsus milli dəyərlərə malik olan sülhsevər, başqalarının varına-dövlətinə göz dikməyən, humanist bir xalqdır. Eyni zamanda uşaqlar xəyanətkar ermənilərin məqsədini, 20 yanvar qırğınının başvermə səbəblərini bəsit formada olsa da, dərk etməlidirlər. Dövlətimizin həyata keçirdiyi daxili və xarici siyasət də məktəbəqədər yaşlı uşaqların yaşına və anlaq səviyyəsinə müvafiq tədbirlər vasitəsilə onlara çatdırılmalıdır.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin real həyatla və əməklə əlaqələndirilməsi uşaqların həyatına sevinc gətirməlidir. Əməyin əxlaq tərbiyəsinə təsiri güclüdür. Uşaqlar hələ məktəbəqədər dövrdən zəhmətə alışmalı və dərk etməlidirlər ki, həyatda zəhmətsiz yaşamaq qeyri-mümkündür, əmək və zəhmət insanlara şərəf gətirir, hörmət qazandırır.

Azərbaycan xalqının milli-mənəvi dəyərləri uzun əsrlər boyu formalaşmış, qorunmuş və daha da zənginləşmişdir. Milli əxlaqi anlayışda ifadəsini tapmış nəcib keyfiyyətlər (səxavətlilik, xeyirxahlıq, əməksevərlik, sadəlik və s.) bütövlükdə

xalqın mənəvi dəyərləridir və gənc nəslin tərbiyə olunmasında , uşaqların rəftar və fəaliyyətində bu dəyərlərə riayət olunması tərbiyənin zəruri tələblərindəndir.

Məktəbəqədər yaşlı uşaqlarda dostluq, birlik, yoldaşlıq, qayğıkeşlik hisslərinin tərbiyə olunmasının əsas yolu uşaqlar arasında, kollektivdə tərbiyə etməkdir.Bağçada təşkil edilən oyunlar, keçirilən gəzintilər, yaşlıların əməyi ilə tanışlıq, bağçanın rejimi uşaqların kollektivçilik tərbiyəsi üçün təsirli amillərdir.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində onların fərdi xüsusiyyətlərinin nəzərə alınması da tələb olunur. Bəzi uşaqlar utancaq, bəziləri tez qaynayıb qarışan olurlar. Burada üsul və vasitələr uşağın fərdi xüsusiyyətinə uyğun seçilir.

Məktəbəqədər yaş dövrü uşaqların sürətli inkişaf dövrüdür. Ona görə də hər yaş dövrünün özünəməxsus xüsusiyyətləri olur. Tərbiyəçi uşaqların diqqətini, hafizəsini, dözümlülüyünü dəqiq nəzərə alaraq, tərbiyə prosesində yaşauyğunluq prinsipinə ciddi əməl etməlidir.

"Uşağa mümkün qədər çox hörmət etmək və ona çoxlu tələblər vermək" tərbiyənin başlıca prinsiplərindən biridir. Uşaq nə qədər kiçik olsa da, tərbiyəçi və valideyn ona hörmət etməyə, onun şəxsiyyəti ilə hesablaşmağa borcludur. Verilən tələblər isə uşağa aydın olduqda, o, həmin tələbləri həvəslə yerinə yetirir. Tərbiyəçi tələbləri yerinə yetirməkdən ötrü şərait yaratmalı, uşaqda müsbət əxlaqi keyfiyyətlərin yaranmasına kömək etməlidir.

Məktəbəqədər yaş dövründə uşaqların istəyi, marağı hələ şüurlu xarakter daşımadığı üçün , onların hərəkətləri qeyri-ixtiyari, hissi fəaliyyət kimi yaranır. Bu səbəbdən də uşaqlar çox vaxt nadincliyə, xoşa gəlməyən hərəkətlərə yol verirlər. Nikbin tərbiyəçi uşağın pis hərəkətindən əsəbiləşmir, əksinə uşağa mehribançılıq göstərərək onun pis hərəkətini yaxşı istiqamətə yönəldir.

Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində bağçada və ailədə vahidlik və müntəzəmlik prinsipinə əməl olunmalıdır. Uşaq bağçası tərəfindən verilmiş tələblərlə ailənin verdiyi tələblər arasında sabit vahidlik olmalıdır.

Məktəbəqədər yaşlı uşaqlar böyüklərin hərəkət və davranışlarını daim izləyərək özlərini onlara oxşatmağa çalışırlar. Ona görə tərbiyəçinin və valideynin şəxsi nümunəsi məktəbəqədər yaşlı uşaqların tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

Vətənə sədaqətlilik hissinin aşılanması yetişən nəslin tərbiyəsində xüsusi yer tutur. Tərbiyəçi məktəbəqədər yaşlı uşaqlarda Vətənə məhəbbət , onu qorumaq və qeyrətini çəkmək tərbiyəsini həyata keçirmək üçün aşağıda qeyd olunan vəzifələri yerinə yetirməlidir:

1. Məktəbəqədər yaşlı uşaqlarda Azərbaycan Respublikasının müstəqilliyini qorumağı, torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda gedən mübarizədə heç bir çətinlikdən qorxmamağı, xalqımıza dərin məhəbbət və sədaqətlə xidmət etməyi tərbiyə etmək;

2. Uşaqlarda Vətən yolunda, onun tərəqqisi naminə hər cür fədakarlığa hazır olmaq əzmi yaratmaq, onlarda Vətənə məhəbbəti sözdə deyil, işdə göstərməyi aşılamaq;

3. Uşaqları müstəqil Azərbaycanda yaşayan xalqlar arasında milli həmrəylik, birlik, dostluq ruhunda tərbiyə etmək, onlara Azərbaycançılıq hissi aşılamaq;

4. Məktəbəqədər yaşlı uşaqlarda düşmənlərə qarşı nifrət hissi tərbiyə etmək.

Uşaqlarda Vətənə sədaqətlilik tərbiyəsinin bir qolunu da Milli Orduya məhəbbət tərbiyəsi təşkil edir. Bunun üçün aşağıdakı tələblər nəzərə alınmalıdır:

1.Məktəbəqədər yaşlı uşaqlarda Milli Orduya məhəbbət tərbiyəsi əqli, əxlaqi,

ideya-siyasi, fiziki və estetik tərbiyə ilə sıx əlaqədə aşılanmalıdır.

2.Başqa əxlaqi dəyərlər kimi Milli Orduya məhəbbət tərbiyəsində də uşaqların yaş və anlaq səviyyələrinə uyğun bədii əsərlər üzrə müxtəlif tədbirlərin keçirilməsinə, bədii parçaların, şerlərin oxunmasına geniş yer verilməlidir.

3. Milli Orduya məhəbbətlə bağlı əxlaqi söhbətlər müntəzəm keçirilməlidir;

4. Uşaqlar tez-tez hərbi hissələrə, tarixi yerlərə ekskursiyalara aparılmalıdır;

5. Vaxtaşırı Milli Orduya məhəbbət tərbiyəsindən bəhs edən sənədli filmlərə və televiziya verilişlərinə baxış təşkil edilməlidir.

Məktəbəqədər yaşlı uşaqların vətənpərvərlik və Milli Orduya məhəbbət tərbiyəsinin göstərilən pedaqoji tələblər əsasında həyata keçirilməsi uşaqlarda kiçik yaşlarından vətənə, torpağa bağlılıq hissini gücləndirir, onlarda qeyrətliliyi və Milli Orduya məhəbbəti möhkəmləndirir.

4. Müasir dövrdə məktəbəqədər yaşlı uşaqlara aşılanması vacib olan əxlaqi sifətlərdən biri də insanpərvərlikdir. Uşağa, ailə üzvlərinə, yaşlılara, əlillərə, qohumlara – ümumən bütün insanlara hörmət etmək, qayğı göstərmək əsl insanpərvərliyin təzahür formalarıdır. Məktəbəqədər yaşlı uşaqlara bu keyfiyyətləri aşılamaqda bədii mətnlərin tərbiyələndirici imkanları çoxdur. Məsələn, M.Dilbazinin "Böyüklərə hörmət et" şerinin uşaqlara oxunmasının faydası çox böyükdür. Çünki orada söhbət məhz ata-anaya, baba və nənəyə, ümumiyyətlə, yaşlılara qayğı və diqqətlə yanaşmaqdan gedir. "Çörək ətirli nənə" hekayəsində Solmaz nənənin əməksevərliyindən, "Hamının nənəsi" şerində nənə nəvazişi və qayğıkeşliyindən, "Anamı incitmərəm" şerində isə ana zəhmətinin müqəddəsliyindən, anaya qayğıkeş münasibətdən bəhs olunur. Tərbiyəçilər belə bədii parçalardan yüksək səriştə ilə istifadə etməklə uşaqlarda yaşlılara, böyüklərə qayğı hissini daha da güclü tərbiyə edə bilərlər.

İnsanın əxlaqi kamilliyinin bir mühüm komponenti də onun ədəb-ərkanlı olmasıdır. İnsanın ədəb-ərkanlılığı onun rəftar və davranışında, geyimində, başqalarına, o cümlədən uşaqlara və yaşlılara münasibətində təzahür edir. Bunu uşaqlıq dövründən həyata keçirmək daha yaxşı fayda verir.Xüsusilə, məktəbəqədər

yaş dövründə uşaqlarda ədəb-ərkan qaydalarını müntəzəm və məqsədyönlü aparmaq lazımdır ki, özül möhkəm olsun. Davranışında təsadüfən yol verilmiş qüsurlar uşaqların vərdişinə çevrilməsin, hərəkətlərinə yol tapmasın. Ədəb-ərkanlılığı səciyyələndirən əlamətlər, yəni mərifətlilik, nəzakətlilik, mehribanlıq və s. məktəbəqədər dövrdən düzgün tərbiyə olunursa, sonrakı yaş dövrlərində bu sahədə aparılan işlər daha əlverişli olur. Bunun üçün tərbiyəçilər son dərəcə mədəni olmalı, ailə ilə müntəzəm əlaqə saxlayıb bu mühüm problemi vaxtında həll etməlidirlər. Uşaqlarda nitq inkişafını formalaşdırmaq, onları mədəni danışmağa alışdırmaq və **bəli, xeyr, hə, yox** kimi sözlərdən istifadənin məqamlarını öyrətmək çox vacibdir. Tərbiyəçi müntəzəm olaraq bağçada uşaqların nitq mədəniyyətinin və ümumi mədəni səviyyəsinin yüksəldilməsi üçün səy göstərməlidir.

Nəcib əxlaqa malik olan insan öz həmcinslərinə diqqətli, həssas olduğu kimi, torpağa, suya, ağaclara, quşlara, bir sözlə doğma təbiətə də eyni dərəcədə diqqətli və həssas olurlar. Məktəbəqədər yaş dövründən uşaqları təbiətə məftunluq, onun gözəlliyini qoruyub saxlamaq, ətraf mühiti mühafizə etmək ruhunda tərbiyə etmək gərəkdir. Məktəbəqədər yaşlı uşaqların təbiətsevər, hər bir bitkinin, yaşıl yarpağın qədir-qiymətini bilmələri və torpağın qayğısını çəkmək ruhunda tərbiyə edilmələri müasir dövrün ən vacib tələblərindəndir. Təcrübəli tərbiyəçilər uşaqları təbiətə məhəbbət ruhunda tərbiyə etməkdə bədii ədəbiyyatın imkanlarından məharətlə istifadə edirlər. Uşaq bağçasında bu imkanları həyata keçirmək üçün yollar və vasitələr çoxdur. Məsələn, uşaqlarla "Biz təbiəti sevənlərik", "Gülləri və çiçəkləri qoruyaq" və s. kimi mövzular əsasında əxlaqi söhbətlər keçirmək;

- Təbiətə rəhmli münasibət məsələlərinə həsr olunmuş kiçik həcmli bədii əsərlərin oxunuşunu təşkil etmək;

- Təbiətsevərlik ruhunda təşkil olunmuş tədbirlərdə uşaqların iştirakını təmin etmək; Təbiətdən, onun canlı aləmindən daha çox yazan yazıçı və şairlərlə uşaqların görüşünü təşkil etmək.

Qabaqcıl tərbiyəçilər uşaqlarda təbiətə qayğıkeşlik, həssaslıq, rəhmlilik kimi əxlaqi keyfiyyətləri formalaşdırmaq məqsədilə müxtəlif bədii əsərləri uşaqlara oxuyarkən , onlara təbiətdə bitki və heyvan növləri haqqında maraqlı məlumatlar verirlər. "Uşaq və buz", "Cücələrim", "Xoruz", "Yaz günləri", "Qaranquş", "Uşaq və dovşan" və s. kimi şerlərdə təbiətsevərlik ruhunda uşaqlara təsir etmək imkanları güclüdür. Təbiətsevərlik tərbiyəsi tərbiyəçidən daim düşünülmüş iş, uşaqlara fəal yanaşma qabiliyyəti, onların bilik, bacarıq və yaş xüsusiyyətlərini, fəallığını, habelə təbiətə rəftarını nəzərə almağı tələb edir.

Mövzu: 6 Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin əsas istiqamətləri (3-6 yaş).

PLAN:

1. Əmək tərbiyəsinin əhəmiyyəti, məqsədi- uşaqların əməyinin planlaşdırlması. nəticəsi və qiymətləndirilməsi

2.Uşaqların tərbiyəsində əməklə oyunların qarşılıqlı əlaqəsi. yaşlıların əməyi ilə tanış edilməsi.

3. Estetik tərbiyənin mahiyyəti, prinsipləri, qarşıya qoyulan tələblər.

4. Uşaqların estetik inkişafının imkanları. məzmunu və metodları.

5. Uşaq bağçasında estetik tərbiyənin vasitələri və təşkili

6. Ekoloji tərbiyənin mahiyyəti, vəzifələri, prinsipləri. Təlim prosesində ekoloji tərbiyənin imkanları.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.

2. H.X.Abdullayev, N.M.Məsimov. Uşaqların ekoloji tərbiyəsi, Bakı, 1993.

3. R.N.Mürsəqulov,Ş.T.Əliyeva. Bağça yaşlı uşaqların təbiətlə tanış edilməsinin metodikası, Bakı, 1993

4. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

5. İ.M.Məsimov. Ekoloji tərbiyənin aktual məsələləri. ”Bilik cəmiyyəti”, 1991.

6. M.Məmmədov. Estetika haqqında söhbətlər. Bakı, 1968.

7. V.Xəlilov. Ümumtəhsil məktəblərində estetik tərbiyənin inkişaf yolları. Bakı, 1991.

1. Əmək insan həyatının əsasını təşkil edir. Ləyaqət və xoşbəxtliyin bünövrəsi əməklə qurulur. Uşaqlar hələ məktəbəqədər yaşdan öz güclərinə müvafiq əmək işlərinə cəlb olunurlar. Getdikcə onların əmək fəaliyyətinin hüdud dairəsi genişləndirilərək mürəkkəbləşdirilir. Əmək uşaqlarda zəhmətsevərliklə yanaşı, dözümlülük, cəsarətlilik, qayğıkeşlik, vətənpərvərlik kimi əxlaqi keyfiyyətlər formalşdırır.

Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi düzgün qurulmalıdır. Bu onlarda fiziki işgörmə qabiliyyətinin tədricən formalaşmasına səbəb olur. Beləliklə, onlar

fiziki iş prosesində əşyaların xassələri, qulluq etdikləri bitki, heyvan və quşlar haqqında geniş bilgilər alırlar. Əməksevərliyin inkişafına məktəbəqədər yaş dövründən başlamaq lazımdır. Əgər bu yaşdan uşaqlarla əməksevərliyin inkişafı istiqamətində iş aparılmazsa, onlarda tənbəllik və ya əməyə laqeyd münasibət yarana bilər.

Məktəbəqədər yaşlı uşaqların əməyi özünəməxsus xüsusiyyətlərə malikdir. Onların əməyi çox vaxt oyunla əlaqədar olur. Bu, özünü müxtəlif formada göstərir. Bəzən oyun yaşlıların əməyini əks etdirir, bəzən də əmək elementləri oyunda əks olunur. Məsələn, "Vaqon nəzarətçisi" oyununda uşaqlar nəzarətçi rolunda sərnişinlərə mədəni xidmət edir. "Aşpaz" oyununda aşpaz "dadlı xörək" bişirməyə çalışır. Kiçik qrup uşaqları sanki, konkret əmək qüvvəsi sərf etmir, sadəcə oyun keçirirlər. Böyük qrup uşaqları isə oyun prosesində fiziki iş görmək zərurətini hiss edirlər. Əmək prosesində bəzən uşaqlar qarşıya məqsəd qoyur, əvvəldən işi planlaşdırır, öz fəaliyyətini ona müvafiq qurur və müəyyən nəticə əldə edənə kimi işləyirlər. Böyük qrup uşaqları bəzən öz əməklərinin ictimai mahiyyətini də dərk edirlər. Onlar həvəslə məişət və təsərrüfat işlərinə qoşulurlar. Tərbiyəçinin təklifi ilə Böyük qrup uşağı kiçik dostu üçün oyuncaq hazırlayır. Uşaqlar hazırladıqları oyuncaqları öz kiçik dostlarına hədiyyə verirlər. Başlıcası isə budur ki, uşaqlar öz əmək‌ləri ilə başqalarına xeyir verməkdən həzz alırlar.

Uşaqlar gündəlik əmək fəaliyyətlərində həyati əhəmiyyət kəsb edən bir çox bacarıq və vərdişlərə yiyələnirlər, müstəqil işləmək bacarığına sahib olurlar. Əmək prosesində uşaqlar onları əhatə edən əşyaları öyrənir, bitkilərin böyüməsini, inkişafını müşahidə edirlər. Onlar heyvanlara qulluq edir, onların həyat tərzi ilə tanış olurlar.

2. Məktəbəqədər pedaqogika uşaq əməyi qarşısında müəyyən məqsədlər qoyur: yaşlıların əməyi ilə uşaqları tanış etmək, uşaqlarda onların əməyinə hörmət aşılamaq, əməyə maraq formalaşdırmaq, əməyin ictimai mahiyyət daşıdığını öyrətmək.

Yaş yarımlıq - iki yaşlı uşağın paltarını, ayaqqabısını geyinib soyunması, başını daraması primitiv olsa da, onun əhəmiyyəti olduqca böyükdür. Bu hərəkətləri yerinə yetirməklə uşaq qarşısına qoyulmuş əmək məqsədinə nail olur. Üç - dörd yaşında isə o, daha mürəkkəb məişət işlərinə qoşulur. Nə isə etmək cəhdi uşaq xarakterində fəallıq, müstəqillik, fiziki qüvvə və ağıl gərginliyinin inkişafına müsbət təsir göstərir.

Uşaqların qarşısına qoyulan əməyin məqsədi onların yaşı ilə əlaqədar olamlıdır. 2-3 yaşlı uşağın fəaliyyəti üçün qarşısına məqsəd qoyulduqda, onların yaş xüsusiyyəti mütləq nəzərə alınmalıdır. Çünki onlar bir işi görə bilmədikdə, bəzən onu yerinə yetirməkdən imtina edirlər. Tərbiyəçi çalışmalıdır ki, yalnız çətinlik çəkdikə uşağa köməklik göstərib istiqamət versin. Fəaliyyət zamanı işləyə bilməyən uşaqları da işə qoşmaq, onlarda faydalı bacarıq və vərdişlər yaratmaq yüksək tərbiyəvi əhəmiyyət kəsb edir. Eyni işi bir neçə gün gördükdə qrup və yarımqrupda olan uşaqların iş növünü dəyişmək də çox əhəmiyyətlidir. Məsələn,

əgər bu gün oyun otağını səliqəyə salırsa, çalışmaq lazımdır ki, sabah onlar dibçəkdəki güllərin sulanmasında iştirak etsin. Yaxud Novruz bayramı üçün qrup otağını səliqəyə salarkən tərbiyəçi uşaqlara deyir ki, bayramqabağı qrup otağının bəzəkləri gözəl olmalıdır. Uşaqlar tərbiyəçinin tapşırığını həvəslə yerinə yetirir, hər işi səliqəli və vaxtında görməyə çalışırlar. Kiçik qrupdan başlayaraq, uşaqlar məqsədə nail olmaqdan dərin həzz alır və gördükləri işin nəticəsini sevinclə tərbiyəçiyə göstərirlər. Məktəbəqədər orta və böyük qrupun uşaqları qarşıya müstəqil məqsəd qoymağı (məsələn, tikinti materialarını yığışdırmağı, gəlinciyin paltarını yumağı və s.) tərbiyəçidən öyrənirlər. Bu yaş dövründə də uşaqlar həmişə hər iş üçün qarşıya məqsəd qoymaq vərdişinə malik olmurlar. Onlar ən çox adət və vərdiş qazandıqları əmək sayəsində qarşıya məqsəd qoya bilirlər. Məs., "Gəzintiyə nə vaxt gedəcəksiniz?" – sualına uşaqlar belə cavab verirlər: "Oyuncaqları yığışdırıb, otağı səliqəyə salıb gəzintiyə gedəcəyik". Uşaqlar dediklərinə əməl edib bu işləri gördükdən sonra gəzintiyə hazırlaşırlar.

Məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyətinin təşkili işin planlaşdırılmasından və düzgün başa düşülməsindən çox asılıdır. Uşaq nəyin necə və nə üçün icra olunması arasındakı əlaqəni görməlidir. Tərbiyəçi uşaq əməyini planlaşdırarkən mövcud olan çətinliklərin uşağın həyat təcrübəsinə müvafiq olmasını nəzərə almalı və onların aradan qaldırılması yolarını görməlidir.

Əməyi planlaşdırma görüləcək işin ardıcıl icrası ilə bağlı olur. Nəyi əvvəl, nəyi sonra, nə üçün başqa cür deyil, belə işləmək kimi vəzifələr əsasən işi sistemlə qurmağı tələb edir. Məsələn, əl-üzü yumaq üçün əvvəlcə paltarın qollarını çırmalamaq, sonra əlləri və nəhayət üzü yumaq ardıcıllığını uşaqlar aydın başa düşəndə, işi daha səmərəli icra edirlər. Beləliklə, işin ardıcıllığını tərbiyəçi müəyyən edir, uşaqlar isə fəaliyyət prosesində bu ardıcıllığa riayət edirlər.

Orta və böyük qruplarda otaq bitkilərinə qulluq etmək işin sistemli və planlı aparılmasına nümunə göstərilə bilər. Bitkilər elə yerləşdirilməlidir ki, onları silmək və sulamaq rahat olsun. Bunun üçün güllər əvvəlcə pəncərənin qabağından stolun üstünə keçirilir, onların yarpaqları, altlıqları silinir, pəncərənin qabağı təmizlənir və bütün bunlardan sonra bitkilər öz yerlərinə qoyulur. İşin belə planlı yerinə yetirilməsi uşaqlarda sərbəstlik, səliqəlilik və məqsəd aydınlığı yaradır.

Böyük qrupun uşaqları çox vaxt verilən işin planını özləri hazırlayırlar. Tətbiyəçinin əsas məqsədi uşağa bacarmadığı işi öyrətməkədn ibarət olmalıdır. Əlbəttə, uşağa öz fəaliyyətini planlaşdırmaq üçün ona nümunə vermək, əvvəlki planlaşdırmadan istifadə etmək, öz fəaliyyəti haqqında onu əvvəlcədən fikirləşməyə alışdırmaq lazımdır. Belə iş prosesində uşağa əvvəldən suallar da verilə bilər: "Nədən başlamaq lazımdır? Əvvəlcə hansı alətlə işləyəcəksən? Sənə nə qədər material lazım olacaq?" və s.

Böyük qrup uşaqları əməyin məqsədini aydın bildikdə sərbəst və müstəqil işə qoşulurlar. Bəzən də uşaqlar iş prosesində əməyin məqsədini müəyyən edir və qarşıya qoyulmuş vəzifəni müəyyənləşdirirlər.Uşaqların əmək fəaliyyəti nə qədər

məqsədyönlü və aydın olarsa, onun yerinə yetirilməsi bir o qədər maraqlı və səliqəli olar.

Əmək prosesində müəyyən nəticə əldə edilməlidir. Nəticə işin səmərəli gedişi ilə əlaqədar olur. İş keyfiyyətlə, sistemlə icra edilibsə, nəticə də yaxşı olur. Əməkdə nəticə fəaliyyətin məcburi komponentidir. Əməyin nəticəsi əvvəlki bacarıq və vərdişlərin qazanılması, keçirilən tədbirlərin pedaqoji cəhətdən düzgün təşkili, uşağın marağı, səyi, iş qabiliyyəti, səriştəsi və s. fərdi fərqlərdən də çox asılıdır. Uşaqlar tərəfindən əldə edilmiş nəticə müqayisə edildikdə və bu yolla hər kəsin işi qiymətləndirildikdə, onlar öz əmək fəaliyyətinin üstün və qüsurlu cəhətlərini görür və gələcək əmək prosesində bunları nəzərə alırlar. İşin sonunda çıxarılan nəticə uşaq aləminə güclü təsir göstərir.

Əməyinnəticəsini düzgün qiymətləndirmək, qazanılan nailiyyətləri bir-biri ilə müqayisə etmək yüksək tərbiyəvi əhəmiyyət kəsb edir. Bunun təsiri ilə uşaqlarda getdikcə bir-birinin əməyini qiymətləndirmək bacarığı əmələ gəlir.

3-4 yaşlı uşaqlar tərbiyəçi tərəfindən əməklərinə verilən qiymətdən sevinir və tədricən öz əməyinin nəticəsini başqasının əməyi ilə müqayisə etmək bacarığına yiyələnirlər. Belə müqayisə uşağı işi yenidən daha yaxşı icra etməyə sövq edir.

5-6 yaşlı uşaqları isə fəaliyyətin praktik cəhəti daha çox maraqlandırır. Uşaqlarda əmək nəticələrinə nail olmaq cəhdinin inkişafında bu fəaliyyətin motivi xüsusi əhəmiyyət kəsb edir. Bu zaman əmək prosesi öz-özlüyündə uşaqlara sevinc gətirir.

Əmək prosesində işin müvəffəqiyyətlə başa çatdırılmasına nail olmaq uşaq üçün vacib şərtdir. Bu, tərbiyəçinin uşağın əmək fəaliyyətindəki müsbət cəhətləri vaxtında görməsi və onları qiymətləndirməsindən çox asılıdır. İşi bəyənmə, tərifləmə uşağı daha yaxşı işləməyə ruhlandırır. İş müstəqil icra edildikdə uşaqda öz əmək qabiliyyətinə inamını artırır. Bütün əmək işləri prosesində tədricilik tələbinə riayət etmək lazımdır. Uşaqlar əmək işlərinə çox vaxt böyüklərin əmək işlərinin təqlidi formasında qoşulurlar. Ananın qab yuması, atanın bostandakı bitkilərə qulluq etməsi, traktor sürməsi və s. uşağın oyununda öz ifadəsini tapır. Lakin əmək və oyun öz xarakteri, məzmunu, fəaliyyət prosesi və motivinə görə bir-birindən fərqlənir.

Əmək prosesi realdır, çünki uşaq real əşyalarla iş görür. Oyunda isə uşaqlar yaşlıların əmək işlərini təqlid edirlər. Əmək alətləri uşaqlar tərəfindən oyuncaqla əvəz edilir. Oyun heç bir zahiri nəticə verməsə də, uşaqlara sevinc gətirir, ləzzət verir. Belə oyunlar, adətən, uşaqların özü tərəfindən təşkil edirlir. Əmək prosesində isə işin nəticəsi ön plana keçir, hamı işin nəticəsi ilə maraqlanır. Uşaqlarda ünsiyyət güclənir, fikir vahidliyi yaranır, böyüklərin təcrübəsindən istifadə olunur və belə təcrübə nümunə xarakteri daşıyır. Bütün bunlar əməkdə son nəticənin müvəffəqiyyətlə əldə olunmasına yaxından kömək edir.

Kiçik məktəbəqədər yaşlı uşaqların əməyi özünəxidmət üzərində qurulur. Bu fəaliyyətin inkişafı prosesində uşaqlar özünəxidmət vərdişlərinə maraqla yiyələnir, müstəqil iş görməyə başlayırlar. Məktəbəqədər orta yaşda uşaqların əməyinin məzmunu onun fəaliyyətinə gətirib çıxarır. Bu yaşda uşaqların oyununda əmək prosesləri episodik xarakter daşıyır. Bu, onların şəxsi təşəbbüsü ilə yaranır və tərbiyəçi tərəfindən tənzimlənir. Lakin uşaqların əməyinin həmişə oyunvari həyata keçirilməsi səmərəli deyil. Tərbiyəçi uşaq əməyinin növü və xarakterindən asılı olaraq görüləcək işin məzmunu, istifadə olunacaq alətlərin mahiyyəti və onların istifadə qaydaları haqqında uşaqlara metodiki istiqamət verməlidir. Məsələn, qayçı ilə kağızdan ərištə kəsib-düzəltmə bacarığı aşılamaq oyunun əmək xarakteri daşıması üçün faydalıdır. Bir neçə dəfə təkrar olunan bu hərəkət öz nəticəsini verir, yəni uşaqlar qayçını tutmaq, açıb-bağlama, kəsmə vərdişlərinə yiyələnirlər. Uşaqlar alətlərlə işləmək vərdişlərinə yiyələndikcə və materialdan praktik surətdə istifadə etməyi öyrəndikcə oyun hərəkətləri müşahidə edilir, oyun və əməyin qarşılıqlı münasibəti yaranır.

Bağçada uşaqlar keçirdikləri oyun zamanı müəyyən nəticə əldə etmədikdə işdən soyuyur və oyunu davam etdirmək istəmirlər. Bu ondan irəli gəlir ki, uşaqlar ətraf aləm, mühit haqqında zəngin biliklərə malik deyillər. Bu məqsədlə uşaqları ətraf mühitlə yaxından tanış etməli, onları yaşlıların iş şəraiti, birgə çalışmaları, fəaliyyət göstərmələri və hər kəsin öz vəzifəsini başa düşüb həvəslə yerinə yetirmələri ilə tanış etmək lazımdır. Bundan sonra onlar öz gözləri ilə gördükləri səhnəni oyun zamanı əyani şəkildə göstərməyə çalışırlar.

Məktəbəqədər yaşlı uşaqları yaşlıların əməyi ilə əsasən beş mühüm yolla tanış etmək olar: I. Uşaqlara yaşlıların əməyini tərənnüm edən ədəbi-bədii parçalar, şerlər, hekayələr və nağıllar oxumaqla; II. Əxlaqi söhbətlər vasitəsilə; III. Yaşlıların əməyinə həsr olunmuş şəkillərə, sənədli filmlərə, televiziya verilişlərinə tamaşa etməklə;

IV. Yaşlıalrın əmək fəaliyyətini müşahidə etməklə; V. Yaşlılarla uşaqların birgə əmək fəaliyyətini təşkil etməklə.

Əməyin insana göstərdiyi faydalı təsir xalqımızın əsrlər boyu yaratdığı şifahi xalq ədəbiyyatı nümunələrində tərənnüm olunmuşdur. Tərbiyəçi yaşlı nəslin müxtəlif əmək sahələrini tərənnüm edən bədii əsərləri oxuyur və məzmununu nəql edir. Bu qəbildən olan əsərlər əsasında əxlaqi söhbətlər keçirməlidir. Bunun üçün tərbiyəçidən xüsusi hazırlıq və pedaqoji səriştə tələb olunur. Tərbiyəçi nəzərdə tutduğu əmək növünə uyğun bədii əsəri əvvəldən müəyyənləşdirməli və həmin əsərin məzmununu uşaqlara hansı formada izah edəcəyini fikirləşməlidir. Məsələn, uşaqları taxılın əkilməsi, biçilməsi və kombaynla yığılması, eləcə də, çörəyin hazırlanmasında yaşlıların əməyi ilə tanış etmək məqsədilə tərbiyəçi “Elin sərvəti” bədii parçasından istifadə edir. Bu hekayənin nəqli zamanı uşaqlar taxılın necə əkilməsi, becərilməsi və yığılması ilə tanış olur, müasir kənd təsərrüfatı maşınları və onların əhəmiyyəti haqqında məlumat əldə edirlər.

Məktəbəqədər yaşlı uşaqları yaşlıların əməyi ilə tanış etməkdə filmlərin də rolu böyükdür. Tərbiyəçi baxış üçün hazırladığı film haqqında uşaqlara əvvəlcə məlumat verir, sonra film nümayiş etdirilir, baxışdan sonra filmin təhlili olur. Tərbiyəçi filmdə təsvir olunan əmək sahələri haqqında uşaqların fikrini öyrənir.

Yaşlı nəslin əməyini müşahidə etmək uşaqlarda yaşlıların əməyinə müsbət münasibət yaranmasına kömək edir, onları yaşlıların əməyinə daha da yaxınlaşdırır.

Estetikanın mahiyyəti estetik tərbiyə, estetik inkişaf, estetik şüur, estetik ideal və s. məfhumlarla bağlıdır. Estetika – aisthesis yunan sözü olub hiss vasitəsilə dərk etmək deməkdir. Estetik tərbiyə uşaqda bədii hisslərin, zövqün, bədii mühakimələrin, təbiətdəki gözəlliklərə münasibətin təşəkkül tapıb möhkəmlənməsi prosesidir.

Şəxsiyyətin estetika anlayışı mahiyyət etibarı ilə bir neçə komponentə ayrılır. Buraya estetik şüur, estetik tələbat, estetik münasibət və estetik fəaliyyət daxildir. İnkişafda olan uşağın şüurunun estetik baxımdan düzgün formalaşdırılması həyatda həlledici rol oynayır. Yalnız estetik şüur formalaşandan sonra şəxsiyyətin estetik anlayışının bütün komponentləri dolğun şəkildə təzahür edir. Estetik tələb birinci növbədə şəxsiyyətin motivi, estetik marağı, estetik idealı, zövqü və estetik hissidir. Estetik münasibətə isə dinləmə, faydalanma, qiymətvermə və qoruma aiddir. Estetik fəaliyyət estetik vərdişlərin, müvafiq istetadın qabiliyyətlə həyata tətbiq edilməsidir.

Estetik tərbiyə uşağı fəal həyat tərzinə hazırlayır, əməyə, ətraf mühitə, adamlara xüsusi zövqlə münasibət bəsləmək qabiliyyəti formalaşdırır. Estetik tərbiyə uşağı həyatda gözəl olan hər şeyin duyulmasına və bu gözəlliyə yüksək məhəbbət və ehtiram bəsləməyə, eyni zamanda hər cür eybəcərliyə nifrət etməyə hazırlayır.

Estetik tərbiyə həm incəsənət əsərlərində, həm də fikir və davranışda olan gözəllikləri qavramaq, dərk etmək, sevib qiymətləndirmək və bədii yaradıcılıq qabiliyyətinin tərbiyə edilməsini nəzərdə tutur.

Estetik tərbiyə məktəbəqədər dövrdən başlayaraq uşaqlarda estetik hisslər yaratmalı və tədricən həmin hissləri inkişaf etdirməlidir. Uşaqlar yaşadıqları evin mənzillərində, həyətdə, bağçada, uşaq bağçasında, küçədə təbiətin füsunkar gözəlliyini, rəsm əsərlərini, memarlıq abidələrini görür, musiqi dinləyirlər. Bu onalrın həssaslığını artırır, bədii hisslərini inkişaf etdirir. Bağçada tərbiyəçi, evdə valideynlər uşaqların bu gözəllikləri qavramasına köməklik göstərməli və bununla əlaqədar onların estetik hisslərini inkişaf etdirilməsində yardımçı olmalıdırlar. Məktəbəqədər yaşlı uşaqlar müşahidə etdikləri gözəlliklər haqqında mühakimə yürütməyi və nəyin pis, nəyin yaxşı olduğunu söyləməyi bacarmalıdırlar. Onlar yalnız baxmaq, eşitmək deyil, həm

də görmək və duymaq qabiliyyətinə malik olmalıdırlar. Məktəbəqədər yaşlı uşaqlar tədricən müşahidə etdiyi gözəl şeylər haqqında "gözəldir", "yaxşıdır", çirkin şeylər haqqında "pisdir", "xoşum gəlmir" kimi məfhumları işlətmək qabiliyyətinə yiyələnməlidirlər. Uşaqlar musiqi, rəsm əsəri, şer parçalarını da qiymətləndirməyi bacarırlar. Onlar yaş və anlaq səviyyəsinə uyğun rəsm əsəri haqqında özlərinə məxsus mühakimələr yürüdürlər. Xoşlarına gələn musiqinin sədaları altında rəqs etməyi, zövqlərini oxşayan şer söyləməyu xoşlayırlar.

Estetik tərbiyə tərbiyənin digər tərkib hissələri ilə sıx əlaqədədir. Estetik tərbiyə birinci növbədə əqli tərbiyə ilə bağlıdır. Uşaq görüb eşitdiklərinə dair münasibəti əqlin mühakiməsinə verir. Əqli nəticə onun estetik baxış və görünüşünün səviyyəsini nümayiş etdirir. Estetik zövq nəinki uşağın sevincini artırır, həm də onu mədəniləşdirir, tərbiyə edir.

Estetik tərbiyə eyni zamanda məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin qazanılması, yaxşını pisdən seçməsi və yaxşı hərəkətlərdən həzz alması üçün geniş imkanlar yaradır. Xasiyyəti, rəftarı gözəl olan uşağın zövqü, arzusu, fikri də gözəl olur.

Estetik tərbiyə əmək tərbiyəsi ilə də sıx bağlıdır. Əmək fəaliyyəti uşaqları sevindirir, onlar öz qüvvə və imkanlarını dərk edir, gücü çatan işləri icra etməyə çalışırlar.

Estetik tərbiyə fiziki tərbiyə ilə də vəhdətdədir. Gözəl qamət, yeriş, musiqi sədaları altında sırada hərəkət, rəqs, bədii gimnastika uşaqların həm fiziki sağlamlığında, həm də estetik tərbiyəsində çox əhəmiyyətlidir.

2. Estetik tərbiyə aşağıdakı prinsiplər əsasında həyata keçirilməlidir:

1. Yetişən gənc nəslin estetik tərbiyəsində məqsədyönlülük mühüm prinsiplərdən biridir. Estetik tərbiyə məqsədi ilə seçilən mətnlər məktəbəqədər yaşlı uşaqların xüsusiyyətlərini diqqətlə nəzərə almaqla seçilməli, onların ideyaca münasib, bədii cəhətdən dəyərli və zəngin olmasına xüsusi fikir verilməlidir. Uşaq bağçası tərbiyəçisi öz fəaliyyətində bu prinsipə ciddi əməl etməklə qarşıya qoyulmuş məqsədin qayəsini uşaqlara başa salmalıdır.

2. Estetik tərbiyə işində uşağın yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Pedaqogika elmi uşaqlar üçün incəsənət əsərlərinin (uşaq teatrı, uşaq musiqisi, uşaq ədəbiyyatı və s.) olması, onlardan uşaqların yaşına və amlaq səviyyəsinə uyğun olanını seçib istifadə edilməsini məsləhət bilir. Eyni zamanda, anlaşılması çətin olmayan, yaşlılara məxsus əsərlərdən istifadə olunması da məsləhət bilinir.

3. Estetik tərbiyə varislik prinsipi əsasında aparılmalıdır. Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsi xalqın zəngin keçmiş irsi, milli-mənəvi dəyərləri və müasir mənəviyyatı ilə sıx əlaqəli şəkildə həyata keçirilməlidir. Azərbaycan

xalqının bu irsini qorumaq, nəsildən-nəslə ötürmək estetik tərbiyənin əsas məqsədi və vəzifəsidir. Müasir estetik xəzinə qədim mənəvi irsin varisidir.

4. Estetik tərbiyə prosesində sistematlik və ardıcıllığa əməl edilməlidir. Estetik bacarıq və vərdişləri uşağa yavaş-yavaş, həm də bir-biri ilə əlaqədar olan çoxlu çalışmalar nəticəsində aşılamaq lazımdır. Estetik tərbiyə məqsədilə aparılan çalışma və təmrinlər arasındakı təmrinlər uzun olmamalıdır.

5. Estetik tərbiyə hərtərəfli aparılmalıdır. Estetik tərbiyə işi elə qurulmalıdır ki, uşaq həm incəsənətin müxtəlif növləri ilə (ədəbiyyat, rəsm, musiqi və s.) məşğul olsun, həm də geyimdə, məişətdə, əməkdə, davranış və münasibətdə gözəllik qanunlarına riayət etsin. Qeyd edilən bu prinsiplər əsasında estetik tərbiyənin vəzifələrini həyata keçirərkən həmişə uşaq şəxsiyyətinin ahəngdar inkişaf etdirilməsi əsas götürülməlidir.

3. Müasir mərhələdə uşaqların estetik tərbiyəsi qarşısında aşağıda qeyd olunan nəzəri və metodoloji tələblər qoyulur:

- Uşaqların estetik tərbiyəsində istifadə olunan incəsənət vasitələri ideya-tərbiyəvi cəhətdən yüksək bədiiliyə malik olmalıdır;

- uşaq incəsənətinin nəticələri həyat hadisələrinin real obrazını əks etdirməlidir;

- uşaq incəsənət əsərlərinin məzmunu xeyirxah əməllər – nəciblik, qayğıkeşlik, mehribançılıq, nəzakətlilik, ədəblilik və s. hisslər oyatmalıdır;

- incəsənət əsəri düşmənə, rəzilliyə qarşı nifrət, qəzəb və mübarizlik hissi yaratmağa qadir olmalıdır;

- uşaq incəsənəti gümrah, parlaq, şən olmalı, yüksək əxlaqi keyfiyyətləri ifadə etməlidir.

4. Estetik keyfiyyət uşaqda kiçik yaşdan özünü göstərir, tərbiyə və təlim prosesində tədrisən formalaşır. Erkən yaş dövrü ətraf mühitin gözəlliklərini duymağa, estetik cəhətdən qavramağa hazırlıq mərhələsidir. Birinci ildə uşaqda sensor-emosional qavrama tədricən inkişaf edir. Bu zaman körpə xoşu gələn əşyanı gördükdə ağlamasını dərhal dayandırır, gülümsəyir və həmin əşyanı əldə etməyə çalışır. İkinci ildə qavrama təkmilləşir, uşaq ətrafdakıların sadəcə əlamətini deyil, həm də incəsənətin bəzi növlərini dinləməyə meyl edir. Bəzi sadə musiqi və rəqs elementlərini təqlid edir. Tədricən nitqə yiyələndikcə gözəl-çirkin, yaxşı-pis, şən-qəmgin məfhumlarının mahiyyətini dərk edir.

Kiçik məktəbəqədər yaş dövründə uşağın estetik inkişafında müəyyən dəyişiklik yaranır. Bədii əsəri dərketmə qabiliyyəti nisbətən yüksəlir, musiqinin ritmini, əşyaların rəngini asanlıqla fərqləndirir, onlara özünəməxsus münasibət göstərir.

Orta və böyük qrup uşaqlarında qavrayış xeyli inkişaf edir. Bu yaşlı uşaqlar bədii obrazları, yaş və anlaq səviyyələrinə müvafiq musiqini, rəsmləri elementar qaydada olsa da, qiymətləndirmək qabiliyyətinə malik olurlar. Uşaqlar estetik məzmunlu əsərin daxili əlaqəsini özlərinə məxsus formada müəyyənləşdirir, müqayisə aparır və bəzi ümumiləşdirmələr edirlər. Məsələn, hekayəni nağıldan, marşı rəqsdən, beşik mahnılarını xalq mahnılarından ayırmağa cəhd edirlər.

Uşaqlarda tədricən fəal bədii yaradıcılıq qabiliyyəti inkişaf etməyə başlayır. Onlar tamaşa etdiyi və dinlədiyi əsərləri estetik zövqlə qiymətləndirməyi bacarır, incə məsələləri sezirlər. Onlarda ətrafdakı gözəlliklərə maraq artır, bədii əsərlərdəki müsbət surətlərə rəğbət hissi yaranır. Beləliklə, məktəbəqədər dövrdə estetik inkişafın özülü qoyulur, tərbiyənin təsiri ilə o inkişaf edir və nisbətən təkmilləşir.

Uşaqların estetik tərbiyəsinin vəzifələrini 4 istiqamətdə qruplaşdırmaq olar:

1) estetik qavramanın inkişaf etdirlməsi, estetik emosiyanın, hisslərin, münasibətin və marağın formalaşdırlması;
2) elementar estetik şüurun formalaşdırlması ;
3) estetik fəaliyyətin dərk edilməsi;
4) estetik və bədii yaradıcı qabiliyyətin inkişafı.

5. Estetik tərbiyənin məzmununa estetik bilik, bacarıq, vərdiş, hiss, maraq və zövq daxildir. Uşaqların gözəllik haqqında anlayışları ətraf mühiti estetik cəhətdən dərketmə prosesində yaranır. Böyüklərin rəhbərliyi altında uşaqlar gözəl və çirkin, yaxşı və pis və s. anlayışlar haqqında təsəvvür və biliklərə də yiyələnirlər. İncəsənət əsərləri vasitəsilə uşaqlar şer, nəğmə, təsviri sənət vasitə

silə cisim və hadisələri estetik baxımdan qiymətləndirmək qabiliyyətinə yiyələnirlər. Məktəbəqədər yaşlı uşaqlar komik əsərlərə tamaşa edərkən güldüyü, sevindiyi kimi, faciə əsərlərindəki kədərli əhvalatlardan da kədərlənməyi bacarırlar.

Uşaq incəsənəti ideya-tərbiyəvi cəhətdən yüksək keyfiyyətli olmalıdır. Bunlar həyat hadisələrini düzgün, parlaq və obrazlı əks etdirməlidir. Belə incəsənət əsərlərinin məzmunu uşaqlarda xeyirxah hisslər, anaya, yoldaşa, qocalara, əlillərə kömək etmək, balacaların qeydinə qalmaq və s. əxlaqi anlayışlardan ibarətdir. Uşaq incəsənəti anlaşıqlı olmalıdır. Məzmun və formaca mürəkkəb olan incəsənət əsəri uşaq beyninin lüzumsuz gərginliyinə səbəb olur, obrazların yanlış başa düşülməsinə gətirib şıxarır, uşaqları yorur. Əsəri təkrarən uşağa düzgün anlatmaq və başa salmaq tərbiyəçinin vəzifəsidir.

Estetik tərbiyənin metodlarını aşağıdakı qaydada qrurlaşdırmaq olar:

1. Ətraf həqiqətləri, incəsənət əsərlərinə emosional münasibət göstərməyi, estetik hiss, maraq, tələb və münasibətləri formalaşdıran metodlar: bu cisim və hadisələri müşahidə etməklə, incəsənət əsərlərinə baxmaqla,

onları dinləmək yolu ilə müqayisə aparmaq, fərqləndirmək qabiliyyəti formalaşdırır;

2. Uşaqlarda estetik şüurun elementlərini formlaşdırmaq. Bu müxtəlif söhbətlər, ekskursiya və gəzinti zamanı müşahidə aparmaqla olur. Oyun metodu əşyaların formasını, rəngini öyrənmək məqsədilə sensor didaktik oyunlar keçirməklə olur.
3. Uşaqları estetik və bədii sahədə fəaliyyətə təhrik etmək, onlarda bu sahədə bacarıq və vərdişlər yaratmaq, incəsənətin növlərindən asılı olaraq musiqi, rəqs, şəkil çəkmək, applikasiya və s. sahələrdə təsviri sənətin elementlərini mənimsətmək;
4. Uşaqların müstəqi fəaliyyəti prosesində onların estetikvə bədii qabiliyyətləri inkişaf etdirilir. Bu metodların həyata keçirilməsi uşaqların axtarıcı fəaliyyəti, problem situasiya, hər bir uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq ona fərdi yanaşmaqdan ibarətdir. Problem-axtarıcı metodda uşağa imkan vermək lazımdır ki, özü qarşıya çıxan problemi həll etsin. Məsələn, uşağa estetik xarakterli tapşırıq verilir və onun icrası göstərilmir. Onu uşaq özü müəyyən etməlidir. (məs., rəqs etdiyin musiqinin adını müəyyən et, dinləriyin nəğmənin məzmunu haqqında danış və s.)

Uşaq bağçasının daxili və xarici gözəlliyi estetik tərbiyə üçün mühüm vasitələrdən biridir. Birinci şərt odur ki, bağçada estetik tərbiyə ilə əlaqədar ayrıca otaq təşkil edilir. Orada musiqi alətləri, təsviri, bədii oyun vasitələri qoyulur. Bu əyani vəsaitlər uşaqların estetik və bədii tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

İkinci şərt estetik və bədii tərbiyə ilə əlaqədar əsərlərin bağçaya toplanmasıdır. Bura incəsənətə aid əsərlər – şəkillər heykəllər, dekorativ xalq sənəti nümunələri, bədii ədəbiyyat, musiqi əsərləri və s. daxil edilir. Uşaq kiçik yaşlardan incəsənət əsərləri ilə yaxından tanış edilməli, əsərlərin dərk edilməsinə sövq edilməlidir.

Üçüncü şərt uşaqların öz aktiv fəaliyyəti ilə bağlıdır. Estetik tərbiyə xarakterli vəsaitlər özlüyündə işin bir tərəfidir, amma onlat estetik tərbiyəni tam təmin etmir.

Dördüncü şərt fərdi yanaşma ilə bağlıdır. Fərdi xüsusiyyətləri nəzərə alaraq hər bir uşağın estetik tərbiyəsini təmin etmək mühüm tələbdir.

Esteik tərbiyənin vasitələri tərbiyəçi tərəfindən seçilir və fəaliyyət prosesində tətbiq edilir. Bura məişət estetikası, təbiət, incəsənət, uşaqların bədii fəaliyyəti, təlim məşğələləri, tərbiyəçinin davranışı, uşaq tərbiyəsi müəssisələrində estetik tərbiyə üçün şəraitin yaradılması daxildir.

Məişət estetikası uşaqların sağlamlığına, onlarla tərbiyə işi aparılmasına, bədii zövqünün tərbiyə edilməsinə xidmət edir. Uşaq bağçasında divarların rəngi, mebel, şəkillərin, otaq bitkilərinin cazibədarlığı və s. bütün bunlar uşaqların estetik tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

Təbiət özü estetik tərbiyənin beşiyidir. Tərbiyəçi təbiət gözəlliklərini görmək, duymaq və qavramaq qabiliyyətini uşaqlarda formalaşdırmaqda böyük ustalıq göstərməlidir. Uşaq bağçasında təbiət guşəsi yaradılmalıdır.

Uşaq bağçasında estetik tərbiyə baxımından incəsənət əsərlərindən, musiqidən də geniş istifadə olunur. Musiqi yalnış musiqi məşğələlərində deyil, məişətdə, uşaqların oyunlarında, fəaliyyətin digər sahələrində səslənməli, uşaq əyləncəsini və istirahətini təmin etməlidir.

Uşaq bağçasında estetik tərbiyənin vasitələrindən biri də bayramların keçirilməsidir. Bayramlarda formaların, rənglərin yeniliyi və gözəlliyi, yeni obrazlar diqqəti cəlb edir, uşaqların sevincinə səbəb olur.

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsində kukla teatrının da özünəməxsus rolu var. Burada dinamik hərəkət, bədii söz, musiqi, rəqs və təsviri sənət üzvi surətdə birləşir. Çox vaxt uşaqlar özləri belə tamaşalarda oynayırlar ki, bu da onların nitqinə və kiçik yaşdan yaradıcı olmasına müsbət təsir göstərir.

1.Müasir mərhələdə yetişməkdə olan gənc nəslin **ekoloji tərbiyəsi** bəşəriyyətin qarşısında duran qlobal problemdir. Ekologiya ilə bağlı əksər sənədlərdə ətraf mühitin qorunmasının əhəmiyyəti və ekoloji tərbiyə məsələlərini məktəbəqədər dövrdən başlayaraqhəyata keçirilməsinin vacibliyi öz əksini tapmışdır. Uşaqlarda təbiəti qorumaq, onun sərvətlərindən səmərəli istifadə etmək işində məsuliyyət hissi aşılanmasa, onlar bunu aydın dərk etməsələr ətraf mühitin qorunmasında fəal rol oynaya bilməzlər.

Respublikamızda sənaye və kənd təsərrüfatının inkişafı ilə əlaqədar lazımi ekoloji qaydalara əməl edilmədiyindən sənaye tullantıları havanı, torpağı, çayları, gölləri və Xəzər dənizini çirkləndirir, canlı aləmə ciddi ziyan vurur, insanların həyat şəraitini pisləşdirir. Odur ki, təbiətdən səmərəli istifadə və onun müdafiəsi zamanı təbii prosesləri idarə edən qanunların nəzərə alınması vacibdir.

Ekologiya dedikdə canlı təbiət və onun ayrı-ayrı tərkib hissələri ilə xarici aləmin qarşılıqlı münasibətləri, yaxud bu münasibətləri öyrənən elm nəzərdə tutulur. Tarix boyu müşahidələr göstərmişdir ki, təbiət nə qədər zəngin olarsa, maddi nemətlər də bir o qədər bol olar, nə qədər gözəl olarsa, o qədər də insan zövqünü oxşayar. Lakin insanlar bəzən istər-istəməz təbiətə qəsd edir və bəlasını da özləri çəkirlər. Məhz buna görə də bu gün bir sıra şəhərlərdə insanın təbiətə qayğısız münasibəti gərgin vəziyyət yaratmışdır.

Bu gün ekologiyanın qorunması məsələlərinin dövlət tərəfindən başlıca problem kimi cəmiyyət qarşısında qoyulması gənc nəslin tərbiyəsində öz müsbət təsirini göstərir. Təbiətə, onun sərvətlərinə məhəbbət və qayğı uşaqlarda bilavasitə kiçik yaşlarından təşəkkül tapmağa başlayır. Buna görə də məktəblərdə və uşaq bağçalarında ətraf mühitə, təbii sərvətlərə, təbiətin gözəlliyinə məhəbbət ruhunda tərbiyə işi aparmaq, bitki və heyvanat aləminin əhəmiyyətini uşaqlara izah etmək,

təbiətə qayğı hissini bacarıqla aşılamaq diqqət mərkəzində olmalıdır. Uşaqlar məktəbəqədər dövrdən başa düşməlidir ki, təbiətin mühafizəsi onun sərvətlərinin qorunması və artırılması qayğısına qalmaq deməkdir. Onlar bilməlidirlər ki, torpaq, hava, su, meşə, bitki və heyvanlar aləmi, habelə bütün faydalı qazıntılar təbiətin sərvətidir.

2. Uşaq bağçasında ekoloji tərbiyə bir sıra konkret vəzifələri həllinə xidmət edir. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

1. Ekoloji tərbiyə uşaqlarda təbiətə, ətraf mühitə məhəbbət və rəğbət hissi yaratmalı, onları yaş və anlaq səviyyələrinə uyğun onun mühafizəsində durmağa hazırlamalıdır. Məktəbəqədər yaşlı uşaqlar doğma yurdun təbii gözəlliklərindən zövq almağı öyrənməklə yanaşı, yaşadıqları ərazidə təbii gözəlliklərin qorunmasında, havanın, suyun təmiz saxlanmasında güclərinə müvafiq işlər görmək qabiliyyətinə malik olmalıdırlar;

2. Ekoloji tərbiyə uşaqlarda ekoloji baxışların və mühakimənin yaradılmasına kömək göstərməlidir. Məktəbəqədər yaşlı uşaqlar ekoloji tərbiyənin mahiyyətinibəsit formada olsa da, dərk etməli, təbiəti sevməli, təbii sərvətləri qorumalı, onun yaxşılaşması və artırılmasında güclərinə müvafiq fəaliyyət göstərməlidirlər. Yalnız müşahidə etməyi deyil, onun haqqında mühakimə yürütməyi, ətraf mühiti nə üçün qorumağın vacibliyini sadə şəkildə də olsa, izah etməyi bacarmalıdır.

3. Ekoloji tərbiyə bağça yaşlı uşaqları ekologiyanın müxtəlif sahələri üzrə müvafiq bilik, bacarıq və vərdişlərlə silahlandırmalıdır. Ətraf mühiti dərindən dərk etmək üçün onun haqqında insanda elmi təsəvvürlə yanaşı, bilik də olmalıdır. Belə bilik uşaqlara bəsit formada olsa da aşılanmalıdır. Belə olmasa, təbiətin qorunmasında onların düzgün mövqeyini təyin etmək çətin olar. Belə ki bu yaşlı uşaqlar oyun və yataq otağında havanın təmiz saxlanmasının əhəmiyyətini dərk etməlidirlər. Onlar otaqda və bağçanın torpaq sahəsində gül becərməyi, ağaclara, saxlanılan quşlara və heyvanlara qulluq etməyi bacarmalı, gələcəkdə təbiətə qeyri-insani münasibət hallarına qarşı mübarizəyə hazırlanmalıdırlar.

Yuxarıda göstərilən vəzifələr ayrı-ayrılıqda deyil, bir-biri ilə qarşılıqlı əlaqədə həyata keçirilməlidir. Həmin vəzifələr nə qədər müvəffəqiyyətlə həyata keçirilsə, uşaqlar bir o qədər ətraf mühitin təmiz saxlanmasında, qorunmasında fəal iştirak edər və onlarda təbiətə məhəbbət hissi daha da dərinləşər.

3. Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsini lazımi səviyyədə qurmaq üçün bir sıra mühüm tələblərə-prinsiplərə əməl edilməlidir:

1) Ekoloji tərbiyəyə uşaq şəxsiyyətinin hərtərəfli inkişafının tərkib hissəsi kimi baxılmalıdır. Ekoloji tərbiyə estetik, əmək və vətənpərvərlik tərbiyəsi ilə bağlıdır.Ona görə uşaqları təbiətdə olan gözəlliyi qavramaq və qorumaq, doğma torpağın təbii sərvətlərini mühafizə etmək, onların qayğısına qalmaq və s. belə bacarıq və vərdişlərə yiyələndirmək lazımdır;

2) Ekoloji tərbiyədə təbii sərvətlərin mahiyyətini anlamaq üçün məktəbəqədər yaşlı uşaqların yaş və fərdi xüsisiyyətləri nəzərə alınmalıdır. Məsələn, bu yaşlı uşaqlara təbii ehtiyatların tükənməsi, havanın, suyun, torpağın, bəzi bitki və heyvan növlərinin qeyri-insani fəaliyyət nəticəsində məhv edilməsini anlatmaq üçün istər məşğələ, istərsə də məşğələdənkənar tərbiyəvi tədbirlər vasitəsilə sadə şəkildə çatdırılmalıdır;

3) Ekoloji tərbiyə işində sistematiklik və ardıcıllıq gözlənilməlidir. Ekoloji tərbiyə sahəsində bacarıq və vərdişləri uşaqlara yavaş-yavaş, bir-biri ilə əlaqəli və müntəzəm surətdə aşılamaq lazımdır. Məsələn, təbiətin mühafizəsinə qid bir söhbətlə kifayətlənmək olmaz. Eləcə də, uşağı bir dəfə təbiətin qoynuna çıxarmaqla təbiəti, onun gözəlliyini uşaqlara sevdirmək mümkün deyil. Bu müntəzəm, planlı və məqsədyönlü həyata keçirilməlidir.

4) Ekoloji tərbiyə hərtərəfli aparılmalıdır. Uşaqlarda təbiətə sadə formada olsa da, münasibət formalaşdırılmalıdır. Bu, uşağın əxlaqına, vətənpərvərlik hissinə təsir edir.

Əgər uşaq bağçasında tərbiyəçi, ailədə valideynlər, məktəbdə isə müəllim tərbiyə işini lazımi səviyyədə qurarlarsa, onda uşaq və yeniyetmələr ekologiya və təbiətin mühafizəsi kimi mühüm problemin həyata keçirilməsində fəal iştirak edərlər. Müəllim və tərbiyəçi istər dərs prosesində, istərsə də məşğələlərdə öz fəaliyyətinidövrün, zamanın tələblərinə uyğun, eyni zamanda, uşaqların yaş və anlaq səviyyələrinə müvafiq qursalar, təbii ki, istədiklərinə nail ola bilərlər.

4. Təlim prosesi elə təşkil olunmalıdır ki, bu şəraitdə ekoloji tərbiyə də səmərəli həyata keçirilsin. Təbiətlə rəftarın əsasını qayğıkeşlik, həssaslıq, xeyirxahlıq kimi əxlaqi hisslər təşkil edir. Buna görə də təlim prosesində bu keyfiyyətlərin tərbiyəsinə mühüm diqqət yetirlməlidir. Məşğələlər zamanı ayrı-ayrı mövzular öyrədilərkən başlıca vəzifə uşaqların təbiəti mühafizə tərbiyəsi olmalıdır. Bunun üçün birinci növbədə ekoloji tərbiyə üçün xüsusi əhəmiyyəti olan mövzular seçilməlidir. Gecə-gündüzü, havanın dəyişməsini, küləyin əsməsini, yağışın, qarın yağmasını, günəşli və dumanlı havanın dəyişməsini uşaqlara öyrətmək ekoloji tərbiyə ilə sıx bağlıdır.

Uşaqların təbiətin qoynunda istirahəti, müşahidəsi və ya əməyi, bəzi ziyanverici həşəratlara qarşı mübarizəsi, ac quşları yedizdirməsi, onların xidmətində durması ekoloji tərbiyə baxımından çox əhəmiyyətlidir.“Uşaq bağçası tərbiyəçisinin kitabı” adlı proqramda qeyd edilir ki, uşaqları doğma təbiətlə tanış etmək, bu zaman onların dünyagörüşünü genişləndirmək və bu əsasda onlarda müstəqilliyi, yaradıcılığı, təbiətsevərliyi inkişaf etdirmək tərbiyəçinin əsas vəzifələrindəndir.

Ekoloji tərbiyə ilə bağlı təbiət mövzusunda şer və hekayələrdən istifadə də güclü təsir qüvvəsinə malikdir. Məsələn, N.Gəncəvinin “İlin fəsilləri” adlı şeri fəsillərin

dəyişməsi haqqında uşaqlara müəyyən biliklər verir. Uşaqlar yaz, yay, payız və qış fəsillərində təbiətdə baş verən dəyişikliklər haqqında məlumatlar əldə edirlər.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində təlim xarakterli ekskursiyalar da mühüm rol oynayır. Ekskursiyanın üstün cəhəti burasındadır ki, uşaqlarçayın, meşənin, gölün təmiz saxlanması, çirkab suların çaya, gölə axıdılmasının zərərini anlayır, eləcə də, təbiətdəki gözəlliyi əyani olaraq görür, bu sahədə düzgün mühakimə yürüdürlər. Qabaqcıl tərbiyəçilər uşaqları proqram tələblərinə müvafiq olaraq ekskursiyaya aparmaq üçün gözəl və mənzərəli yerlər seçirlər. Yaşıl çəmənlik, gül-çiçəkli park, meyvəli bağ haqqında təsəvvürlər onların ekoloji tərbiyəsini möhkəmləndirir.

Uşaqların təbiət, təbii sərvətlər, onlardan istifadə, insan və təbiət, onların qarşılıqlı əlaqəsi barədə ekoloji biliklərin sistem şəklində mənimsəmələrində valideynlər, məktəb müəllimləri və uşaq bağçası tərbiyəçiləri müəyyən işlər görməlidirlər.

Mövzu: 7. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsinin məqsədi, vəzifələri və əsas vasitələri.

PLAN:

1. Məktəbəqədər yaşlı uşaqların özünəxidmət əməyi.
2. Məktəbəqədər yaşlı uşaqların təsərrüfat-məişət əməyi.
3. Məktəbəqədər yaşlı uşaqların təbiətdə əməyi.
4. Məktəbəqədər yaşlı uşaqların əl əməyi.
5. Özünəxidmət əməyinin həyata keçirilməsi metodikası.
6. Ailədə məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin təşkli.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı, 1964.

3. A.Həsənov. Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsi. Bakı, 198

4. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

5. A.Həsənov. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi (tədris-metodik vəsait) Bakı, 1993.

6.Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.

1. Məktəbəqədər yaşlı uşaqların əmək növləri müxtəlifdir: Özünəxidmət əməyi, təsərrüfat-məişət əməyi, təbiətdə əmək, əl əməyi. Özünəxidmət əməyi kiçik qruplarda daha çox tətbiq olunur və uşaqlara çətinliyi aradan qaldırmaq, müstəqillik, səliqəlilik kimi keyfiyyətlər aşılayır. Yuyunmaq, geyinmək, yatağı yığışdırıb təmiz saxlamaq və s. kimi vərdişlər uşaqların digər əmək növlərində müstəqil iştirakı üçün şərait yaradır. Amma bu yaş dövründə uşaqların əzələlərinin kifayət qədər inkişaf etməməsi, hərəkətin ardıcıllıqla yerinə yetirilməsi zamanı meydana şıxan çətinliklər onlarda işi vaxtında icraetmə həvəsini azaldır. Buna baxmayaraq, tərbiyəçi uşaqlarda işi müvəffəqiyyətlə görüb başa çatdırma, təmiz və səliqəli iş görmə kmi qabiliyyətləri yaradıb inkişaf etdirməyə səy göstərməlidir. Bütün bunlar tərbiyəçidən səbrli və mehriban olmağı tələb edir. Özünəxidmət əməyini həyata keçirərkən tərbiyəçi kollektiv işlə yanaşı, uşaqları fərdi qaydada işlətməli, hər bir uşağı fəaliyyətə ruhlandırmalı, onda öz qüvvəsinə inam yaratmalıdır. Başlıcası isə tərbiyəçi çalışmalıdır ki, bu yaş dövründə uşaqlar özünəxidmətin əhəmiyyətini aydın dərk etsinlər.

Uşaqlardan biri işdən diqqətini tüz yayındırır, digəri iş zamanı çətinlik çəkən yoldaşına kömək göstərməkdən həzz alır, üçüncüsü işi yarımçıq qoyub oyuna meyl edir, dördüncüsü isə işi başdansovdu görməyə meyl edir. Uşaqların belə fərdi xüsusiyyətlərini tərbiyəçi nəzərə almalı və hər bir uşağa öz fərdi xüsusiyyətinə görə təsir etməlidir.

Məktəbəqədər yaşlı uşaqların orta qrupunda özünəxidmət əməyinin məzmunu nisbətən inkişaf edir. Bu yaşda uşaqlar müəyyən iş görəndə yaşıdlarına da göz qoyur və onların nöqsanlarını nəzərlərinə çatdırırlar.Orta qrupun uşaqları işi nisbətən sərbəst icra edirlər. 5-6 yaşlı uşaqlarda sərbəstlik və müstəqillik daha da

güclənir. Onlar özləri geyinir, soyunur, özünə müvafiq işləri sərbəst icra edirlər. Çox vaxt özündən kiçik bacı-qardaşlarına nümunə olur, onlara köməklik göstərirlər.

2. Uşaq bağçasında təsərrüfat-məişət əməyi öz məzmununa görə müxtəlifdir. Buraya uşaq bağçasının həyətyanı sahəsində, gəzinti və idman meydançasında, soyunma, yuyunma, yataq və məşğələ otaqlarında səliqə-səhman yaratmaq işləri daxildir.

Kiçik qrupda uşaqlar yaşlıların məişət əməyi üzrə işini, məsələn, dayənin qab-qacaq yumasını, aşpazın yemək hazırlamasını, ananın paltar yuyub-ütüləməsini diqqətlə müşahidə edirlər. Onlar tədricən belə əməl növlərinə cəlb olunurlar. Məsələn, tərbiyəçinin xahişi ilə balacalar oyuncaqları meydançaya çıxarır, stulları stollara yaxınlaşdırır, döşəmədən kağızları yığır, çörək qablarını stola düzürlər. Bütün bunlar uşaqlarda məişət əməyi üzrə bacarıqları formalaşdırır. Burada tərbiyəçinin nümunə göstərməsi və işi uşaqların yaşına uyğun müəyyənləşdirməsi mühüm əhəmiyyət kəsb edir. Kiçik qrup uşaqalrına hərəkəti necə yerinə yetirməyi təkcə göstərmək və izah etmək azdır. Onlara fəaliyyət zamanı kömək də lazımdır. Tərbiyəçi uşağın qarşısına konkret məqsəd qoymalı (dəsmalı asmaq, dəyəyə kömək etmək, həyətdən yarpaqları yığmaq və s.) onun əmək fəaliyyətini istiqamətləndirməlidir. Əsas budur ki, uşaqlarda başqaları üçün zəhmət çəkmək meyli yaransın.

Orta qrupda təsərrüfat-məişət əməyi özünəməxsus əhəmiyyət kəsb edir. Bu yaşlı uşaqlar ilin axırına yaxın qayda-qanuna müstəqil riayət edir, otağın, iş yerinin yığışdırılmasında iştirak edirlər. Böyük qrupda isə uşaqların təsərrüfat-məişət əməyinin məzmunu daha da genişlənir. Belə ki, uşaqlar nahar vaxtı üçüncü yeməyi paylayır, nahardan sonra stolun üstünün yığışdırılmasında dayəyə kömək edir, məşğələnin sonunda material və vəsaitləri yerinə qoyur, işdən sonra stolları silir və s. Uşaqlar dəyə ilə balışların üzünü keçirir, döşəkağılarını salır və bu işləri görməklə onlar özlərini böyüklərin əsl köməkçisi hesab edirlər.Tərbiyəçi bu prosesdə uşaqlara bir-biri ilə razılığa gəlmək, kömək göstərmək kimi bacarıqları aşılayır.

Məktəbə hazırlıq qrupu uşaqlarının təsərrüfat-məişət əməyi məzmunca mürəkkəb xarakter daşıyır. Məsələn, süfrənin düzəldilməsi, stolun güllərlə bəzədilməsi, ikinci və üçüncü yeməyin paylanması kimi proseslər də daxildir. Uşaqlarda tədricən cəld, məharətlə, səliqəli, bacarıqla işləmək, əşyalarla düzgün davranmaq kimi keyfiyyətlər formalaşır. Tərbiyəçi iş prosesində uşaqlarda yaxşı əhval-ruhiyyə yaratmağa çalışmalı, onlarda öz qüvvələrinə inam formalaşdırmalıdır.

3. Uşaqların təbiətdə əməyi onların sağlamlığında, hərəkətlərinin kamilliyində, bacarıq və vərdişlərin formalaşdırılmasında mühüm rol oynayır. Təbiətdə əmək uşaqların görüş dairəsini genişləndirir. Uşaqlar onun vasitəsilə torpağın insan həyatındakı zəruri əhəmiyyətini dərk edib ondan istifadə etməyin yollarını

öyrənirlər. Bitkilərin həyatı ilə tanış olarkən uşaqlar öyrənirlər ki, su bitkilərin inkişafı üçün əsas şərtdir.

Təbiətdə əmək uşaqlarda kənd təsərrüfatı işlərinə marağı gücləndirir. Onlar təbiət guşəsindəki güllərə, quşlara, balıqlara qulluq etməklə bitki və heyvanların həyatı ilə yaxından tanış olurlar. Heyvan və bitkilərə qulluq etməyin özünəməxsus məzmunu və ona rəhbərlik metodları vardır. İşin məzmununa aşağıdakılar daxildir: quşların və heyvanların qəfəslərinin təmizlənməsi, yem və su təknələrinin yuyulması, onların su ilə doldurulması; tərbiyəçinin göstərişi ilə müstəqil surətdə quşların və heyvanların yedizdirilməsi; xırda heyvanların yedizdirilməsi üçün hazırlanmış meyvə köklərini yuyub doğramaq, göyərti hazırlamaq; ev heyvanlarına qulluq prosesində iştirak etmək; bostanda, güllükdə, bağda əkin və səpinə qulluq etmək və s. Əmək uşaqların imkanlarına, yaş xüsusiyyətlərinə uyğun yerinə yetirilir.

Birinci kiçik qrup uşaqlarının imkanları məhdud olduğundan əmək tərbiyəsi onlara anlaşıqlı olan təbiət hadisələri əsasında həyata keçirilir. Üç yaşlı uşaqların əməyi yalnız əyani təsirli təlim zamanı həyata keçirilir. Həyatının dördüncü ilində uşaqlara izah edilir ki, quşlara qulluq etmək, dən, ot vermək lazımdır.

Orta qrup uşaqlarında əməyə şüurlu münasibət nisbətən güclü olur. Uşaqlar təbiət hadisələrini müşahidə edərkən tanış əşyaları səciyyəvi əlamətlərinə görə müqayisə etməyi və qruplaşdırmağı öyrənirlər. Məsələn, qar və çovğunda quşların ac olduğunu düşünüb onları yemləməyə səy edən uşaqlar çox faydalı iş görmüş olurlar.

Böyük qrup uşaqlarının əməyi mürəkkəb xarakter daşıyır. Onların əməyi keyfiyyətə, işi vaxtında və müstəqil görməyə görə qiymətləndirilir. Bu keyfiyyətləri nəzərə alıb tərbiyəçi uşaqları təbiət guşəsində növbətçiliyə cəlb edir. Tərbiyəçi çalışmalıdır ki, uşaqlar işi səliqəli və təmiz icra etsin, qoyulmuş məqsəd onların gücünə müvafiq olsun.

4. Uşaq şəxsiyyətinin formalaşmasında əl əməyinin müstəsna əhəmiyyəti vardır. Müxtəlif materiallardan uşaqların oyuncaq və əşyalar düzəltməsi məktəbəqədər yaşlı uşaqların, xüsusən böyük qrup uşaqlarının əmək tərbiyəsinin mühüm cəhətlərindən biridir. Əl əməyinin məzmununda quraşdırma əməliyyatı mühüm yer tutur. Bu əmək zamanı uşaqlar əşyalar haqqında təsəvvürlərini genişləndirir, texnika haqqında müəyyən məlumata malik olurlar. Belə iş prosesində uşaqlar ən sadə texniki qurğularla tanış olur, oyuncaq alətləri ilə iş vərdişlərini mənimsəyir, əmək materiallarına, əşya və alətlərə ehtiyatla yanaşmağı öyrənirlər. Uşaqlara aydın olur ki, qalın kağızdan kəsmə və yapışdırma yolu ilə müxtəlif əşyalar düzəltməık olar. Ağacı isə mişarlamaq, yonmaq, kəsmək, deşmək, mıxlamaq olar.

Əl əməyi məşğələlərində təbii materiallarla iş də mühüm əhəmiyyət kəsb edir. Belə ki, uşaqlar yarpaqlar, palıd qozaları, şam, qoz ağaclarının qabıqları ilə aparılan iş zamanı həmin təbii materialların rəngi, forması, möhkəmliyi ilə də tanış olurlar. Bu zaman uşaq öz işinin mövzusu haqqında fikirləşir, əşyaları müqayisə

edir, özünəməxsus xəyali surətlər yaradır. Onlar hansı materialdan, harada və necə istifadə etməyi öyrənirlər.

Əl əməyi zamanı uşaqlar müxtəlif materiallardan oyuncaqlar düzəldirlər. Uşaqlara fırfıra oyuncağını düzəltmək üçün 4-5 sm uzunluğunda ucu şiş çubuq və qalın kartondan kəsilmiş, ortası deşilmiş dairələr verilir. Tərbiyəçi uşaqlara bu iki hissəni necə birləşdirməyi göstərir. Uşaqlar öz hazırladıqları fırfıranı stolun üstündə və yaxud döşəmədə fırladaraq məmnuniyyətlə oynadırlar. Eləcə də uşaqlar qutulardan, şam, küknar, palıd qozalarından, küləş və qarğıdalı saçağından müxtəlif oyuncaqlar düzəldə bilərlər. Uşaqlara əmək tapşırığı verərkən tərbiyəçi birinci növbədə tapşırığın məzmununu, onun fərdi və ya kollektiv formasını nəzərə almalı, bütün formaların həyata keçirilməsində pedaqoji rəhbərliyə geniş yer verməlidir.

5. Özünəxidmət əməyinin təşkili və həyata keçirilməsi ona pedaqoji rəhbərlikdən çoz asılıdır.Tərbiyəçi özünəxidməti elə təşkil etməlidir ki, burada bütün uşaqlar iştirak etsin, əmək işləri tədricən mürəkkəbləşsin və o, tərbiyə vasitəsinə çevrilsin.

Özünəxidmətlə əlaqədar vərdişlərin formalaşdırlmasının əsas metodiki yolu hər bir elementar hərəkətin və onun ardıcıllığının yerinə yetirilməsini göstərməkdən ibarətdir. Tərbiyəşi uşağa yatağı səliqə ilə yığışdırmaq üçün nümunə göstərir, eyni zamanda işi səliqəli həyata keçirmək üçün sözlə də izah edir. Uşaqlar müşahidə edir, eşidir, bunların əsasında təcrübi iş görür. Unutmaq olmaz ki, özünəxidmət vərdişləri birdən-birə yaranmır. Uşaq əl-üz yumaq, qurulamaq, geyinmək kimi vərdişlərə yiyələnmək üçün bu hərəkətləri necə yerinə yetirməyin mahiyyətini bilməlidir. Bununla yanaşı, onlar bu işlərdə məşq etməlidirlər. Ancaq bundan sonra uşaqlarda müəyyən bacarıq və vərdişlər yaranır. Vərdişlərin formalaşmasında tərbiyəçi nümayişlə yanaşı, şifahi izahdan, ümumi xatırlama metodundan istifadə etməlidir. Məsələn, “Pencəyinin düymələrini mən deyən kmi bağla”, “Yadınıza salın, yeməkdən qabaq nə etmək lazımdır?” və s. Özünəxidmət əməyində ümumi xatırlama metodu uşaqlarda hər hansı işə dair müəyyən vərdiş olduqda həyata keçirilir. Məktəbəqədər yaşlı uşaqların özünəxidmətinin təşkilində pedaqoji kollektiv tərəfindən qoyulan tələblərin vahidliyinin hamıtərəfindən gözlənilməsi vacibdir.

Uşaqları özünəxidmət üzrə tələblərlə tanış etmək məqsədilə məşğələlərdən, ətrafdakı yaşlıların, böyük məktəbəqədər yaşlı uşaqların davranışı üzrə gündəlik müşahidələrdən, kitablarda verilən illüstrasiyalardan, müvafiq bədii əsərlərin oxunmasından, kukla tamaşalarına baxışdan istifadə etmək olar. Özündən kiçiyə qayğı göstərmək, yaşlılara hörmət etmək, yaşıdları ilə ünsiyyət saxlamaq qaydalarına əməl etmək üçün məktəbəqədər yaşlı uşaqlar aşağıda qeyd olunan davranış qaydalarını bilməlidir:

1. Başqası özünəxidmət işində işin öhdəsindən gələ bilməyib sənə müraciət edirsə, ona gücün çatan qədər kömək göstər;
2. Başqalarına qarşı diqqətli ol, kimə kömək göstərmək lazım olduğuna fikir ver;
3. Balacalara, yaşlılara və yaşıdlarına qarşı xeyirxah ol;
4. Hər şeydə müstəqil olmağa çalış, lakin hiss etsən ki, tək işin öhdəsindən gələ bilməyəcəksən, başqasının köməyini təşəkkürlə qəbul et.

6. Məktəbəqədər yaşlı uşaqalrın tərbiyəsində müntəzəmlik və vahidlik prinsipi həlledici rol oynayır. Bu baxımdan məktəbəqədər tərbiyə müəssisələrində aparılan tərbiyə işləri eyni qayda ilə ailədə də davam etdirilməlidir. Əks təqdirdə məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşması pozula bilər.

Müşahidələr göstərir ki, bir çox valideynlər uşağa hədsiz məhəbbəti üzündən onu həyatın bərkindən-boşundan, istisindən-soyuğundan edlə qoruyurlar ki, uşaq müstəqil hərəkət etmək imkanından məhrum olur. Uşaq bir iş görmək istədikdə, "Get öz oyununu oyna, sənin nə vaxtındır ki, iş görəsən, mənə mane olma"sözlərini eşidirlər. Əlbəttə, böyüklər işi daha yaxşı və keyfiyyətlə görə bilərlər, lakin bu heç də o demək deyildir ki, uşağa yaşına və gücünə müvafiq iş verilməsin. Uşağı kiçik yaşdan əməksevərlik ruhunda tərbiyə etmək üçün ona hər gün gücünə müvafiq iş tapşırılmalıdır. Gücünə uyğun olmayan iş tapşırıldıqda uşaq müvəffəqiyyətsizliyə uğrayır və onda fiziki iş görməyə inamsızlıq yaranır. Lakin bu, heç də o demək deyildir ki, həmişə uşağa yüngül, çox zəhmət tələb etməyən iş verilməlidir. Valideynlər iş zamanı uşağın çətin vəziyyətə düşdüyünü görüb dərhal belə işi onun əlindən almamalıdırlar. Onlar çətinliyin nədən yarandığını dərk etməli və bununla da uşaqlara müstəqil hərəkət etmək imkanı yaratmalıdırlar.

Uşaqlarböyüklərin, xüsusən valideynlərin əmək işlərindən nümunə götürür, onlar kimi əməksevər olmağa çalışırlar. Bunun üçün ata və analar uşaqlara öz əmək fəaliyyətlərindən, peşələrindən tez-tez maraqlı söhbətlər etməli və nümunələr göstərməlidirlər. Unutmaq olmaz ki, uşaqlarda əməksevərlik tərbiyəsini ancaq nəsihətlə, söhbətlə yaratmaq mümkün deyil. Uşaqlara ailədə kiçik də olsa, daimi iş tapşırmaq çox vacibdir. Onlar bilməlidirlər ki, ailədə mənim gündəlik vəzifəm nədir, bu işi görməklə mən nə kimi fayda verirəm. Uşaq lap kiçik də olsa hər gün bir iş görməli, həmin işin icrası üçün məsuliyyət daşıdığını hiss etməlidir.

MÖVZU: 8-10.

Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsinin mahiyyəti, məzmunu və vəzifələri. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsinin metodları.

PLAN:

1. Təlimdə əyani metodlar
2. Şəkil və illüstrativ materialların nümayiş etdirilməsi
3. Uşaq bağçasında texniki vasitələrin tətbiqi
4. Təlimin praktik metodları
5. Təlimin şifahi metodu

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı,1964.
3. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
4. A.Həsənov. Uşaq bağçasında təlimin prinsip və metodları, Bakı, 1992.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

1. Uşaq bağçasında təlimin metodları məktəbəqədər yaşlı uşaqların bilik, bacarıq və vərdişlərinin müvəffəqiyyətlə həyata keçirilməsi və öyrənmə marağının inkişaf etdirilməsinə xidmət edir. Uşaq bağçasında təlimin metodları əyani, şifahi, praktik və oyun növlərinə bölünür. Uşaq bağçasında əyani metodlar geniş yer tutur. Əyani metoddan yeni biliyin öyrədilməsində daha çox istifadə olunur. Əyani metoda natural obyektlər (əşya və hadisələr), əyani vəsaitlər (şəkil, heyvan və quş

müqəvvaları, model nümunələri və s.) daxil olur. Texniki vasitələrin tətbiqi əyani təlimdə mühüm yer tutur.

Müşahidə ətraf mühitdəki cisim və hadisələri məqsədyönlü, planlı, qısa və uzunmüddətli qavrama prosesidir. Onun məqsədi cisim və hadisələri, sadəcə göstərmək deyil, ətraf mühitdə baş verən dəyişmələri uşaqlara müşahidə etdirməkdir. Uşaqlar yaşlıların əməyini, nəqliyyatın hərəkətini, heyvanların xarakteri və həyat tərzini, bitkilərin inkişafını müşahidə etməklə çox şey öyrənirlər. Tərbiyəçi uşaqları tədricən müşahidə etmək bacarığına və qabiliyyətinə yiyələndirir. Müşahidənin səmərəliliyini, onun öyrədici, inkişafetdirici və tərbiyəedici xarakterini təmin etmək üçün tərbiyəçi aşağıdakı tələblərə əməl etməlidir: 1. Müşahidəni keçirmək üçün uşaqların qarşısında aydın və konkret məqsəd qoyulmalı, məqsəd motivləşdirilməlidir. 2. Uşaqların yaş xüsusiyyətlərindən asılı olaraq müşahidə edilən obyektin məzmunu uşaqların əvvəlki təsəvvürləri ilə bağlı olmalıdır. 3. Keçirilən müşahidə uşaqların əqli fəallığına və müstəqilliyinə kömək etməlidir. 4. Müşahidə dəqiq və konkret sözlərlə müşayiət edilməli, obyekti düzgün qavramağa, uşaqda tam təsəvvür yaratmağa və söz ehtiyatının artmasına müsbət təsir göstərməlidir.

Əşyaların göstərilməsi daha çox yayılmış təlim ətrzlərindən biridir. Uşaqlar ətrafdakılara baxır, oyuncaqları, ev əşyalarını, əmək alətlərini, şəkil, yapma və quraşdırma vasitələrini müşahidə edir, bu zaman bilmədikləri bir çox əlamət və hadisələri öyrənirlər.

2. Şəkil və illüstrativ materialların nümayiş etdirilməsi metodundan ətraf mühitlə tanışlıqda və nitqin inkişaf etdirilməsində istifadə edilir.

Şəkildə müəyyən hadisələr təsvir oluna bilər.”Payız fəsli”, “Dənizdə dalğa”, “Ayı ağaca dırmaşıb, arıların topladığı balı yeyir” və s. Şəkil bütün uşaqlar görsün deyə böyük olmalı və daha əlverişli yerə qoyulmalıdır. Şəkillərin nümayiş etdirilməsi uşaqların əvvəlki bilik və təsəvvürlərini dəqiqləşdirir, onların yeni bilik və praktik vərdişlərə yiyələnməsini təmin edir, ətraf mühiti öyrənməyi asanlaşdırır, nitqin inkişafına və yeni sözlərin öyrənilməsinə kömək edir. Tərbiyəçi əvvəlcə uşaqların diqqətini şəklin əsas məzmununa yönəltməli, sonra onun hissələri haqqında söhbət keçirməlidir. O, əsas əlamətlər haqqında uşaqların fikrini öyrənməlidir. Şəkil uşaqların biliyini zənginləşdirir, görmədiklərini görməyə şərait yaradır və öyrəndiklərini şüurda möhkəmləndirir.

3. Təlim prosesində texniki vasitələrdən əyani vəsait kimi istifadə olunur. Təlim zamanı videofilmlər, maqnitofon yazıları, televerilişlər və kompüter texnikasından istifadə etməklə yüksək müvəffəqiyyətlərə nail olmaq olar.Texniki vasitələrdən istifadə təlim prosesini cəzbedici və maraqlı edir, uşaqları ətraf mühitlə tanış etmək üçün geniş imkan yaradır. Bu yolla tərbiyəçi otağa gətirilməsi mümkün olmayan şeyləri və hadisələri nümayiş etdirir. Məsələn, “Heyvanlar aləmində” verilişi, “Pambıq tarlası”, “Milli ordumuz” və s. kimi filmlərlə uşaqları tanış edir. Filmlər uşaqlarda maraq, yeni-yeni hisslər yaradır. Filmə baxarkən onlar

öyrənirlər ki, çörəyin hazırlanması çoxlu əmək tələb edir, buna görə də onun qədrini bilmək lazımdır.

Məşğələlərdə videofilmlərin nümayiş etdirilməsi 9-10 dəqiqədən artıq olmamalıdır. Filmlər bəzən tərbiyəçinin izahı ilə müşaiyət edilməlidir. Filmdən sonra şərait yaratmaq lazımdır ki, uşaqlar öz təəssüratlarını bölüşdürsünlər. Filmlər uşaqların biliklərinin möhkəmlənməsinə kömək edir, öyrəndiklərini ümumiləşdirməyə imkan verir, onların estetik tərbiyəsində mühüm rol oynayır. Filmlərin göstərilməsində aşağıdakı metodik tələblərə əməl edilməlidir: 1. Uşaqlarla ilkin söhbət. Bu uşaqların diqqətini göstəriləcək filmə cəlb edir. 2. Filmdən sonra fikir mübadiləsi yaratmaq üçün müsahibə keçirmək. Belə müsahibə uşaqlara qaranlıq qalanları aydınlaşdırır və biliyi ümumiləşdirməyə kömək edir.

4. Uşaq bağçasında təlimin praktik metodlarına çalışmalar, oyun metodu, elementar təcrübə və modelləşdirmə daxildir. Çalışmalar uşaqlara verilmiş tapşırıqları praktik cəhətdən tətbiq etməklə dönə-dönə təkrarıdır. Çalışmalar zamanı uşaqlar zehni fəaliyyətin müxtəlif formalarına yiyələnir, onlarda praktik vərdişlər formalaşır, bilik daha da möhkəmlənir. Bir qayda olaraq uşaqların hamısı tapşırığı icra edir. Nəticə isə tərbiyəçi və uşaqların özü tərəfindən yoxlanılır. Bacarıq və vərdişlərə yiyələnmə uzunmüddətli prosesdir. O çoxlu müxtəlif tərzli təkrar tələb edir.

Tərbiyəçi elə tapşırıqlar müəyyənləşdirə bilər ki, onların icrası prosesində uşaqlarda müstəqillik və fəallıq daha da inkişaf etsin. Uşaq bağçasında təqlidi-icraçılıq, konstruktiv və yaradıcı tapşırıqlardan çox istifadə olunur. Təqlidi-icraçılıq təmrinlərində, adətən, uşaqlar verilmiş nümunə əsasında işi ardıcıl görməklə müəyyən bacarıq və vərdişlərə yiyələnirlər. Konstruktiv təmrinlər əvvəlkilərə nisbətən daha mürəkkəb olur, uşaqların yiyələndikləri bacarıq və vərdişlərin dərinləşməsinə kömək edir. Yaradıcı xarakterli təmrinlərdə uşaqlar yiyələndikləri bilik, bacarıq və vərdişləri yeni şəraitdə tətbiq edir, fəaliyyətin yeni növü üzərində işləyirlər.

Oyun metodunun başlıca məqsədi uşaqlarda təsəvvür yaratmaqdır. Məsələn, uşaqların nitqini inkişaf etdirmək üçün oyuncaq mağazasına aid oyun keçirmək faydalıdır. Uşaqlar satıcı və alıcı rolunda bir-birilə münasibətdə olurlar. Çox vaxt uşaqlar oyun zamanı müəyyən oyuncaq və oyun materialına uyğun hərəkət edirlər. Oyun metodunun tətbiqində tərbiyəçi proqram üzrə təlimin məqsədini, oyun və praktik fəaliyyətin xarakterini müəyyən edir və tapşırığın icrası üçün nümunə göstərir. Tərbiyəçi uşaqlar tərəfindən buraxılan səhvləri aydınlaşdırır. Oyun metodu bütün yaş dövrü üçün əlverişli olmaqla uşaq bağçasında təlimin səmərəli keçməsinə imkan yaradır.

Oyun metodlarından biri didaktik oyunlardır. Bu oyun zamanı uşaqlar oyunun qaydası ilə tanış olur və onun həyata keçirilməsində əlavə məlumata yer verilmir. Oyun zamanı bilik tətbiq olunur və onun təkmillişməsi təmin edilir. Didaktik oyunlar biliyin möhkəmləndirilməsinə kömək edir, onu sistemə salır və inkişaf etdirir.

Uşaq bağçasında elementar təcrübə metodunun da özünəməxsus rolu var. Bu metod əsasən orta yaş qrupundan başlayaraq həyata keçirilir. Elementar təcrübə cisim və hadisələrin daxilindəki qapalı əlamətləri, onların arasındakı əlaqələrin dəyişilmə səbəblərini öyrənmək üçün tətbiq olunur. Məsələn, bitkilərin həyatında işığın rolunu öyrənmək üçün uşaqlar təcrübəyə cəlb edilirlər. Bir bitki daha işıqlı yerə, ikinci nisbətən zəif işıqlı, üçüncü isə qaranlıq yerə qoyulur. Uşaqlar həmin bitkilərin üzərində müşahidə aparırlar və ya əşyaların suda batıb-batmamasını yoxlamaq üçün müxtəlif əşyalar üzərində təcrübə aparırlar. Təcrübənin iikinci mərhələsi həyata keçirilmiş işin təhlili ilə əlaqədar olur, uşaqlar məlumla naməlumları müəyyənləşdirir. Təcrübənin sonuncu mərhələsi alınmış nəticənin təhlili ilə bağlı olur. Bu zaman uşaqlar təcrübənin gedişini əvvəldən sona kimi yaddaşlarında canlandırırlar. Bu metod uşaqlarda təfəkkür fəaliyyətini, müqayisə etmək, qarşı-qarşıya qoymaq, nəticə çıxarmaq bacarığını inkişaf etdirir.

Modelləşdirmə müəyyən modelin uşaqlar tərəfindən düzəldilməsi, bu prosesdə əşyanın keyfiyyəti, quruluşu, digər obyektlərlə əlaqəsi haqqında biliyə yiyələnmək deməkdir. Bu metodun üstün cəhəti odur ki, uşaqlar əyani olaraq cisim və hadisələrin əlamətini qavrayır, hafizələrini faktik biliklərlə zənginləşdirirlər. Modelləşdirmə əyani-praktik metod kimi bir sıra tələblərə cavab verməlidir: 1. Model düzəldilən əşyanı olduğu kimi əks etdirməlidir, öyrənilən obyektin aparıcı əvəzi olmalıdır. 2. Qavrama üçün yararlı, eləcə də onun düzəldilməsi uşaqların anlaq səviyyəsinə uyğun olmalıdır. 3. Uşaqlara mühüm keyfiyyətləri elə aydın və dəqiq çatdırmaq lazımdır ki, onların köməyi ilə cisim və hadisələr başa düşülsün. 4. Öyrənilən mürəkkəb sahələri nisbətən asanlaşdırmaq lazımdır.

Didaktikada üç növ model müəyyənləşdirilmişdir:

I.Fiziki konstruksiyadan ibarət predmet modeli (predmeti hissələrə ayırmaq)

II.Predmet-sxematik model (əlavə hissələr və sxemlərdən istifadə olunur)

III.Qrafik model (I uşaqlar modeli tanımalı, sonra onun hissələrini öyrənməli, sonra quraşdırma işi ilə məşğul olunmalıdırlar)

5. Təlimin şifahi metodu uşaqların ətraf aləmi öyrənməsində, biliyi ümumiləşdirməsində və sistemə salmasında mühüm rol oynayır. Şifahi metodun növləri bunlardır: tərbiyəçinin nəqli, tərbiyəçinin bədii əsər oxuması, müsahibə və s.

Tərbiyəçinin nəqlində başlıca məqsəd hər hansı bir əşya və hadisə haqqında uşaqlarda aydın və dəqiq təsəvvür yaratmaqdır. Nağılda qəhrəmanın dili ilə danışmaq uşaqların diqqətini daha çox cəlb edir və onlarda dərin maraq hissi oyadır. Nəqletmə uşaqların ağlına, hiss və təsəvvürlərinə güclü təsir edir. Tərbiyəçinin nitqi ifadəli, təsirli və emosional olmalıdır. Yeri gəldikdə o, əyaniləşdirmədən istifadə etməklə söhbəti əşyanın özü, şəkli, modeli üzərində qurmalıdır.

Uşaqların nəqletməsi başlıca metodlardan biri kimi onların biliyini təkmilləşdirir, düşünmə və danışıq bacarığını gücləndirir. Uşağın nağılı öz yaşıdlarına danışmasının da böyük əhəmiyyəti var. Bu, uşaqlarda nəqletmə texnikasına yiyələnmək, aydın və maraqlı danışmaq həvəsi yaradır. Uşaqların yaş və anlaq səviyyəsinə uyğun qurulan nağıletmə metodu bütün qruplarda tətbiq edilir.

Uşaqlara bədii ədəbiyyatın oxunması ətraf mühit haqqındakı biliyi zənginləşdirir və genişləndirir. Onlarda bədii ədəbiyyatı başa düşmək və onun tərbiyəvi mahiyyətini duymaq qabiliyyəti formalaşdırır. Onlarda əsərin qəhrəmanının hərəkətlərini duymaq, müsbət cəhətlərindən sevinmək, uğursuzluqlara kədərlənmək və s. kimi hisslər oyadır. Bunun üçün şəkillərdən istifadə etmək, əsər haqqında nəqletmə bacarığı, oyun metodu (səhnələşdirilmiş oyun), söhbət və s. metodlardan istifadə edilməlidir.Oxudan sonra müsahibə təşkil edilir. Müsahibənin məqsədi əsərin məzmununu daha aydın başa salmaq, uşaqlarda estetik təəssüratı dərinləşdirməkdən ibarətdir.

Müsahibə əsasən yuxarı qruplarda keçirilir. Müsahibə biliyi dürüstləşdirmək, ümumiləşdirib sistemə salmaq məqsədi ilə keçirilir. Müsahibə zamanı uşaqlar nəinki sualı dinləməyi bacarmalı, həm də müsahibənin gedişində fəal iştirak etməlidirlər.

Müsahibə didaktik məzmununa görə iki yerə bölünür:

1) İlkin müsahibə; 2) Yekun və ya ümumiləşdirici müsahibə

İlkin müsahibədə tərbiyəçi cisim və hadisələri uşaqlara ilk dəfə öyrədir. İlkin müsahibə ilə uşaqların əvvəlki bilikləri aşkar edilir. Bu zaman uşaqların nəyi bilmələri aydınlaşdırılmalı, eyni zamanda hansı yeni biliklərə sahib olacaqları qabaqcadan onlara catdırılmalıdır. Bu müsahibə qısa, çox da çətin olmayan məzmunda orta qrupda keçirilir. Yekun və ya ümumiləşdirici müsahibə biliyi sistemə salmaq, onu daha da dərinləşdirmək və ya aydın başa salmaq üçün keçirilir. Belə müsahibənin keçirilməsində əyani vəsaitdən geniş istifadə olunur. Müsahibədə mürəkkəb əqli fəaliyyət tələb olunur. Müsahibə mövzunun məzmununu başa düşmək, müsahibəni dinləmək, fikri təhlil etmək bacarığı tələb edir. Yekun müsahibə uşaqların yaş və anlaq səviyyəsinə uyğunlaşdırılmaqla böyük qrupda keçirilir.

Təlimin gedişində tərbiyəçi təlimin şifahi tərzlərindən (priyomlarından) də istifadə edir. Tərz bu və ya digər metodun elementinə, hissəsinə deyilir. Belə tərzlərdən aşağıdakıları göstərmək olar: nümayiş etdirmə (göstərmə), izahetmə, aydınlaşdırma, pedaqoji qiymətləndirmə və s.

Aydınlaşdırma və izah təlimin tərzi kimi hadisələri müşahidə edərkən, əşyalara, şəkillərə baxarkən, tapşırıq və çalışma üzərində iş zamanı, təcrübə keçirərkən, bu və ya digər metoddan istifadə edərkən tətbiq olunur. Bəzən izah zamanı tərbiyəçi

yeni-yeni fakt və əlavə materiallardan da istifadə edir. İzahın belə növlərindən biri göstərişdir. Göstəriş mövzunu uşaqların aydın dərk etməsinə kömək edir.

İzah və aydınlaşdırmadan əşyaların göstərilməsində geniş istifadə olunur. Əyani vəsaitin nümayiş etdirilməsində, hərəkətlərin göstərilməsində, əşyaların daxili mədəniyyətini açmaq və uşaqlara öyrətməkdə təlimin bu tərzləri geniş istifadə olunur. Ayrı-ayrı hallarda göstərmədən təlim tapşırığının icrası zamanı istifadə olunur.

Pedaqoji qiymətləndirmə təlimin mühüm priyomlarından biridir. Qiymətləndirmədən məşğələnin yekununda istifadə olunur. Qiymətləndirmə fərdi və kollektiv formada həyata keçirilir. Uşağın bacarıq və vərdişlərinin səviyyəsini uşağa çatdırmaq üçün onun fəaliyyətini qiymətləndirmək çox faydalıdır. Bu zaman uşaqmüsbət cəhətini və nöqsanını bilir, müsbət fəaliyyətini inkişaf etdirir, qüsurlarını isə aradan qaldırır.

MÖVZU: 9. Məktəbəqədər yaşlı uşaqların sensor tərbiyəsi.

PLAN:

1. Təlimdə ideyalılıq prinsipi və alınmış bilik, bacarıqların həyatla, əməklə əlaqələndirilməsi prinsipi.

2. Təlimdə elmilik və müvafiqlik prinsipi.
3. Təlimin inkişafetdirici və tərbiyəedici prinsipi.
4. Təlimdə əyanilik və sistematiklik prinsipi.
5. Təlimdə fərdi yanaşma və şüurlülüq və fəallıq prinsipi.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı,1964.
3. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

4. A.Həsənov. Uşaq bağçasında təlimin prinsip və metodları, Bakı-1995.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika- Bakı-1996.

1. Uşaq bağçasında təlimin ümumi didaktik prinsipləri aşağıdakılardır: 1.Təlimdə ideyalılıq prinsipi;

2. İnkişafetdirici təlim prinsipi;

3. Alınmış bilik və bacarıqların həyatla, əməklə əlaqələndirilməsi prinsipi;

4. Təlimdə elmilik prinsipi;

5.Təlimin tərbiyəedici prinsipi;

6. Təlimdə müvafiqlik prinsipi;

7. Təlimdə sistematiklik prinsipi;

8. Təlimdə şüurluluq və fəallıq prinsipi;

9. Təlimdə əyanilik prinsipi;

10. Təlimdə fərdi yanaşma prinsipi.

Məktəbəqədər yaşlı uşaqlara ideyalılıq adı altında mürəkkəb hadisələri görməyə səy etmək zərərlidir. Uşaqlar ictimai həyatla tanışlıq prosesində bəzi mühüm məsələləri sadə və anlaşıqlı dildə nəqletmə prosesində başa düşürlər. Əqli tərbiyənin əsas vəzifəsi uşaqları ideyalılıq ruhunda tərbiyələndirməkdir. Uşaqlar ətraf aləm, təbiət, adamların əməyi, bir sıra tarixi ictimai hadisələr, əşyaların nəyə lazım olması haqqında sadə biliklərə əqli təhsil vasitəsilə yiyələnirlər. Uşaqlar məşğələlərdə ictimai həyatla və əmək adamları ilə tanışlıq prosesində Vətənə, öz xalqına məhəbbət, başqa xalqlara rəğbət və hörmət ruhunda tərbiyə olunurlar. Tərbiyəçi məşğələlər zamanı yeri gəldikcə uşaqlara yaş və anlaq səviyyələrinə uyğun erməni millətçilərinin törətdikləri ağır cinayətlər, onların ədalətsiz torpaq təmənnaları, Azərbaycanın bu günü və gələcəyi haqqında sadə məlumatlar da verməlidirlər.

Biliyin əməklə, həyatla əlaqələndirilməsi bir tərəfdə uşaqlarda əməyə, əmək adamlarına rəğbət hissi yaradır, onlarda əmək məhsullarının qədir-qiymətini bilmək, ondan qənaətlə istifadə etmək bacarığı formalaşdırır, digər tərəfdən onların biliyinin artmasına kömək edir. Biliyin həyatla əlaqələndirilməsi məktəbəqədər yaşlı uşaqlarda öyrənmə marağı və bacarığına müsbət təsir göstərir ki, bununla onlar ictimai həyatda baş verən hadisələrlə daha yaxından tanış olurlar. Biz uşaqları biliklərlə silahlandırmaqla yanaşı onlara ətraf mühiti öyrənmək üçün hazır olmağı öyrətməliyik. Bununla yanaşı, məktəbəqədər yaşlı uşaqlar əmək adamlarının fəaliyyətində gördüklərini öz əməli fəaliyyətlərində tətbiq etmək kimi mühüm bacarığa yiyələnməlidirlər. Verilən biliklərin əməklə, həyatla əlaqələndirilməsi uşaqları məktəb həyatına həzırlayır.

2. Elmilik prinsipi tələb edir ki, elmin son nailiyyətləri məktəbəqədər yaşlı uşaqların yaşına və anlaq səviyyəsinə uyğun şəkildə maraqlı faktlar əsasında şərh edilsin. Yeni-yeni əmək növləri, onların insan həyatında roluna dair tərbiyəçinin maraqlı və inandırıcı söhbəti uşaqları daha çox cəlb edir. Xüsusilə təbiət, canlı aləm, heyvanların və bitkilərin yaşayış tərzinə aid elmi məlumatlar nağılvari söhbətlərlə uşaqlara çatdırıldıqda onlar belə söhbətləri uzun müddət yadda saxlayırlar. Çaylarda suyun daşması səbəbləri, göy gurultusu, yayda istilərin artması və s. hadisələr məktəbəqədər yaşlı uşaqları daha çox maraqlandırır. Təbiətin eyni hadisələrini ildən-ilə müşahidə etdikcə uşaqlar onları daha yaxşı dərk edirlər. Kiçik qrup uşaqları havanın dəyişməsini, göyə qara bulud gəlməsi ilə yağışın yağmasını müşahidə edir, orta və böyük qruplarda uşaqlar ilin hansı fəsli olduğunu bilir, hər fəslin əlamətinə aid müəyyən təsəvvürlərə yiyələnirlər. Təbiəti müşahidə edərkən uşaq çox hadisələr üzərində fikirləşir və müəyyən nəticələrə gəlir. Belə sadə elmi məlumatlarla uşaqlar ilkin təsəvvürlərə yiyələnirlər.

Müvafiqlik əsasən təlimin məzmununda və təlim metodlarının seçilməsində öz ifadəsini tapır. Bu prinsip təlim prosesində uşağın bilik, yaş və anlaq səviyyəsindən asılı olaraq verilən tapşırıqların öhdəsindən gələ bilməsini nəzərə almaq, təlimi uşağın inkişaf səviyyəsinə uyğunlaşdırmağı tələb edir. Qeyd etmək lazımdır ki, həmişə yaş səviyyəsi ilə anlaq səviyyəsi uyğun gəlmir. Belə ki, eyni yaşlı uşaqlar bəzən müxtəlif duymaq, qavramaq, anlamaq səviyyəsinə malik ola bilirlər. Buna görə müvafiqlik prinsipi uşağın bilik dərəcəsini, gücünü, eləcə də yaş və anlaq səviyyəsini ciddi nəzərə almağı tələb edir. Əgər uşaq bağçasında tərbiyəçi bu prinsipə riayət etməzsə, onun verdiyi bilik başa düşülməz və əməyi hədər gedər. Təlimin məzmunu tədris planları, proqram, dərslik və xüsusən uşaq bağçası üçün yazılmış metodik vəsaitlərdə əks olunur. Bu sənədlərin hazırlanmasında da müvafiqlik prinsipi özünü qabarıq göstərir.

Təlimin müvafiqlik prinsipi 4 mühüm didaktik qaydada ifadə olunur:

1) məlimdan-məchula;

2) asandan-çətinə;

3) sadədən-mürəkkəbə;

) ümumidən-xüsusiyə.

3. Təlim qarşısında duran vəzifənin müvəffəqiyyətlə həll edilməsi üçün birinci növbədə o inkişafetdirici olamlıdır. İnkişafetdirmə uşağın ümumi intellekt səviyyəsinin formalaşması ilə bağlıdır. Yəni təlim prosesi uşağın nitqinə, fikri izahetmə qabiliyyətinə, qavrama imkanına, təxəyyülünə, təfəkkür fəaliyyətinə və sərbəst inkişafına kömək göstərməlidir. Bu prinsipin başlıca mahiyyəti ondan ibarətdir ki, təlim ancaq əldə edilmiş müvəffəqiyyətlər səviyyəsində qala bilməz. O daim inkişaf etməlidir ki, uşaq yeni materialı öyrənə bilmək üçün qüvvə sərf edə bilsin. İnkişafetdirici təlim prinsipi tələb edir ki, uşaq yaş və anlaq səviyyəsinə uyğun olaraq əvvəlki bilik, bacarıq və vərdişləri əsasında düşünüb sadə də olsa plastilindən fiqurlar düzəltsin. Rəsm məşğələlərində əvvəlki bilik və bacarığından istifadə edib gördüyü şeyləri təsəvvüründə canlandırıb kağız üzərində çəkə bilsin,"yarada" bilsin və s.

Təlimin tərbiyəedici xarakteri pedaqoji qanunauyğunluqdur. Təlim uşaqları yalnız biliklərlə silahlandırmır, həm də onların mənəvi dünyasına, əqidəsinə, əməksevərliyinə, estetik baxışlarına və fiziki kamilliyinə müsbət təsir göstərir. Təlim və tərbiyə bir-birindən ayrılmaz prosesdir. Tərbiyəçi məşğələnin məzmununu müəyyən edərkən onun tərbiyəvi mahiyyətini də aydınlaşdırmalıdır. Uşaq bağçasında təlimin başlıca məqsədlərindən biri uşaqları ictimai mühitlə tanış etməkdir. Bu zaman tədiət, ictimai mühit, ictimai həyatda adamların gördüyü işlər uşaqların diqqətini daha çox cəlb edir. Təbiətlə tanışlıq zamanı Vətən torpağının bir parçasını müşahidə etməklə Vətən haqqında şüurun formalaşmasına böyük təsir göstərir. Uşaqların əmək adamları ilə tanışlığı onların əməksevərlik tərbiyəsində mühüm rol oynayır. Məşğələlərdə əməklə tanışlıq, əmək adamları ilə ünsiyyət, Vətənə, xalqa məhəbbət, başqa xalqlara hörmət tərbiyəsinə kömək edir. Uşaqlar öyrənirlər ki, onların valideynləri işlədiyi yerlərdə öhdələrinə düşən işi yüksək məsuliyyətlə yerinə yetirirlər. Buradan aydın olur ki, uşaq bağçasında keçirilən hər bir məşğələ uşaqlara müəyyən bilik, bacarıq və vərdişlər verməklə yanaşı, həm də onların mənəvi aləminə güclü təsir göstərir.

4. Əyanilik prinsipi təlimi mücərrəd sözlər üzərində deyil, uşaq tərəfindən bilavasitə qavranılan konkret əşyalar və hadisələr üzərində qurmağa deyilir. Y.A.Komenski əyaniliyi təlim üçün "qızıl qayda" adlandırırdı. K.D.Uşinski də əyaniliyə yüksək qiymət verərək deyirdi: Siz uşağa sadə bir fikri izah edirsiniz, o sizi anlamır, həmin uşağa mürəkkəb bir şəkli izah edin, o sizi çox tez anlayar. Əyanilik biliyin asan, möhkəm və tez mənimsənilməsinə kömək edir.Əyaniliyin tətbiqi biliklərin hafizədə uzun müddət yaşamasına kömək edir. Məktəbəqədər yaşlı uşaqlara təlim prosesində əşyaların özünü, canlı guşədəki heyvanları, quşları və bitkiləri, onların şəkillərini göstərmək olar. Məşğələlər zamanı texniki vasitələrin tətbiqi, sxem və modeldən istifadə etmək çox faydalı olur. Tərbiyəçinin məşğələ zamanı əyani vasitələrdən zəruri halda, yerində və bacarıqla istifadə etməsi onun pedaqoji məharətini göstərir.

Sistematiklik prinsipi elmilik prinsipi ilə sıx əlaqədardır. Sistematikliyə əməl etmədən elmi anlayışları uşaqlara mənimsətmək mümkün deyildir. Belə ki, hər bir elm özü müvafiq sistemlə qurulmuş biliklərdən ibarətdir. Hər elmin özünün sistemi var və təlim məşğələsi də həmin sistem əsasında qurulur. Bu prinsip proqramların və dərsliklərin tələbində özünü göstərdiyi kim, tərbiyəçinin də təlim işində öz əksini tapır. Bu prinsipə görə bilik uşaqlara elə məntiqi ardıcıllıq və sistemlə verilməlidir ki, əvvəlki bilik sonrakı üçün zəncirvari əlaqə rolu oynasın, onun asan və möhkəm mənimsənilməsinə kömək etsin. Uşaq bağçası tərbiyəçisinin şərhində də sistematiklik prinsipinə əməl olunmalıdır. O, bilik, bacarıq və vərdişləri uşaqlara hansı ardıcıllıqla verəcəyini qabaqcadan planlaşdırmalıdır. Sistematiklik tək tərbiyəçinin təlim işinə aid deyil, o həm də uşağın şüurunda biliklərin, vərdiş və bacarıqların sistemli olmasını tələb edir. Uşinski şüurda sistemsiz, əlaqəsiz biliklər yığımını səciyyələndirərək yazırdı: "Pərakəndə, əlaqəsiz biliklərlə dolu olan baş, hər şeyi qaydasız şəkildə tökülmüş anbara oxşayır ki, burada anbar sahibinin özü də heç bir şey tapa bilmir".

Uşaq bağçası tərbiyəçisinin şərhində də sistematiklik prinsipinə əməl olunmalıdır.

5. Məktəbəqədər qrupda 20-25 nəfər uşağın hər biri özünəməxsus fərdi xüsusiyyətlərə malik olur. Onlardan biri görüb-eşitdiklərini tez qavrayır, tez də unudur, digəri isə gec qavrayır, lakin öyrəndiyini uzun müddət yadında saxlayır. Birinin görmə, digərinin eşitmə hafizəsi güclü olur. Biri diqqətini bir işin üzərində xeyli saxlaya bilir, digəri bunu edə bilmir. Tərbiyəçi uşaqların bu xüsusiyyətlərini nəzərə almasa, məşğələni lazımi səviyyədə qura bilməz. O, hər bir uşağın qüvvətli və zəif cəhətlərini vaxtında öyrənməli, qüvvətli cəhətlərini inkişaf etdirməli və onlara istinad edib nöqsanları aradan qaldırmalıdır. Beləliklə, fərdi yanaşma həm qüvvətli, həm zəif, həm də orta səviyyəli uşaqlara tətbiq edilməlidir.

Bilik o zaman möhkəm olur ki, o şüurlu şəkildə mənimsənilsin, başa düşülsün. Şüurluluq və fəallıq olan yerdə fəaliyyət məhsuldar və hərtərfli olur. Biliyi şüurlu mənimsəməyinbir çox şərtləri vardır ki, bunlar məktəbəqədər yaşlı uşaqların təlim prosesində də özünü göstərir. Bunlardan biri uşaqların biliyi sübutlarla izah edə bilməsidir. Bu, tərbiyəçinin uşaqlara biliyi sübut və dəlillərlə öyrətməsindən, onları aydın izah edib başa salmasından çox asılıdır. Şüurlu biliyin mühüm əlamətlərindən biri də onu tətbiq edə bilməkdir. Bağçada uşaq öyrəndiyi qayda və qanunları tətbiq edə bilirsə, demək onun biliyi şüurludur. Odur ki, bağçada uşaqların öyrəndiklərini tətbiq etməsi tərbiyəçinin diqqət mərkəzində durmalıdır. Biliyin şüurlu mənimsənilməsinin bir əlaməti də uşağın öz biliyini yoxlaya bilməsidir. Uşaq gördüyü işin nəticəsini yoxlayıb qüsurlarını düzəldirsə, çəkdiyi rəsmi əsli ilə müqayisə edib müsbət və nöqsanlı cəhətlərini görürsə, bu da uşağın öyrəndiklərinin şüurluluğuna və fəallığın olmasına kömək edir.

Bağçada böyük yaş qruplarında fəallıq və müstəqillik yaratmaq üçün problemli təlim mühüm əhəmiyyət kəsb edir. Problemli təlim axtarıcılıq fəaliyyəti ilə bağlı olur. Tərbiyəçi uşaqlarla müsahibə keçirməklə, onlara tapşırıqlar verməklə,

qoyulan problemi uşaqlarla birlikdə həll etməklə, uşaqların aldıqları bilikləri təcrübədə tətbiq etmək şəraiti yaratmaqla onları fəallaşdırmalıdır.

MÖVZU: 11-12 Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsinin məqsədi, məzmunu, vəzifələri.

Məktəbəqədər yaş dövründə uşaqların vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi.

PLAN:

1. Təlimdə əyani metodlar
2. Şəkil və illüstrativ materialların nümayiş etdirilməsi
3. Uşaq bağçasında texniki vasitələrin tətbiqi
4. Təlimin praktik metodları
5. Təlimin şifahi metodu

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. Məktəbəqədər pedaqogika.“Maarif”, Bakı,1964.
3. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
4. A.Həsənov. Uşaq bağçasında təlimin prinsip və metodları, Bakı, 1992.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

1. Təlim prosesində tərbiyəçi müxtəlif metodlardan istifadə edir. Uşaq bağçasında təlimin metodları məktəbəqədər yaşlı uşaqların bilik,bacarıq və vərdişlərinin mücvəfəqiyyətlə həyata keçirilməsi və öyrənmə marağının inkişaf etdirilməsinə xidmət edir. Tərbiyəçi təlim prosesində istifadə edəcəyi metodları və tərzləri qabaqcadan müəyyən edir və bunların vasitəsilə təlimin səviyyəsini yüksəldir. Məsələn,payız fəslinə dair müsahibə metodundan istifadə edərkən,onu müxtəlif materiallarla daha da zənginləşdirir:uşaqlarla günəşin yerdən uzaqlaşması nəticəsində ağacların yarpağının saralıb tökülməsi,tarlalarda,bağ və bostanlarda məhsulun yığılması, adamların qışa hazırlanması,köçəri quşların uçub isti ölkələrə getməsi haqqında müsahibə təşkiledilir. Tərbiyəçi müsahibə materialı əsasında " Payızda təbiət" mövzusunda rəsm işi təşkil edir,uşaqlara payız fəslinə aid şer öyrədilir.
   Uşaq bağçasında təlim metodları əyani,şifahi,praktik və oyun növlərinə bölünür.
2. Uşaq bağçasında təlimin metodları məktəbəqədər yaşlı uşaqların bilik, bacarıq və vərdişlərinin müvəffəqiyyətlə həyata keçirilməsi və öyrənmə marağının inkişaf etdirilməsinə xidmət edir. Uşaq bağçasında təlimin metodları əyani, şifahi, praktik və oyun növlərinə bölünür. Uşaq bağçasında əyani metodlar geniş yer tutur. Əyani metoddan yeni biliyin öyrədilməsində daha çox istifadə olunur. Əyani metoda natural obyektlər (əşya və hadisələr), əyani vəsaitlər (şəkil, heyvan və quş müqəvvaları, model nümunələri və s.) daxil olur. Texniki vasitələrin tətbiqi əyani təlimdə mühüm yer tutur.

Müşahidə ətraf mühitdəki cisim və hadisələri məqsədyönlü, planlı, qısa və uzunmüddətli qavrama prosesidir. Onun məqsədi cisim və hadisələri, sadəcə göstərmək deyil, ətraf mühitdə baş verən dəyişmələri uşaqlara müşahidə etdirməkdir. Uşaqlar yaşlıların əməyini, nəqliyyatın hərəkətini, heyvanların xarakteri və həyat tərzini, bitkilərin inkişafını müşahidə etməklə çox şey öyrənirlər. Tərbiyəçi uşaqları tədricən müşahidə etmək bacarığına və qabiliyyətinə yiyələndirir. Müşahidənin səmərəliliyini, onun öyrədici, inkişafetdirici və tərbiyəedici xarakterini təmin etmək üçün tərbiyəçi aşağıdakı tələblərə əməl etməlidir:

1. Müşahidəni keçirmək üçün uşaqların qarşısında aydın və konkret məqsəd qoyulmalı, məqsəd motivləşdirilməlidir.

2. Uşaqların yaş xüsusiyyətlərindən asılı olaraq müşahidə edilən obyektin məzmunu uşaqların əvvəlki təsəvvürləri ilə bağlı olmalıdır.

3. Keçirilən müşahidə uşaqların əqli fəallığına və müstəqilliyinə kömək etməlidir.
4. Müşahidə dəqiq və konkret sözlərlə müşayiət edilməli, obyekti düzgün qavramağa, uşaqda tam təsəvvür yaratmağa və söz ehtiyatının artmasına müsbət təsir göstərməlidir.

Əşyaların göstərilməsi daha çox yayılmış təlim ətrzlərindən biridir. Uşaqlar ətrafdakılara baxır, oyuncaqları, ev əşyalarını, əmək alətlərini, şəkil, yapma və quraşdırma vasitələrini müşahidə edir, bu zaman bilmədikləri bir çox əlamət və hadisələri öyrənirlər.

2. Şəkil və illüstrativ materialların nümayiş etdirilməsi metodundan ətraf mühitlə tanışlıqda və nitqin inkişaf etdirilməsində istifadə edilir.

Şəkildə müəyyən hadisələr təsvir oluna bilər.”Payız fəsli”, “Dənizdə dalğa”, “Ayı ağaca dırmaşıb, arıların topladığı balı yeyir” və s. Şəkil bütün uşaqlar görsün deyə böyük olmalı və daha əlverişli yerə qoyulmalıdır. Şəkillərin nümayiş etdirilməsi uşaqların əvvəlki bilik və təsəvvürlərini dəqiqləşdirir, onların yeni bilik və praktik vərdişlərə yiyələnməsini təmin edir, ətraf mühiti öyrənməyi asanlaşdırır, nitqin inkişafına və yeni sözlərin öyrənilməsinə kömək edir. Tərbiyəçi əvvəlcə uşaqların diqqətini şəklin əsas məzmununa yönəltməli, sonra onun hissələri haqqında söhbət keçirməlidir. O, əsas əlamətlər haqqında uşaqların fikrini öyrənməlidir. Şəkil uşaqların biliyini zənginləşdirir, görmədiklərini görməyə şərait yaradır və öyrəndiklərini şüurda möhkəmləndirir.

3. Təlim prosesində texniki vasitələrdən əyani vəsait kimi istifadə olunur. Təlim zamanı videofilmlər, maqnitofon yazıları, televerilişlər və kompüter texnikasından istifadə etməklə yüksək müvəffəqiyyətlərə nail olmaq olar.Texniki vasitələrdən istifadə təlim prosesini cəzbedici və maraqlı edir, uşaqları ətraf mühitlə tanış etmək üçün geniş imkan yaradır. Bu yolla tərbiyəçi otağa gətirilməsi mümkün olmayan şeyləri və hadisələri nümayiş etdirir. Məsələn, “Heyvanlar aləmində” verilişi, “Pambıq tarlası”, “Milli ordumuz” və s. kimi filmlərlə uşaqları tanış edir. Filmlər uşaqlarda maraq, yeni-yeni hisslər yaradır. Filmə baxarkən onlar öyrənirlər ki, çörəyin hazırlanması çoxlu əmək tələb edir, buna görə də onun qədrini bilmək lazımdır.

Məşğələlərdə videofilmlərin nümayiş etdirilməsi 9-10 dəqiqədən artıq olmamalıdır. Filmlər bəzən tərbiyəçinin izahı ilə müşaiyət edilməlidir. Filmdən sonra şərait yaratmaq lazımdır ki, uşaqlar öz təəssüratlarını bölüşdürsünlər. Filmlər uşaqların biliklərinin möhkəmlənməsinə kömək edir, öyrəndiklərini ümumiləşdirməyə imkan verir, onların estetik tərbiyəsində mühüm rol oynayır. Filmlərin göstərilməsində aşağıdakı metodik tələblərə əməl edilməlidir:

1. Uşaqlarla ilkin söhbət. Bu uşaqların diqqətini göstəriləcək filmə cəlb edir.

2. Filmdən sonra fikir mübadiləsi yaratmaq üçün müsahibə keçirmək. Belə müsahibə uşaqlara qaranlıq qalanları aydınlaşdırır və biliyi ümumiləşdirməyə kömək edir.

4. Uşaq bağçasında təlimin praktik metodlarına çalışmalar, oyun metodu, elementar təcrübə və modelləşdirmə daxildir. Çalışmalar uşaqlara verilmiş tapşırıqları praktik cəhətdən tətbiq etməklə dönə-dönə təkrarıdır. Çalışmalar zamanı uşaqlar zehni fəaliyyətin müxtəlif formalarına yiyələnir, onlarda praktik vərdişlər formalaşır, bilik daha da möhkəmlənir. Bir qayda olaraq uşaqların hamısı tapşırığı icra edir. Nəticə isə tərbiyəçi və uşaqların özü tərəfindən yoxlanılır. Bacarıq və vərdişlərə yiyələnmə uzunmüddətli prosesdir. O çoxlu müxtəlif tərzli təkrar tələb edir.

Tərbiyəçi elə tapşırıqlar müəyyənləşdirə bilər ki, onların icrası prosesində uşaqlarda müstəqillik və fəallıq daha da inkişaf etsin. Uşaq bağçasında təqlidi-icraçılıq, konstruktiv və yaradıcı tapşırıqlardan çox istifadə olunur. Təqlidi-icraçılıq təmrinlərində, adətən, uşaqlar verilmiş nümunə əsasında işi ardıcıl görməklə müəyyən bacarıq və vərdişlərə yiyələnirlər. Konstruktiv təmrinlər əvvəlkilərə nisbətən daha mürəkkəb olur, uşaqların yiyələndikləri bacarıq və vərdişlərin dərinləşməsinə kömək edir. Yaradıcı xarakterli təmrinlərdə uşaqlar yiyələndikləri bilik, bacarıq və vərdişləri yeni şəraitdə tətbiq edir, fəaliyyətin yeni növü üzərində işləyirlər.

Oyun metodunun başlıca məqsədi uşaqlarda təsəvvür yaratmaqdır. Məsələn, uşaqların nitqini inkişaf etdirmək üçün oyuncaq mağazasına aid oyun keçirmək faydalıdır. Uşaqlar satıcı və alıcı rolunda bir-birilə münasibətdə olurlar. Çox vaxt uşaqlar oyun zamanı müəyyən oyuncaq və oyun materialına uyğun hərəkət edirlər. Oyun metodunun tətbiqində tərbiyəçi proqram üzrə təlimin məqsədini, oyun və praktik fəaliyyətin xarakterini müəyyən edir və tapşırığın icrası üçün nümunə göstərir. Tərbiyəçi uşaqlar tərəfindən buraxılan səhvləri aydınlaşdırır. Oyun metodu bütün yaş dövrü üçün əlverişli olmaqla uşaq bağçasında təlimin səmərəli keçməsinə imkan yaradır.

Oyun metodlarından biri didaktik oyunlardır. Bu oyun zamanı uşaqlar oyunun qaydası ilə tanış olur və onun həyata keçirilməsində əlavə məlumata yer verilmir. Oyun zamanı bilik tətbiq olunur və onun təkmillışməsi təmin edilir. Didaktik oyunlar biliyin möhkəmləndirilməsinə kömək edir, onu sistemə salır və inkişaf etdirir.

Uşaq bağçasında elementar təcrübə metodunun da özünəməxsus rolu var. Bu metod əsasən orta yaş qrupundan başlayaraq həyata keçirilir. Elementar təcrübə cisim və hadisələrin daxilindəki qapalı əlamətləri, onların arasındakı əlaqələrin dəyişilmə səbəblərini öyrənmək üçün tətbiq olunur. Məsələn, bitkilərin həyatında işığın rolunu öyrənmək üçün uşaqlar təcrübəyə cəlb edilirlər. Bir bitki daha işıqlı yerə, ikinci nisbətən zəif işıqlı, üçüncü isə qaranlıq yerə qoyulur. Uşaqlar həmin bitkilərin üzərində müşahidə aparırlar və ya əşyaların suda batıb-batmamasını yoxlamaq üçün müxtəlif əşyalar üzərində təcrübə aparırlar. Təcrübənin iikinci mərhələsi həyata keçirilmiş işin təhlili ilə əlaqədar olur, uşaqlar məlumla naməlumları müəyyənləşdirir. Təcrübənin sonuncu mərhələsi alınmış nəticənin təhlili ilə bağlı olur. Bu zaman uşaqlar təcrübənin gedişini əvvəldən sona kimi

yaddaşlarında canlandırırlar. Bu metod uşaqlarda təfəkkür fəaliyyətini, müqayisə etmək, qarşı-qarşıya qoymaq, nəticə çıxarmaq bacarığını inkişaf etdirir.

Modelləşdirmə müəyyən modelin uşaqlar tərəfindən düzəldilməsi, bu prosesdə əşyanın keyfiyyəti, quruluşu, digər obyektlərlə əlaqəsi haqqında biliyə yiyələnmək deməkdir. Bu metodun üstün cəhəti odur ki, uşaqlar əyani olaraq cisim və hadisələrin əlamətini qavrayır, hafizələrini faktik biliklərlə zənginləşdirirlər. Modelləşdirmə əyani-praktik metod kimi bir sıra tələblərə cavab verməlidir:

1. Model düzəldilən əşyanı olduğu kimi əks etdirməlidir, öyrənilən obyektin aparıcı əvəzi olmalıdır.

2. Qavrama üçün yararlı, eləcə də onun düzəldilməsi uşaqların anlaq səviyyəsinə uyğun olmalıdır.

3. Uşaqlara mühüm keyfiyyətləri elə aydın və dəqiq çatdırmaq lazımdır ki, onların köməyi ilə cisim və hadisələr başa düşülsün.

4. Öyrənilən mürəkkəb sahələri nisbətən asanlaşdırmaq lazımdır.

Didaktikada üç növ model müəyyənləşdirilmişdir:

I.Fiziki konstruksiyadan ibarət predmet modeli (predmeti hissələrə ayırmaq)

II.Predmet-sxematik model (əlavə hissələr və sxemlərdən istifadə olunur)

III.Qrafik model (I uşaqlar modeli tanımalı, sonra onun hissələrini öyrənməli, sonra quraşdırma işi ilə məşğul olunmalıdırlar)

5. Təlimin şifahi metodu uşaqların ətraf aləmi öyrənməsində, biliyi ümumiləşdirməsində və sistemə salmasında mühüm rol oynayır. Şifahi metodun növləri bunlardır:

1.tərbiyəçinin nəqli,

2. tərbiyəçinin bədii əsər oxuması,

3. müsahibə və s.

Tərbiyəçinin nəqlində başlıca məqsəd hər hansı bir əşya və hadisə haqqında uşaqlarda aydın və dəqiq təsəvvür yaratmaqdır. Nağılda qəhrəmanın dili ilə danışmaq uşaqların diqqətini daha çox cəlb edir və onlarda dərin maraq hissi oyadır. Nəqletmə uşaqların ağlına, hiss və təsəvvürlərinə güclü təsir edir. Tərbiyəçinin nitqi ifadəli, təsirli və emosional olmalıdır. Yeri gəldikdə o, əyaniləşdirmədən istifadə etməklə söhbəti əşyanın özü, şəkli, modeli üzərində qurmalıdır.

Uşaqların nəqletməsi başlıca metodlardan biri kimi onların biliyini təkmilləşdirir, düşünmə və danışıq bacarığını gücləndirir. Uşağın nağılı öz

yaşıdlarına danışmasının da böyük əhəmiyyəti var. Bu, uşaqlarda nəqletmə texnikasına yiyələnmək, aydın və maraqlı danışmaq həvəsi yaradır. Uşaqların yaş və anlaq səviyyəsinə uyğun qurulan nağıletmə metodu bütün qruplarda tətbiq edilir.

Uşaqlara bədii ədəbiyyatın oxunması ətraf mühit haqqındakı biliyi zənginləşdirir və genişləndirir. Onlarda bədii ədəbiyyatı başa düşmək və onun tərbiyəvi mahiyyətini duymaq qabiliyyəti formalaşdırır. Onlarda əsərin qəhrəmanının hərəkətlərini duymaq, müsbət cəhətlərindən sevinmək, uğursuzluqlara kədərlənmək və s. kimi hisslər oyadır. Bunun üçün şəkillərdən istifadə etmək, əsər haqqında nəqletmə bacarığı, oyun metodu (səhnələşdirilmiş oyun), söhbət və s. metodlardan istifadə edilməlidir.Oxudan sonra müsahibə təşkil edilir. Müsahibənin məqsədi əsərin məzmununu daha aydın başa salmaq, uşaqlarda estetik təəssüratı dərinləşdirməkdən ibarətdir.

Müsahibə əsasən yuxarı qruplarda keçirilir. Müsahibə biliyi dürüstləşdirmək, ümumiləşdirib sistemə salmaq məqsədi ilə keçirilir. Müsahibə zamanı uşaqlar nəinki sualı dinləməyi bacarmalı, həm də müsahibənin gedişində fəal iştirak etməlidirlər.

Müsahibə didaktik məzmununa görə iki yerə bölünür:

1) İlkin müsahibə; 2) Yekun və ya ümumiləşdirici müsahibə

İlkin müsahibədə tərbiyəçi cisim və hadisələri uşaqlara ilk dəfə öyrədir. İlkin müsahibə ilə uşaqların əvvəlki bilikləri aşkar edilir. Bu zaman uşaqların nəyi bilmələri aydınlaşdırılmalı, eyni zamanda hansı yeni biliklərə sahib olacaqları qabaqcadan onlara catdırılmalıdır. Bu müsahibə qısa, çox da çətin olmayan məzmunda orta qrupda keçirilir. Yekun və ya ümumiləşdirici müsahibə biliyi sistemə salmaq, onu daha da dərinləşdirmək və ya aydın başa salmaq üçün keçirilir. Belə müsahibənin keçirilməsində əyani vəsaitdən geniş istifadə olunur. Müsahibədə mürəkkəb əqli fəaliyyət tələb olunur. Müsahibə mövzunun məzmununu başa düşmək, müsahibəni dinləmək, fikri təhlil etmək bacarığı tələb edir. Yekun müsahibə uşaqların yaş və anlaq səviyyəsinə uyğunlaşdırılmaqla böyük qrupda keçirilir.

Təlimin gedişində tərbiyəçi təlimin şifahi tərzlərindən (priyomlarından) də istifadə edir. Tərz bu və ya digər metodun elementinə, hissəsinə deyilir. Belə tərzlərdən aşağıdakıları göstərmək olar: nümayiş etdirmə (göstərmə), izahetmə, aydınlaşdırma, pedaqoji qiymətləndirmə və s.

Aydınlaşdırma və izah təlimin tərzi kimi hadisələri müşahidə edərkən, əşyalara, şəkillərə baxarkən, tapşırıq və çalışma üzərində iş zamanı, təcrübə keçirərkən, bu və ya digər metoddan istifadə edərkən tətbiq olunur. Bəzən izah zamanı tərbiyəçi yeni-yeni fakt və əlavə materiallardan da istifadə edir. İzahın belə növlərindən biri göstərişdir. Göstəriş mövzunu uşaqların aydın dərk etməsinə kömək edir.

İzah və aydınlaşdırmadan əşyaların göstərilməsində geniş istifadə olunur. Əyani vəsaitin nümayiş etdirilməsində, hərəkətlərin göstərilməsində, əşyaların daxili mədəniyyətini açmaq və uşaqlara öyrətməkdə təlimin bu tərzləri geniş istifadə olunur. Ayrı-ayrı hallarda göstərmədən təlim tapşırığının icrası zamanı istifadə olunur.

Pedaqoji qiymətləndirmə təlimin mühüm priyomlarından biridir. Qiymətləndirmədən məşğələnin yekununda istifadə olunur. Qiymətləndirmə fərdi və kollektiv formada həyata keçirilir. Uşağın bacarıq və vərdişlərinin səviyyəsini uşağa çatdırmaq üçün onun fəaliyyətini qiymətləndirmək çox faydalıdır. Bu zaman uşaqmüsbət cəhətini və nöqsanını bilir, müsbət fəaliyyətini inkişaf etdirir, qüsurlarını isə aradan qaldırır.

Mövzu:19 Uşaqların həyatında oyunun rolu. Yaradıcı və qaydalı oyunlar.

PLAN:

1. Məktəbəqədər yaşlı uşaqların həyatında oyunun əhəmiyyəti
2. Uşaq oyunlarının növləri
3. Uşaq bağçasında oyun uşaqların tərbiyə vasitəsi kimi
4. Yaradıcı süjetli-rollu oyunlar
5. Qaydalı mütəhərrik oyunlar
6. Didaktik oyunlar
7. Oyuncaq və onun növləri

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
4. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

1. Məktəbəqədər yaşlı uşaqların həyatında oyun müstəsna əhəmiyyətə malikdir. Onlar oyun prosesində həyatı dərk etməyi öyrənirlər. Uşaq oynayarkən materialın rəngini, formasını, xassələrini, məkan münasibətlərini, kəmiyyətini öyrənir, bitkilər, heyvanlar haqqında müəyyən təsəvvür əldə edirlər. Xüsusən məktəbəqədər dövrdə oyun uşağı daha çox cəlb edir, onun əsas məşğuliyyəti olur.

Oyun zamanı uşaqlarda yaşlıların bir çox keyfiyyətlərinə maraq yaranır, onlara bənzər hərəkət edir, danışır, qavrayır və düşünürlər. Oyun prosesində onların təsəvvürləri, hafizəsi fəal olur, hissləri və iradi keyfiyyətləri sürətlə inkişaf edir. Yaxşı oyun uşaqlarda əqli və fiziki qüvvəni səfərbər edir. Məqsədə müstəqil surətdə nail olma, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq uşaq oyununun başlıca məqsədini təşkil edir.

Oyun məktəbəqədər dövrdə tərbiyənin başlıca vasitəsidir. Birinci növbədə bu, uşaqların əqli tərbiyəsini inkişaf etdirir. Oyun zamanı uşaqlarda ətraf aləm haqqında təsəvvür və anlayışlar inkişaf edir, təkmilləşir, dürüstləşir və bunların əsasında əqli qabiliyyət formalaşır. Uşaqlar istədikləri əşyalarla yaxından tanış olurlar.

Oyun uşaqların nitqinə də güclü təsir göstərir. Oyunun sözlə müşaiyət olunması, hərəkətlərin sözlə ifadə edilməsi, obrazların yaradılması uşaqların lüğət tərkibinin zənginləşməsinə kömək edir. Xüsusilə kollektiv oyun zamanı söz ünsiyyət vasitəsi olur.

Oyun uşaqlarda psixi proseslərin, fərdi-psixoloji xüsusiyyətlərin, xüsusilə iradə və xarakterin, kollektivçilik hissinin inkişafına və formalaşmasına güclü təsir göstərir. Uşaqların estetik, əməksevərlik tərbiyəsində, fiziki inkişafında, xarakterin özülünün qoyulmasında oyun əvəzedilməz vasitə rolunu oynayır. Oyun prosesi uşaqlarda hiqiqi və dolğun hisslər yaradır. Oyun əksər hallarda uşaqlara sevinc, fərəh hissi gətirir. Oyunda sevinc və fərəh hissi olmasa o, öz əhəmiyyətini itirər.Əksər oyunlar kollektiv xarakter daşıdığından belə oyunların keçirilməsi uşaqlarda həmrəylik, yoldaşları ilə hesablaşmaq, çətin anlarda bir-birinə kömək

etmək, ədalətli olmaq kimi çox mühüm əxlaqi keyfiyyətlərin yaranmasına kömək edir. Bütün bu keyfiyyətlərin məktəbəqədər yaşlı uşaqlara aşılanmasında tərbiyəçinin pedaqoji və metodiki hazırlığı mühüm əhəmiyyətə malikdir.

2. Uşaq oyunları öz növlərinə, rəngarəngliyinə, məzmununa, təşkilinə, xarakterinə və s. görə fərqləndirilir. Pedaqoqlar məktəbəqədər yaş dövrü üçün oyunları iki böyük qrupa bölürlər: yaradıcı və qaydalı oyunlar.

Yaradıcı oyunlar uşaqların özləri tərəfindən düşünülb düzəldilir və həyata keçirilir. Uşaqlar həyatda gördükləri cisim və hadisələr haqqında təsəvvürlərini, düşüncələrini uyğun oyuna gətirirlər. Belə oyunlarda uşaqların yaradıcı təxəyyülü mühüm rol oynayır. Oyunun mövzusunun seçilməsi və qaydaların müəyyən edilməsində az da olsa, uşaq yaradıcılığı özünü göstərir. Uşaq gördüklərini eyni ilə oyunda əks etdirmir. Bu, onların təqlidi, fantaziyaları ilə birləşir. Oyunu özləri istədiyi kimi keçirən uşaqlar rollarda çıxış etməyə daha çox üstünlük verirlər. Uşaqlar oynadığı rola öz münasibətini göstərir. Bu zaman onlar fikir və hisslərini ifadə edirlər.

Qaydalı oyunlar uşaq həyatına yaşlılar tərəfindən gətirilir. Oyunun məzmununun və qaydaların mürəkkəbliyindən asılı olaraq belə oyunlar müxtəlif yaş dövrü üçün qruplaşdırılır. Qaydalı oyunların yüksək təlim-tərbiyəvi əhəmiyyəti vardır. Bu oyunlar uşaqların hərəkətlərini inkişaf etdirir, onların təbiətlə, ətraf hadisələrlə yaxınlığını təmin edir. Qaydalı oyunlar da öz növbəsində mütəhərrik və didaktik olmaqla iki yerə bölünür.

Mütəhərrik oyunlarda hərəkilik mühüm yer tutur: topu atmaq-tutmaq, yüyürüb yoldaşa çatmaq,qatarın,avtomaşının hərəkətini təsvir etmək, sürücü kimi çıxış etmək və s.

Didaktik oyunlarda isə oynayanın qarşısında əqli vəzifə qoyulur. Heyvan şəkillərini cinsinə və növünə görə qruplaşdırmaq, deyilmiş tapmacanı tapmaq və s. Didaktik oyunlar uşaqların zehni tərbiyəsində mühüm rol oynayır. Lakin bu iki oyun növünü – mütəhərrik və didaktik oyunları ancaq fiziki və əqli tərbiyə vasitəsi kimi hesab etmək olmaz. Mütəhərrik oyunlarda da nitq və düşüncə inkişaf etdirilir, didaktik oyunlarda hərəkətlər, intizam, iradə və xarakter tərbiyəsi mühüm yer tutur. Deməli, hər iki oyunda ümumi cəhətlər olduğu kimi, fərqli əlamətlər də vardır. Hər iki oyunda qarşıya aydın məqsəd qoyulur ki, bu da oyunun məzmunundan irəli gəlir.Başlıca fərq burasındadır ki, yaradıcı oyunlar uşaqlar tərəfindən, qaydalı oyunlar isə böyüklər tərfindən yaradılır.

3. Oyun uşaq fəaliyyətinin çox vacib və ciddi vasitələrindən biri olmaqla onun hərtərəfli inkişafına və didaktik məqsədlərə xidmət edir. Buna görə oyun uşaq bağçasında əvəzedilməz tərbiyə vasitəsidir. Uşaqların bağçada həyata keçirdikləri didaktik oyun təlimi müstəqil metod kimi qiymətləndirilir. Uşaq oynaya-oynaya riyazi əməliyyatla məşğul olur, ətraf mühiti, sadə maşın oyuncaqlarının işləmə

prinsipini öyrənir. Oyunun dramlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Dramlaşdırma bu və ya digər bədii əsərin məzmununu öyrənməyə, hadisənin daxilinə girməyə kömək edir. Belə halda oyun öyrədici, təlimləşdirici xarakter daşıyır.

Uşaq həyatını əhatə edən oyunlar müxtəlif forma və məzmunda təkrar olunur. Oyun səhər yeməyindən əvvəl və sonra gəzintidə, məşğələdən sonra, axşamüstü evə gedənə kimi davam etdirilir. Səhər çox hərəkət tələb edən oyunların keçirilməsi məsləhət görülmür. Belə oyun fərdi və ya çox da böyük olmayan qrupla keçirilə bilər. Belə oyunun məzmununa didaktik oyuncaqlar, stolüstü çap olunmuş və süjetli-rollu oyunları daxil etmək məqsədəmüvafiqdir.

Gəzinti zamanı hərəki oyunların təşkilinə geniş yer vermək və bu zaman təbiət materiallarından istifadə etmək faydalı sayılır. Bu zaman çox da material tələb etməyən tikinti-quraşdırma, konstruktiv oyunlar da keçirmək olar.

Axşam vaxtı məzmunlu və geniş səviyyəli oyunlar keçirmək, yaradıcı, hərəki və didaktik oyun növlərinə geniş yer vermək olar. Oyun üçün müəyyən edilmiş vaxt rejimi uşaqların müstəqil oyun fəaliyyətinin təşkilində, ondan uşaq həyatının təşkili və tərbiyə vasitəsi kimi istifadə etməkdə mühüm əhəmiyyət kəb edir.

Oyun əməklə də əlaqədardır. Uşaqların əl əməyi bilavasitə oyunla bağlıdır. Uşaqlar öz bilik və düşüncələri əsasında nəinki hazır oyuncaq götürüb oynayırlar, onlar tədricən karton, kağız, ağac və s. təbii materiallardan oyuncaq düzəltmək bacarığına yiyələnirlər.Uşaqların iştirak etdikləri oyunların əksəriyyəti (“Siçan-pişik”, “Evcik-evcik” “Bənövşə” və s.) onların hərtərəfli inkişafına kömək edir.

Uşaqlar üçün oyun o vaxt maraqlı və cəzbedici olur ki, o, pedaqoji cəhətdən düzgün təşkil olunsun, məzmunu zəngin və rəngarəng olsun.

4. Yaradıcı oyun anlayışı süjetli-rollu, dramlaşdırılmış oyunu və tikinti-quraşdırıcı (konstruktor) oyunu əhatə edir. Süjetli-rollu oyunlar məktəbəqədər yaşlı uşaqlarla yaşlıların əlbir fəaliyyəti nəticəsində təşkil olunur. Bu oyunlar uşaqlarda müstəqillik, fəallıq yaratmaq və yaradıcılıqlarını formalaşdırmaq baxımından çox faydalıdır.

Süjetli-rollu oyunda təqlid güclü olur. Təqlid üzərində qurulan bu oyun uşaqları ətrafdakı həqiqətləri yaxşı öyrənməyə sövq edir. Süjetli-rollu oyunlarda təsəvvürlər də fəal iştirak edir. Oyunun süjeti müxtəlif həyati əlaqələrdən, motivlərdən yaranır. Uşaqlar çox vaxt yaşlıların rolunda çıxış etməyə can atırlar. Rolunu oynadığı yaşlıyaaid müəyyən əşya götürür və oyuna başlayır. Sürücü kimi oyuncaq avtomaşın götürür, tibb bacısı kimi termometri ələ alır. Uşaqlar ana, müəllim, təyyarəçi, həkim rollarında oynamağı çox sevirlər. Onlar oyunlarında ətrafda gördüklərinioldu̇ğu kimi əks etdirməyə çalışırlar. Yuxarı qrup uşaqları bağçada tərbiyəçinin, tibb bacısının, həkimin, aşpazın rolunu böyük “ustalıqla” yaradırlar. Rolda onların danışıq tərzi olduğu kimi əks etdirilir.

Süjetli oyun əqli tərbiyənin mühüm vasitəsi kimi özünü göstərir və belə oyunlar kollektiv xarakter daşıyır. Uşaq ətrafda baş verən hadisələri oyunda əks etdirərkən onun məzmununu daha yaxşı dərk edir, mühakimə yürütmək kimi qabiliyyətə sahib olur. Bu və ya digər fikri, təklifi müzakirə edir və nəticədə birgə qərara gəlirlər.

Kiçik məktəbəqədər yaşlı uşaqlara nisbətən böyük qrup uşaqlarında oyunun məzmunu get-gedə zənginləşir. Böyük qrup uşaqları balacalar kimi rolun təyinindən deyil, mövzunun seçilməsindən başlayırlar. "Nə oynayacağıq?", "Gəlin əsgər-əsgər oynayaq" – deyə müstəqil olaraq oyun seçirlər.

Oyun zamanı qurma və əmək işlərinə geniş yer verilməlidir. Tərbiyəçi qabaqca uşaqlara qurma vərdişləri aşılayır. Uşaqlar kuklalar üçün ev tikmək, maşını təmir etmək, təkərləri yerinə qoymaq və s. vərdişlərə yiyələnirlər. Tikinti-quraşdırma işlərinə aid uşaqların oyunları yaşlar üzrə sadədən mürəkkəbə doğru çətinləşdirilir. Tərbiyəçi uşaqlara rolları bölməkdə, rollar arasında əlaqə yaratmaqda kömək edir. Bu zaman uşaqlarda dialoqlu nitq, qarşılıqlı münasibət, hafizə daha yaxşı inkişaf edir.

5. Qaydalı mütəhərrik oyunlar hər xalqa mənsub olan milli koloritli oyunlardır. Onlar əsrlər boyu xalq tərəfindən və bəzən də uşaqların özü tərəfindən yaradılır. Nəsildən-nəslə keçən belə oyunlar əsasən folklordan qidalanır.

Qaydalı mütəhərrik oyunlar hazır məzmuna malik olur və ciddi ardıcıllıqla oynanılır. Bu oyunlarda uşaqların qarşısına müəyyən hərəkətlər – topu tutmaq, yoldaşa çatmaq, ritmik hərəkəti təkrar etmək və s. vəzifə qoyulur. Mütəhərrik oyunların adı da elə buradan irəli gəlir. Oyunlar fiziki, əqli və mənəvi tərbiyədə yüksək əhəmiyyət kəsb edir. Bu oyunlarda düşüncə və hərəkət üzvi surətdə bir-birilə bağlanır. Oyunlarda hərəkət və münasibət müəyyən qaydalarla tənzim olunur.

Mütəhərrik oyunlar məzmunca 2 qrupa bölünür: süjetli oyunlar və idman oyunlarına yaxın olan süjetli oyunlar. Süjetli oyunlar uşaqlara yaxın və maraqlıdır. Bu oyunların məzmunu müxtəlif olur: bəzilərində həyatdan götürülmüş hadisələr və adamlar (əsgərlər, təyyarəçilər, dənizçilər) göstərilir, digərlərində isə nağıllardan götürülmüş epizodlar oynanılır. Hər bir uşaq oyunun məzmununu və rolunu bilməlidir. Bəzi oyunlarda uşaq maneələri aradan qaldırmalı olur. Məsələn, meşədə ayıya yaxınlaşan uşaqlar onunla oynamaq istəyir, ayı onları tutur ("Ayı haqqında nağıl") . Süjetli oyunlar çeviklik, sürət, düşüncəlik və bacarıq tələb edən tapşırığın yerinə yetirilməsi üzərində qurulur. Məs., "Qaçdı-tutdu", "Gizlənpaç" və s.

Süjetli oyunlarda musiqi uşaqlara obrazı düzgün dərk etməkdə, bu obraza müvafiq hərəkət etməkdə kömək edir. Süjetli oyunlarda musiqi həmçinin uşaqların hərəkətlərini istiqamətləndirir, təşkil edir, siqnal vəzifəsini daşıyır. Mütəhərrik

oyunlar uşağı öz davranışlarını idarə etməyə, hərəkətlərini nəzərdə tutulmuş məqsədə tabe etməyə, həyəcan və arzusunu gizlətməyə alışdırır.

Orta qrupda mütəhərrik oyunların məzmunu daha mürəkkəb olur. Növbəyə riayət etmək, hərəkətlərini başqalarının hərəkətləri ilə uyğunlaşdırmaq və s. belə oyunların məzmununu təşkil edir. Böyük qrupda mütəhərrik oyun qaydaları uşaqların nisbətən dərin şüurluluğuna, müstəqilliyinə, məsuliyyətinə əsaslanır. Tərbiyəçi keçirilən hər bir oyunun məzmununu, süjetin mahiyyətini uşaqlara başa düşəcəkləri tərzdə çatdırmalıdır.

6. Didaktik oyunlar yüksək tərbiyəvi və öyrədici xüsusiyyətlərə malik olur. Didaktik oyun uşaqların zehnini inkişaf etdirən üsullardan biridir. Didaktik oyunun baçlıca xüsusiyyəti qaydadar. Qaydanın həyata keçirilməsi oyunun məzmununun həyata keçirilməsidir. Didaktik oyunun əhəmiyyəti aşağıdakılardan ibarətdir:

1.Didaktik oyunlarda ətrafdakılar haqqında təsəvvürlər dəqiqləşdirilir, möhkəmləndirilir və genişləndirilir. Uşaq əşyaların rəngi haqqında təsəvvürə yiyələnir. Oyun zamanı eyni rəngdə olan əşyaları bir yerə toplamaq və rənglərin fərqli xüsusiyyətlərini tapmaq lazımdır. Bu zaman onların rəng haqqında təsəvvürləri genişlənir.

2. Hər bir didaktik oyunda təfəkkür, nitq inkişaf edir və əqli fəaliyyət formalaşır. Didaktik oyun uşaqdan fikri mərkəzləşdirməyi, öz diqqətini, qavrayışını, hafizəsini işə salmağı, müqayisə aparmağı, müəyyən əqli nəticəyə gəlməyi, fikir yürütməyi, biliyini sözlə ifadə etməyi tələb edir.

3. Didaktik oyunlar əxlaq tərbiyəsi vasitəsidir. Bu oyun uşaqlarda dözümlülük, intizam, qaydalara ciddi riayət etmək, düzlük, doğruçuluq, Vətənə dərin məhəbbət, Yoldaşlıq, səmimiyyət və s. kimi əxlaqi keyfiyyətlər formalaşdırır.

Tərbiyəçi didaktik oyun zamanı uşaqların əqli və əxlaqi cəhətdən formalaşması üçün faydalı təmrinlər verməli, oyunda didaktikliyi əyləncəliklə birləşdirməlidir.

Xarakterinə görə didaktik oyunlar üç qrupa bölünür: 1) oyuncaqlarla oyun; 2) stolüstü çap oyunları; 3) şifahi oyunlar. Birinci növ oyunlar uşaqların oynadığı əşyaların qavranılması ilə bilavasitə əlaqədardır.

Stolüstü oyunlar əyanilik prinsipinə əsaslanır. Bu oyunların məzmunu müxtəlif olur: Bəzi lotolar və cüt şəkillər uşaqları ayrı-ayrı əşyalarla, onların keyfiyyət və xüsusiyyətləri ilə tanış edir. Məs., "İlin fəsilləri" oyunu uşaqları fəsillərin xarakteri ilə tanış edir.

Şifahi oyunlar isə daha mürəkkəb olur. Belə oyunlar əsasən böyük qruplarda keçirilir. Bu oyunlar diqqətlə dinləməyi, verilən suallara sürətlə cavab tapmağı, fikirlərini aydın ifadə etməyi tələb edir. Ən çox yayılmış şifahi oyun tapmacalardır. Didaktik oyunların vəzifələri uşaqlarda oyun zamanı oxşarlığı və fərqi müəyyənləşdirmək, müqayisə etmək, seçmək, əşyaları bir və bir neçə əlamətinə

görə müəyyənləşdirmək, şüurlu sürətdə yadda saxlamaq və yada salmaq bacarığını formalaşdırmaqdır.

7. Oyuncaqlar uşaqların tərbiyəsində mühüm rol oynayır. O, uşağın əlində oyuncaq, tərbiyəçi üçün isə mühüm tərbiyə vasitələrindən biridir. Uşaq oyuncaqla müxtəlif təcrübələr əldə edə bilir. Məsələn, o, maşını döşəmə üzərində sürür, müxtəlif əşyalarla yükləyir. Qucağında gəlincik uyumuş bir qız özünü əsl "ana" hesab edir. Uşaq oyuncaq vasitəsilə əşyaların xassələri ilə yaxından tanış olur. Hər bir oyuncaq real həyatdakı əşyaları, insan və heyvanları əks etdirir. Oyuncaqların köməyi ilə valideynlər və tərbiyəçilər uşaqların görüş dairəsini genişləndirir, onların təfəkkür və təxəyyülünü inkişaf etdirirlər. Oyuncaqlar vasitəsilə tərbiyəçilər uşaqlarda texnikaya maraq yaradır, yaradıcılığa həvəs oyadır. Obrazlı və didaktik əhəmiyyət kəsb edən oyuncaqlar isə uşaqların nitqini inkişaf etdirir, lüğət fondunu zənginləşdirir.

Müxtəlif materiallardan düzəldilən oyuncaqlar tərbiyəvi əhəmiyyətinə görə müxtəlif növlər üzrə (mütəhərrikli. sensor, quraşdırma) fərqlənirlər. Müasir pedaqoji ədəbiyyatda oyuncaqlar istifadə müxtəliliyinə görə təsnif olunur: a) süjetli-obrazlı oyuncaqlar adamları, heyvanları, müxtəlif əşyaları əks etdirir; b) oyun üçün tikinti materialı, idman və müxtəlif hərəkətlər üçün oyuncaqlar; c) dekorativ kölgə və kukla teatrı üçün personajlar, dramlaşdırma üçün kostyumlar, yolka oyuncaqları; ç) əyləncə üçün oyuncaqlar; d) musiqi səsləndirən oyuncaqlar; e) kompüter oyuncaqları.

Oyuncaqlardan qədim tarixə malik olan gəlincik tərbiyə prosesində xüsusi əhəmiyyət kəsb edir. Gəlincik insan obrazıdır. Gəlincik vasitəsilə uşaq insanların həyat və əmək tərzinə daxil olur, məişət münasibətlərini öyrənir. Tikinti materiallarına aid əşyalar quraşdırma oyununda özünəməxsus əhəmiyət kəsb edir. Bütün bu oyuncaqlar uşaqların təsəvvürlərini genişləndirir, təxəyyülünü inkişaf etdirir.Yumşaq materialdan düzəldilmiş heyvan oyuncaqları heyvanlara maraq və məhəbbət yaratmaq üçün çox faydalıdır.

Didaktik oyuncaqlar uşaqları rəng, forma, böyüklük və s. anlayışlarla tanış edir. Didaktik oyuncaqların növləri bunlardır: 1) hissələri ayrılan oyuncaqlar; 2) qurma üçün oyuncaqlar; 3) stolüstü çap oyunları üçün oyuncaqlar.

Mövzu : 20-21

Uşaqların həyatında oyunun rolu. Yaradıcı və qaydalı oyunlar. Mütəhərrik oyunlar, onların xüsusiyyətləri və əhəmiyyəti. Didaktik oyunların mahiyyəti və vəzifələri.

Plan:

1. Didaktik ouinlar.
2. Didaktik oyunların məzmunu və növləri.
3. Uşaqların yaradıcı təxəyyülü və intellektini inkişaf etdirən yaradıcı hekayələr,düşündürücü , əyləncəli oyunlar.

Ədəbiyyat:

1. A. Həsənov. Məktəbəqədər pedaqogika . Bakı-2000.
2. **S**.Abdullayeva. Tərbiyəçinin stolüstü kitabı. Bakı-2008.
3. N. Rzayeva. M.Rzayeva. Uşaqların idrak proseslərinin inkişafına xidmət edən **DİDAKTİK MATERİALLAR,** Nərgiz nəşriyyatı. Bakı-2006.
4. R.Mursaqulova .N. Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012.
5. Y. Kərimov. Uşaq məktəbə gedir. Bakı- Nağıl evi, 2002,
6. Abbasova R. Yeni pedaqoji təfəkkürə əsaslanan interaktiv metodların tətbiqi.// İbtidai məktəb və məktəbəqədər tərbiyə ,2002, № 1.

Hər bir ailədə uşağın dünyaya gəlməsi ata-ananın. Bütöv bir nəslin sevincinə səbəb olur və əziz bir gün kimi yadda qalır. Düzgün və vaxtında verilən tərbiyə gələcək vətəndaşın tale yolunu müəyyən etməkdə yardımçı olur. Profüssor Ə.Əlizadə haqlı olaraq qeyd edir ki, ” uşaqlar doëulduqları gündən özünəməxsus sosial –psixoloji kontiniuma.yəni ailə mühitinə düşür. Dilsiz ağızsız uşaq 3 aylıq olanda mədəniyyət onun bütün həyatına nüfuz edir .” Valideyn və tərbiyəçilərin bu sahədə psixopedaqoji hazırlığı üçün əhəmiyyətlidir.Rus psixoloqu A.N.Leontyev uşaqlıq dövrünü “ faktiki olaraq şəxsiyyətin ilkin təşəkkülü ” dövrü, A.S.Makarenko isə “ cəmiyyətin canlı qüvvəsi” adlandırırdılar.

İnformasiya texnalogiyalarının inkişaf etdiyi müasir dövrdə uşaqların idrak qabiliyyəti çox erkən təzahür edir. Odur ki, uşaqların təbiətinin öyrənilməsinə məhz məktəbəqədər yaş dövründən başlamaq lazımdır ki, məhz bu məktəb

ücün əlverişli şərait yaratsın. Məsələnin praktik əhəmiyyəti ondan ibarətdir ki, həmin sahədə mövcud qanunauyğunluqların aşkara çıxarılması idrak qabiliyyətlərinin məqsədyönlü tərbiyəsi ücün valideyn və tərbiyəçilərə zəruri biliklər verə bilər. Uşaq fiziki inkişafla bahəm psixi imkanların dinamik inkişafı və genişlənməsi baxımından da hər gün dəyişir. L.S.Vıqotski bu kontekstdə təlim və tərbiyə prosesinin aparıcı olduğunu qeyd etmiş və onları " inkişafın həlledici qüvvəsi" adlandırmışdır.

Didaktik oyunlar uşaqların idrak proseslərinin inkişafına xidmət edən ,əqli fəaliyyəti genişləndirmək ücün vacib məqamlardandır. Didaktik oyunlar sadalananlarla bərabər həm də maraq effektinin yüksəlməsinə zəmin yaradır.

Hər bir valideyn, həmçinin tərbiyəçi-müəllim pedaqogika və psixologiya elmləri tərəfindən toplanmış biliklər sisteminə az-cox yiyələnməli,uşaqlarla ünsiyyət qurarkən onların hər birinə hörmətlə yanaşmalıdır. Unutmaq olmaz ki,hər bir uşağın özünəməxsus dünyası var. Burada uşaq özünün ağlı-qaralı cızma –qaraları ilə bəlkə də rəssamın işini xatırladan təxəyyül surətləri yaradır,nitqini inkişaf etdirir.Bu sahəyə xüsusi diqqət yetirmək lazımdır. S.M.Qənizadə yazırdı : " Ata-analar ücün dünya və axirətdə övlad ən fəxr zinyətdir." Bu zinyəti qorumaq hər bir valideynin eyni zamanda cəmiyyətin şərəf duyduğu vəzifədir. Övlad yetişdirmək,gənc nəsl tərbiyə etmək... M. Ə.Sabirin sözləri ilə desək " həqiqi validənin ən şərəfli bəzəyi ədəbli,tərbiyəli cocuqdur."

Didaktik oyunlar yüksək tərbiyəvi və öyrədici xüsusiyyətlərə malik olur. Didakltik oyun uşaqların zehnini inkişaf etdirən üsulılardan biridir.

Bilik, bacarıq və vərdişlərə nail oımaq və onları möhkəmləndirmək ücün uşaqdan dəfələrlə təmrinlərin təkrar olunması tələb olunur.

N.K.Krupskaya əsərlərində yazırdı :" Uşaq hər şeyi əl ilə yoxlamalı,onu iyiləməli, on dəfələrlə onu nəzərdən kecirməli və on dəfələrlə onun adını təkrar etməlidir. Krupskaya oyunun təhsil prosesinin əhəmiyyətini də yüksək qiymətləndirmişdir. O,deyirdi :" Oyun təcrübədə yoxlamadır "

Didaktik oyunun başlıca xüsusiyyəti qaydadır. Qaaydanın həyata kecirilməsi oyunun məzmununun həyata kecirilməsidir. Qaydalar müxtəlif olur: onlardan biri oyun fəaliyyətini və ardıcıllığını təmin edir,o birisi oyuncaqların münasibətini tənzim edir.

Didaktik oyunun əhəmiyyəti aşağıdakılarda ibarətdir:

1. Didaktik oyunlarda ətrafdakılar haqqında təsəvvürlər dəqiqləşdirilir, möhkəmləndirilir və genişləndirilir. Uşaq əşyaların rəngi haqqında təsəvvürə yiyələnir. Oyun zamanı eyni rəngdə olan əşyaları bir yerə toplamaq və rənglərin fərqli xüsusiyyətlərini tapmaq lazımdır.
   Bu zaman onların rəng haqqında təsəvvürləri genişlənir;
2. Hər bir didaktik oyunda təfəkkür və nitq inkişaf edir və əqli fəaliyyət formalaşır. Didaktik oyun uşaqdan fikri mərkəzləşdirməyi,öz diqqətini,

qavrayışını,hafizəsini işə salmağı, müqayisə aparmağı,müəyyən əqli nəticəyə gəlməyi,fikir yürüütməyi,biliyini sözlə ifadə etməyi tələb edir.

3. Didaktik oyunlar əxlaq tərbiyəsi vasitəsidir. Bu oyun uşaqlarda dözümlülük, intizam, qaydalara ciddi riayət etmək, düzlük, doğruçuluq, Vətənə dərin məhəbbət, yoldaşlıq, səmimiyyət, mehriban olmaq və s. əxlaqi keyfiyyət formalaşdırır.

   Uşaqların didaktik oyunlarına rəhbərlik edən hər bir şəxs, eləcə də tərbiyəçi aşağıdakıları yadda saxlamalıdır:

   1. Didaktik oyun uşaqların əqli və əxlaqi cəhətdən formalaşması üçün faydalı təmrinlər verməlidir;
   2. Didaktik oyunda həlli bir az çətin olan tapşırıqlar da verilməlidir. “Səysiz, fəaliyyətsiz oyun həmişə pis oyundur”(A.S.Makarenko)
   3. Oyunda didaktiklik əyləncəliliklə birləşməlidir. Oyuna alışma zehni fəaliyyəti gücləndirir.

      Oyun müəyyən bilik verməklə yanaşı, uşaqları əxlaqi cəhətdən formalaşdırır, psixi prosesləri və fərdi psixi xüsusiyyətləri daha yaxşı inkişaf etdirir.

Didaktik oyunların məzmunu və növləri.

Didaktik oyunun da başlıca cəhəti onun məzmunundadır. Bu oyunda uşaqlara ana dilini, onun lüğət fondunu saymağı, bitkilər və heyvanlar haqqında məlumatı öyrənir.

Xarakterinə görə didaktik oyunlar üç qrupa bölünür.

1) oyuncaqlarla oyunlar;
2) stolüstü çap oyunları;
3) şifahi oyunlar.

Birinci növ oyunlar uşaqların oynadığı əşyaların qavranılması ilə bilavasitə əlaqədardır.

İkinci növ oyunlar əşyanın ancaq təsviri ilə verilir.

Üçüncü növ oyunlar təsəvvürlərə əsaslanır, oyun zamanı əşya uşağın gözü qarşısında olmur.

Stolüstü oyunlar əyanilik prinsipinə əsaslanır. Stolüstü çap şəklində oyunların məzmunu müxtəlif olur: bəzi lotolar və cüt şəkillər uşaqları ayrı-ayrı əşyalarla, onların keyfiyyət və xüsusiyyətləri ilə (quşlar, meyvələr, tərəvəz və s.) tanış edir.

Şifahi oyunlar isə daha mürəkkəb olur.Bu oyunlarda uşaqlar öz təsəvvürlərindən istifadə edirlər.Belə oyunlar əsasən böyük qruplarda keçirilir və uşaqların məktəbə hazırlanmasında mühüm rol oynayır.

Belə ki, bu oyunlar diqqətlə dinləməyi, verilən suallara sürətlə cavab tapmağı, fikirlərini aydın ifadə etməyi tələb edir.Ən çox yayılmış şifahi oyun tapmacalardır.

Didaktik oyunların vəzifələri aşağıdakılardan ibarətdir:

a) Didaktik oyunlarda uşaqların qarşısında qoyulan vəzifələr tədricən mürəkkəbləşdirilir. Belə oyunlarda uşaqların əşyalar haqqında təsəvvürləri möhkəmləndirilir.
b) Oyun zamanı oxşarlığı və fərqi müəyyənləşdirmək, müqayisə etmək və seçmək. Məsələn, qülləni söküb düzəltmək, kubiklərdən ev tikməyi bacarmaq.

v) müqayisənin, oxşarlığın və fərqin müəyyənləşdirilməsi, diqqətlə baxmağa , düşünməyə , müstəqil nəticə çıxarmaga bacarmaq. Məsələn, bir-birinə oxşayan cüt şəkilləri seçmək və onlar arasında fərqi müəyyən etmək;

q) əyaları bir və ya bir neçə əlamətinə görə müəyyənləşdirmək. Məsələn,tapmacanın cavabını tapmaq .Yəni uşaqlar əşyanı əsas əlamətinə görə ayırmağı bacarmalıdılar;

ğ) ümumi əlamətlərinə görə əşyaları müəyyənləşdirmək. Bu oyunlar təfəkkürün inkişafın təfəkkürü inkişafı ücün cox vacibdir. Məsələn " rəngə görə ayır" , "iki sözlə üç oxşar əşya adı söylə " və s;

d) şüurlu suratdə yadda saxlamaq və yada salmaq bacarığının formalaşdırmalı. Məsələn, " Nə dəyişilmişdir ?" oynunda uşaqlar stol üstündə olan əşyalardan hansının olmadığını , hansının əlavə edildiyini, əşyaların yerinin necə dəyişdiyini bilməlidir. Bu oyun məkan anlayışını ibnkişaf etdirmək üçün faydalıdır;

e) hissələrdən tamı təşkil etmək, nümunə üzrə naxışlar düzəltmək. Orta və böyük quruplarda əvvəlcə üzərində bəzi əşyalar təsvir olunan kubiklər verilr. Uşaqlar bu kubiklər məzmununa görə düzüb müəyyən hadisənin təsvirini alırlar.

Böyük qruplarda idman oyunları, dama, domino və müxtəlif tapmacalar geniş yer tutur.

Didaktik oyunların metodikasının özünəməxsus xüsusiyyətləri vardır:

a) didaktik oyun keçirilərkən, oyunda şən əhval –ruhiyyə yaradılmalıdır. Bunun üçün tərbiyəçinin əhval- ruhiyyəsi, onun təsirli və şən hərəkəti mühüm amildir. Yaxşı oyun uşaqlarda yumor hissini inkişaf etdirir;
b) didaktik oyun təşkil etməli, tərbiyəci bu oyuna maraq yaratmalı və uşaqların zehni fəaliyyətini fəallaşdırmalıdır;
v) kollektiv didaktik oyunda bütün uşaqların fəallığı təmin olunmalıdır.

Onu da qeyd etmək lazımdır ki, müxtəlif yaş quruplarında didaktik oyunlara rəhbərliyin öz xüsusiyyətləri vardır. Kiçik quruplarda tərbiyəçinin özü uşaqlarla oynayır və qaydaları onlara öyrədir. Böyük qurupda isə uşaqlar oyun başlananadək onun qaydalarını yaxşı başa düşməlidilər. Həmin qaydaların yerinə yetrilməsində onlardan tam müstəqillik tələb olunur. Oyun zamanı tərbiyəçi uşaqlarda bir-birinə qarşı xeyirxah münasibət yaratmalıdır.

Yaradıcı oyunlar uşaqların özləri tərəfindən düşünülb düzəldilir və həyata keçirilir. Uşaqlar həyatda gördükləri cisim və hadisələr haqqında təsəvvürlərini, düşüncələrini uyğun oyuna gətirirlər. Belə oyunlarda uşaqların yaradıcı təxəyyülü mühüm rol oynayır. Oyunun mövzusunun seçilməsi və qaydaların müəyyən edilməsində az da olsa, uşaq yaradıcılığı özünü göstərir. Uşaq gördüklərini eyni ilə oyunda əks etdirmir. Bu, onların təqlidi, fantaziyaları ilə birləşir. Oyunu özləri istədiyi kimi keçirən uşaqlar rollarda çıxış etməyə daha çox üstünlük verirlər. Uşaqlar oynadığı rola öz münasibətini göstərir. Bu zaman onlar fikir və hisslərini ifadə edirlər.

Qaydalı oyunlar uşaq həyatına yaşlılar tərəfindən gətirilir. Oyunun məzmununun və qaydaların mürəkkəbliyindən asılı olaraq belə oyunlar müxtəlif yaş dövrü üçün qruplaşdırılır. Qaydalı oyunların yüksək təlim-tərbiyəvi əhəmiyyəti vardır. Bu oyunlar uşaqların hərəkətlərini inkişaf etdirir, onların təbiətlə, ətraf hadisələrlə yaxınlığını təmin edir. Qaydalı oyunlar da öz növbəsində mütəhərrik və didaktik olmaqla iki yerə bölünür.

Mütəhərrik oyunlarda hərəkilik mühüm yer tutur: topu atmaq-tutmaq, yüyürüb yoldaşa çatmaq,qatarın,avtomaşının hərəkətini təsvir etmək, sürücü kimi çıxış etmək və s.

Didaktik oyunlarda isə oynayanın qarşısında əqli vəzifə qoyulur. Heyvan şəkillərini cinsinə və növünə görə qruplaşdırmaq, deyilmiş tapmacanı tapmaq və s. Didaktik oyunlar uşaqların zehni tərbiyəsində mühüm rol oynayır. Lakin bu iki oyun növünü – mütəhərrik və didaktik oyunları ancaq fiziki və əqli tərbiyə vasitəsi kimi hesab etmək olmaz. Mütəhərrik oyunlarda da nitq və düşüncə inkişaf etdirilir, didaktik oyunlarda hərəkətlər, intizam, iradə və xarakter tərbiyəsi mühüm yer tutur. Deməli, hər iki oyunda ümumi cəhətlər olduğu kimi, fərqli əlamətlər də vardır. Hər iki oyunda qarşıya aydın məqsəd qoyulur ki, bu da oyunun məzmunundan irəli gəlir.Başlıca fərq burasındadır ki, yaradıcı oyunlar uşaqlar tərəfindən, qaydalı oyunlar isə böyüklər tərfindən yaradılır.

Oyun uşaq fəaliyyətinin çox vacib və ciddi vasitələrindən biri olmaqla onun hərtərəfli inkişafına və didaktik məqsədlərə xidmət edir. Buna görə oyun uşaq bağçasında əvəzedilməz tərbiyə vasitəsidir. Uşaqların bağçada həyata keçirdikləri didaktik oyun təlimi müstəqil metod kimi qiymətləndirilir. Uşaq oynaya-oynaya riyazi əməliyyatla məşğul olur, ətraf mühiti, sadə maşın oyuncaqlarının işləmə prinsipini öyrənir. Oyunun dramlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Dramlaşdırma bu və ya digər bədii əsərin məzmununu öyrənməyə, hadisənin daxilinə girməyə kömək edir. Belə halda oyun öyrədici, təlimləşdirici xarakter daşıyır.

Uşaq həyatını əhatə edən oyunlar müxtəlif forma və məzmunda təkrar olunur. Oyun səhər yeməyindən əvvəl və sonra gəzintidə, məşğələdən sonra, axşamüstü evə gedənə kimi davam etdirilir. Səhər çox hərəkət tələb edən oyunların keçirilməsi məsləhət görülmür. Belə oyun fərdi və ya çox da böyük olmayan

qrupla keçirilə bilər. Belə oyunun məzmununa didaktik oyuncaqlar, stolüstü çap olunmuş və süjetli-rollu oyunları daxil etmək məqsədəmüvafiqdir.

Gəzinti zamanı hərəki oyunların təşkilinə geniş yer vermək və bu zaman təbiət materiallarından istifadə etmək faydalı sayılır. Bu zaman çox da material tələb etməyən tikinti-quraşdırma, konstruktiv oyunlar da keçirmək olar.

Axşam vaxtı məzmunlu və geniş səviyyəli oyunlar keçirmək, yaradıcı, hərəki və didaktik oyun növlərinə geniş yer vermək olar. Oyun üçün müəyyən edilmiş vaxt rejimi uşaqların müstəqil oyun fəaliyyətinin təşkilində, ondan uşaq həyatının təşkili və tərbiyə vasitəsi kimi istifadə etməkdə mühüm əhəmiyyət kəb edir.

Oyun əməklə də əlaqədardır. Uşaqların əl əməyi bilavasitə oyunla bağlıdır. Uşaqlar öz bilik və düşüncələri əsasında nəinki hazır oyuncaq götürüb oynayırlar, onlar tədricən karton, kağız, ağac və s. təbii materiallardan oyuncaq düzəltmək bacarığına yiyələnirlər.Uşaqların iştirak etdikləri oyunların əksəriyyəti (“Siçan-pişik”, “Evcik-evcik” “Bənövşə” və s.) onların hərtərəfli inkişafına kömək edir.

Uşaqlar üçün oyun o vaxt maraqlı və cəzbedici olur ki, o, pedaqoji cəhətdən düzgün təşkil olunsun, məzmunu zəngin və rəngarəng olsun.

4. Yaradıcı oyun anlayışı süjetli-rollu, dramlaşdırılmış oyunu və tikinti-quraşdırıcı (konstruktor) oyunu əhatə edir. Süjetli-rollu oyunlar məktəbəqədər yaşlı uşaqlarla yaşlıların əlbir fəaliyyəti nəticəsində təşkil olunur. Bu oyunlar uşaqlarda müstəqillik, fəallıq yaratmaq və yaradıcılıqlarını formalaşdırmaq baxımından çox faydalıdır.

Süjetli-rollu oyunda təqlid güclü olur. Təqlid üzərində qurulan bu oyun uşaqları ətrafdakı həqiqətləri yaxşı öyrənməyə sövq edir. Süjetli-rollu oyunlarda təsəvvürlər də fəal iştirak edir. Oyunun süjeti müxtəlif həyati əlaqələrdən, motivlərdən yaranır. Uşaqlar çox vaxt yaşlıların rolunda çıxış etməyə can atırlar. Rolunu oynadığı yaşlıyaaid müəyyən əşya götürür və oyuna başlayır. Sürücü kimi oyuncaq avtomaşın götürür, tibb bacısı kimi termometri ələ alır. Uşaqlar ana, müəllim, təyyarəçi, həkim rollarında oynamağı çox sevirlər. Onlar oyunlarında ətrafda gördüklərinioldığu kimi əks etdirməyə çalışırlar. Yuxarı qrup uşaqları bağçada tərbiyəçinin, tibb bacısının, həkimin, aşpazın rolunu böyük “ustalıqla” yaradırlar. Rolda onların danışıq tərzi olduğu kimi əks etdirilir.

Süjetli oyun əqli tərbiyənin mühüm vasitəsi kimi özünü göstərir və belə oyunlar kollektiv xarakter daşıyır. Uşaq ətrafda baş verən hadisələri oyunda əks etdirərkən onun məzmununu daha yaxşı dərk edir, mühakimə yürütmək kimi qabiliyyətə sahib olur. Bu və ya digər fikri, təklifi müzakirə edir və nəticədə birgə qərara gəlirlər.

Kiçik məktəbəqədər yaşlı uşaqlara nisbətən böyük qrup uşaqlarında oyunun məzmunu get-gedə zənginləşir. Böyük qrup uşaqları balacalar kimi rolun təyinindən deyil, mövzunun seçilməsindən başlayırlar. “Nə oynayacağıq?”, “Gəlin əsgər-əsgər oynayaq” – deyə müstəqil olaraq oyun seçirlər.

Oyun zamanı qurma və əmək işlərinə geniş yer verilməlidir. Tərbiyəçi qabaqca uşaqlara qurma vərdişləri aşılayır. Uşaqlar kuklalar üçün ev tikmək, maşını təmir etmək, təkərləri yerinə qoymaq və s. vərdişlərə yiyələnirlər. Tikinti-quraşdırma işlərinə aid uşaqların oyunları yaşlar üzrə sadədən mürəkkəbə doğru çətinləşdirilir. Tərbiyəçi uşaqlara rolları bölməkdə, rollar arasında əlaqə yaratmaqda kömək edir. Bu zaman uşaqlarda dialoqlu nitq, qarşılıqlı münasibət, hafizə daha yaxşı inkişaf edir.

5. Qaydalı mütəhərrik oyunlar hər xalqa mənsub olan milli koloritli oyunlardır. Onlar əsrlər boyu xalq tərəfindən və bəzən də uşaqların özü tərəfindən yaradılır. Nəsildən-nəslə keçən belə oyunlar əsasən folklordan qidalanır.

Qaydalı mütəhərrik oyunlar hazır məzmuna malik olur və ciddi ardıcıllıqla oynanılır. Bu oyunlarda uşaqların qarşısına müəyyən hərəkətlər – topu tutmaq, yoldaşa çatmaq, ritmik hərəkəti təkrar etmək və s. vəzifə qoyulur. Mütəhərrik oyunların adı da elə buradan irəli gəlir. Oyunlar fiziki, əqli və mənəvi tərbiyədə yüksək əhəmiyyət kəsb edir. Bu oyunlarda düşüncə və hərəkət üzvi surətdə bir-birilə bağlanır. Oyunlarda hərəkət və münasibət müəyyən qaydalarla tənzim olunur.

Mütəhərrik oyunlar məzmunca 2 qrupa bölünür: süjetli oyunlar və idman oyunlarına yaxın olan süjetli oyunlar. Süjetli oyunlar uşaqlara yaxın və maraqlıdır. Bu oyunların məzmunu müxtəlif olur: bəzilərində həyatdan götürülmüş hadisələr və adamlar (əsgərlər, təyyarəçilər, dənizçilər) göstərilir, digərlərində isə nağıllardan götürülmüş epizodlar oynanılır. Hər bir uşaq oyunun məzmununu və rolunu bilməlidir. Bəzi oyunlarda uşaq maneələri aradan qaldırmalı olur. Məsələn, meşədə ayıya yaxınlaşan uşaqlar onunla oynamaq istəyir, ayı onları tutur (“Ayı haqqında nağıl”) . Süjetli oyunlar çeviklik, sürət, düşüncəlik və bacarıq tələb edən tapşırığın yerinə yetirilməsi üzərində qurulur. Məs., “Qaçdı-tutdu”, “Gizlənpaç” və s.

Süjetli oyunlarda musiqi uşaqlara obrazı düzgün dərk etməkdə, bu obraza müvafiq hərəkət etməkdə kömək edir. Süjetli oyunlarda musiqi həmçinin uşaqların hərəkətlərini istiqamətləndirir, təşkil edir, siqnal vəzifəsini daşıyır. Mütəhərrik oyunlar uşağı öz davranışlarını idarə etməyə, hərəkətlərini nəzərdə tutulmuş məqsədə tabe etməyə, həyəcan və arzusunu gizlətməyə alışdırır.

Orta qrupda mütəhərrik oyunların məzmunu daha mürəkkəb olur. Növbəyə riayət etmək, hərəkətlərini başqalarının hərəkətləri ilə uyğunlaşdırmaq və s. belə oyunların məzmununu təşkil edir. Böyük qrupda mütəhərrik oyun qaydaları uşaqların nisbətən dərin şüurluluğuna, müstəqilliyinə, məsuliyyətinə əsaslanır. Tərbiyəçi keçirilən hər bir oyunun məzmununu, süjetin mahiyyətini uşaqlara başa düşəcəkləri tərzdə çatdırmalıdır.

Mövzu 24.25.26.27.28 Uşaq bağcasında tərbiyə işinin təşkili və məktəbəqədər tərbiyə müəssəsinə rəhbərlik.

PLAN:

1. Məktəbəqədər tərbiyə müəssisələrinin təşkli qaydaları
2. Məktəbəqədər müəssisənin maliyyələşdirilməsi
3. Məktəbəqədər tərbiyə müəssisəsinə uşaqların qəbulu və pedaqoji kollektivin tərkibi
4. Uşaq bağçası tərbiyəçisinin pedaqoji ustalığı
5. Məktəbəqədər tərbiyə müəssisəsi üçün kadr hazırlığı

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.
2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.
3. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.
4. Q.İ.Şukinanın redaksiyası ilə, Məktəb pedaqogikası, Bakı, 1983.
5. N.Kazımov, Ə.Həşimov. Pedaqogika, Bakı, 1996.

1. Məktəbəqədər tərbiyə müəssisələrinin əsasnaməsinə müvafiq olaraq dövlət orqanları, müəssisə, idarə və təşkilatlar, mülkiyyət formasından asılı olmayaraq yerli, xarici birliklər və təşkilatlar, ayrı-ayrı vətəndaşlar tərbiyə ocağı açа bilərlər.

Məktəbəqədər tərbiyə ocağının açılması haqqında qaydalar "Məktəbəqədər tərbiyə müəssisəsinə aid əsasnamə"də, Təhsil və Səhiyyə Nazirliklərinin təlimatı, məktub və qərarlarında öz əksini tapmışdır. "Məktəbəqədər tərbiyə müəssisəsinə aid əsasnamə"də qeyd olunur ki, məktəbəqədər tərbiyə müəssiəsi xüsusi tikilmiş və ya müvafiq şəraiti olan binalar olduqda açılır. Binada uşaq kontingenti, müxtəlif yaşlı uşaqların xüsusi rejim əsasında yaşayıb tərbiyə alması, sanitar-gigiyena qaydalarına uyğunluğu nəzərə alınır.

Binanın tikintisi qurtardıqdan sonra dövlət komissiyası qəbul edir. Yeni müəssisəyə rayon, şəhər təhsil şöbəsi tərəfindən nömrə və ya ad verilir. Müdir işlərin yerinə yetirilmə vəziyyətini yoxlayır, qrupların, xüsusən kiçik qrupların otaqlarda yerləşdirilməsini nəzərdən keçirir.

Məktəbəqədər tərbiyə müəssisəsinin istismara verilməsi ilə əlaqədar onun təchizi və fəaliyyəti üçün büdcədən pul vəsaiti ayrılır. Bundan sonra müdir zəruri avadanlıq və əyani vəsaitlərin alınması üçün siyahı tərtib edir. Avadanlıq, xüsusən mebel gigiyenik və pedaqoji tələblərə uyğun olmaqla uşaqların normal inkişafını təmin etməlidir.

Məktəbəqədər müəssisənin iş rejimi bağçanın pedaqoji və rayon təhsil şuralarında qəbul edildikdən sonra müvafiq təhsil idarəsi və ya müəssisənin tabe olduğu idarə, təşkilat və müəssisə tərəfindən təsdiq edilir.

Məktəbəqədər müəssisə və ya onun ayrı-ayrı qrupları həftədə 5,6,7günlük, bir və ya iki istirahər günü, eləcə də dəyişkən qrafik ilə işçilərə istirahət günü verməklə işləyə bilər.

Hər bir məktəbəqədər tərbiyə müəssisəsinə torpaq sahəsi verilir ki, uşaqlar hər fəsildə açıq və təmiz havada ola bilsinlər. Bina, torpaq sahəsi və avadanlıq uşaqların normal təlim-tərbiyəsi, istirahəti və yaşamasını təmin etməlidir.

2. Respublikamızda məktəbəqədər tərbiyə müəssisələrinin əksəriyyəti dövlətin ixtiyarındadır. Lakin özəl xarakterli uşaq bağçaları da mövcuddur. Dövlətin ixtiyarında olan məktəbəqədər tərbiyə müəssisəsi dövlət büdcəsi hesabına maliyyələşdirilir. Məktəbəqədər tərbiyə müəssisəsi üçün dövlət büdcəsindən müvafiq miqdarda vəsait ayrılır. Maliyyə vəsaitinin xərclənməsində valideynlər də fəal iştirak edə bilirlər. Valideynlərin bağçaya ödədikləri pul ata-ananın əmək haqqından asılı olur. Çoxuşaqlı ailələr, imkansız ailələr, Qarabağ müharibəsi əlilləri dövlət tərəfindən müəyyən güzəştlərə malik olurlar. Dövlət valideynlərin

ailə və iş şəraititndən asılı olaraq uşaqların gün ərzində, bəzən də şənbə və bazar günləri bağçada qalması üçün şərait yaradır.

Məktəbəqədər tərbiyə müəssisəsinin ehtiyacları dövlət maliyyə planında öz ifadəsini tapır ki, bu smeta adlanır. Smeta əsasında bağça il ərzində pulla təmin olunur. Smeta xüsusi formada doldurulur və respublika Maliyyə Nazirliyi tərəfindən təsdiq olunur. Smetanın yerinə yetirilməsinə rayon təhsil şöbəsi şöbəsi və ya bağçanın himayəsində olduğu təşkilat nəzarət edir. Yay-sağlamlıq tədbirləri üçün vəsait büdcəyə daxil edilmir. Bunun üçün dövlət ayrıca smeta tərtib edir. Smetada hər uşağa il ərzində xərclənən pul ayrıca göstərilir. Onun həcmi uşaqların sayından, bağçanın tipindən və vəziyyətindən asılı olur. Onda bağçanın körpələr evi və uşaq bağçası olması, qrupların sayı, uşaqların tam miqdarda toplanması, müəssisənin uzun müddət işləməsi nəzərə alınır. Bunlarla yanaşı, binanın həcmi, iş vaxtı, istilik xərci, su ilə təchizat da smetada nəzərə alınır. Smetaya işin məzmunundan asılı olaraq bağçanın bütün xərcləri, o cümlədən, əmək haqqı, sosial sığorta, dəftərxana və təsərrüfat xərcləri, uşaqların qidalanması, ezamiyyə, xidmət xərcləri, avadanlıq, binanın əsaslı təmiri, əlavə tikinti və s. təchizat xərcləri daxil edilir. Bağçanın müdiri smetada ayrılmış pulun düzgün və vaxtında xərclənməsinə ciddi nəzarət edir və məsuliyyət daşıyır.

Məktəbəqədər tərbiyə müəssisəsinin smetasında göstərilmiş vəsaitin düzgün xərclənməsi üçün həm rayon və şəhər maliyyə şöbələri, həm də Maliyyə Nazirliyi tərəfindən müntəzəm surətdə yoxlanılır.

3. Bağçaya uşaq qəbulu valideynlər və ya onları əvəz edən şəxslərin arzusu və iştirakı ilə aparılır. Bağçaya uşaq qəbulu müdir tərəfindən müvafiq qayda və tələblər əsasında həyata keçirilir. Valideynin və ya onu əvəz edən şəxsin ərizəsi əsas kimi qəbul edilir. Müdir bağçaya qəbul edilən uşaqların sayı, qrupların sayı, ictimai vəziyyəti haqqında rayon təhsil şöbəsinə məlumat verir. Məktəbəqədər tərbiyə müəssisəsində hər bir uşağın tərbiyəsinə ciddi qayğı ilə yanaşılır.

Bağçada pedaqoji kollektivə müdir rəhbərlik edir. Tərbiyəçilər bağçada pedaqoji prosesin həyata keçirilməsində aparıcı rol oynayırlar. Məktəbəqədər müəssisədə qruplar çox olduqda müdirə kömək üçün baş tərbiyəçi təyin olunur. Onun məktəbəqədər ixtisası üzrə ali təhsili, azı iki il pedaqoji stajı olmalıdır. Baş tərbiyəçi tərbiyəçilərin fəaliyyətini istiqamətləndirir və onların təkmilləşməsinə rəhbərlik edir. Müdir işgüzar, yaradıcı və məsuliyyət hiss edən işçi kollektivi formalaşdırmalıdır. Pedaqoji kollektiv biliyini elmi və metodiki cəhətdən dərinləşdirməklə tərbiyə işinin məzmununu təkmilləşdirməli, işin səmərəliliyini gündən-günə yüksəltməlidir. Bağçanın işçi kollektivinə dayə-xadimə, paltaryuyan, gözətçi, bağban və s. daxildir. Hər bir işçi fəaliyyətə başlayarkən bağçanın daxili qaydaları və əmək intizamına verilən tələblərlə tanış olmalıdırlar.

"Məktəbəqədər tərbiyə müəssisələri haqqında əsasnamə"yə görə uşaq bağçasında müəyyən işlər sənədləşdirlməlidir. Bağçanın əsasnaməsi, binanın

pasportu və əmr kitabı rayon təhsil şöbəsi tərəfindən təsdiq olunur. Əmr kitabının bütün səhifələri nömrələnir, tikilir, səhifələrin ümumi sayı göstərilir, möhür və imza ilə təsdiq olunur.

Uşaqlara məxsus uçot kitabında uşaqların və valideynlərin ev ünvanı, bağçaya daxil olması və bağçadan çıxması haqqında məlumat qeyd olunur. Xüsusi forma ilə hər gün uşaqların bağçaya davamiyyəti yoxlanılır. Bütün bunlarla yanaş, bağçada işçilərin və uşaqların şəxsi işləri, tibb kartoçkası, işçilərin davamiyyət qrafiki, onların iş vaxtını göstərən cədvəl, ayrı-ayrı vətəndaşların nəzərinə çatdırma və təkliflər kitabı saxlanılır. Pedaqoji şuranın protokollar kitabı, habelə sanitar jurnalı, avadanlıq və ərzaq alınmasına aid kitab, müəssisənin iş və perspektiv planı və s. saxlanılan əsas sənədlərdir.

4. Məktəbəqədər tərbiyə müəssisəsinin tərbiyəçisi uşaqların tərbiyəsini həyata keçirməklə onları təlim fəaliyyətinə hazırlayır. Tərbiyəçi ideya-siyasi cəhətdən zəngin, respublikamızın daxili və xarici siyasətini dərindən bilən, pedaqoji ustalığa malik olan yüksək ixtisaslı mütəxəssis olmalıdır.

Tərbiyəçinin pedaqoji ustalığı çoxsahəlidir. Tərbiyəçinin fəaliyyəti onun pedaqoji hazırlığı üzərində qurulur. O, biliyini daim artırır, təcrübəsini zənginləşdirir, uşaqlara məhəbbət və qayğı ilə yanaşır. Tərbiyə vermək bacarığına əzmlə yiyələnmiş tərbiyəçi yüksək mədəniyyətə malik olmalı, psixologiya və peşə metodikasını hərtərəfli bilməli, yüksək nüfuza və pedaqoji etikaya yiyələnməlidir. O, mədəni davranmalı, nəcib hərəkətlərə, rəvan nitqə, məlahətli səsə malik olmalı, bədii parçaları ifadəli oxumağı, rəqs etməyi və rəsm çəkməyi bilməlidir.

Tərbiyəçinin sənətkarlığı tədricən formalaşır. Ali və orta pedaqoji məktəbdə təhsil alarkən o, nəzəri biliyi təcrübədə tətbiq etmək imkanına malik olur.O, peşəsindən ilham alır və bu keyfiyyət onu ixtisasa dərindən yiyələnməyə sövq edir. Qabaqcıl tərbiyəçi bir sıra elmi, siyasi və pedaqoji tədbirlərin keçirilməsində öz təşkilatçılıq qabiliyyətini nümayiş etdirir. Yüksək siyasi və nəzəri hazırlığı ilə o, pedaqoji prosesə dialektik yanaşmağı bacarır, onun mahiyyətini dərindən başa düşür, qabaqcıl təcrübəyə yiyələnir, psixologiya və pedaqogika, xüsusən məktəbəqədər pedaqogika sahəsində aparılan yeni elmi tədqiqatlardan xəbərdar olur.

Yüksək ixtisaslı tərbiyəçi qabaqcıl təcrübəyə yiyələnməyi, pedaqoji yığıncaqlarda məruzə etməyi bacarmalı, mətbuatda məqalələrlə tez-tez çıxış etməli, özünün biliyi, elmi-pedaqoji qabiliyyətini daim zənginləşdirməlidir. Ailə ilə müntəzəm əlaqə saxlamaqla tərbiyəçi həm də valideynləri yeni pedaqoji biliklərlə məlumatlandırmalıdır.

Yaxşı tərbiyəçi öz qabaqcıl təcrübəsini dərin təhlil etməyi bacarır, onu düzgün qiymətləndirir. Əgər uşaqları düzgün tərbiyə edə bilirsə, proqram həcmində onlara

müəyyən bilik və bacarıq vərdişləri aşılayırsa, bu, tərbiyəçinin pedaqoji biliyinin və məharətinin nəticəsi kimi qiymətləndirilir.

5. “Məktəbəqədər tərbiyə müəssisələri haqqında əsasnamə”də qeyd olunur ki, məktəbəqədər tərbiyə müəssisəsində işləyən tərbiyəçinin xüsusi ixtisas təhsili olmalıdır. Bu mütəxəssislər dövlət və özəl statuslu məktəbəqədər pedaqoji texnikumlarda, kolleclərdə, ali pedaqoji kolleclərdə, pedaqoji institut və universitetlərin bakalavr və magistraturalarında hazırlanır. Uzun illərdir ki, respublikamızda N.Tusi adına Pedaqoji Universitetin məktəbəqədər pedaqoji fakultəsi fəaliyyət göstərir. 30 ildən yuxarı fəaliyyətdə olan bu fakultə 20 min nəfərə yaxın ali təhsilli tərbiyəçi hazırlayıbdır. Eyni sözləri Bakı,Gəncə, Naxçıvan dövlət pedaqoji universitetlərində fəaliyyət göstərən məktəbəqədər pedaqoji fakultələr haqqında da demək olar.

Məktəbəqədər tərbiyəçi ixtisası üzrə mütəxəssislər respublikamızda ali və orta pedaqoji təhsil müəssisələrində əyani və qiyabi yolla hazırlanır.

Kadr hazırlığında nəzəri və praktik cəhətdən ixtisasa yiyələnmə prosesi Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tədris planına əsasən həyata keçirilir. Məktəbəqədər tərbiyə üzrə ali təhsil almış gənclər magistratura təhsillərini davam etdirmək hüququna malikdirlər

6. Məktəbəqədər tərbiyə müəssisəsinin müdiri təşkilatçı və yaxşı rəhbər olmaqla yüksək ixtisaslı mütəxəssis olmalıdır. Müdir bağçada bütün tərbiyə və təlim işlərinə, təsərrüfat və maliyyə məsələlərinə görə məsuliyyət daşıyır.

Müdir öz fəaliyyətində Azərbaycan Respublikasının təhsil sistemi, xüsusilə məktəbəqədər tərbiyə sistemi qarşısında qoyulan tələbləri aydın dərl etməli və onları yaradıcılıqla həyata keçirməyə qabil olmalıdır. Məktəbəqədər təbiyə müəssisəsinin rəhbəri yüksək şüurluluq və siyasi hazırlığa malik olmalı, prinsipial, tabeliyində olan işçilərə yüksək məsuliyyət hissi ilə yanaşmalıdır. Müdir o vaxt həqiqi rəhbər ola bilər ki, bütüb işçiləri bacarıq və ixtisas baxımından düzgün yerləşdirsin, pedaqoji kollektivə rəhbərliyi elmi-metodiki istiqamətdə həyata keçirsin, kollektivdə pedaqoji prosesin gedişi vahidlik prinsipi əsasında tənzim olunsun.

Məktəbəqədər tərbiyə müəssisəsinin əsasnaməsinə görə müdir bütün dövlət, kooperativ, ictimai təşkilatlarda, idarə və müəssisələrdə rəhbərlik etdiyi müəssisəni təmsil edir. O, vəzifə səlahiyyəti daxilində əmr və sərəncamlar verir, bütün işçilərdən vəzifə borcunun icrasını tələb edir, lazım gələrsə, inzibati qaydada cəzalandırır. Müdir proqramın yerinə yetirilməsinə, valideyn komitəsi işinin istiqamətləndirilməsinə, uşaqların onların sağlamlığının qorunmasına məsuliyyət daşıyır. Müdir ictimai təşkilatlarla birgə işçilərin attestasiyasını keçirir, onlara metodiki köməklik göstərir, təlim prosesinin səviyyəsini yüksəltmək üçün operativ

tədbirlər görür, müvafiq əsasnaməyə uyğun olaraq şura yaradır. Şura üzvləri ümumi iclas tərəfindən seçilir.

Müdir bir rəhbər kimi öz ideya-siyasi hazırlığını, professional ustalığını daim yüksəltməli, pedaqoji biliklərə, tərbiyə və təlimin elmi-pedaqoji metodikasına dərindən yiyələnməli, biliyini təcrübədə tətbiq etməyi bacarmalıdır. Müdir fəaliyyətində istinad etdiyi proqramları, normativ və metodik sənədləri yaxşı bilməlidir. O, pedaqji prosesin mahiyyətinə daxil olmağı bacarmalı, nailiyyətləri və çatışmamazlıqları görməli, nöqsanların aradan qaldırılması üçün vaxtında və səmərəli yollar seçməyi bacarmalıdır. Müdir əməkdaşların iş vaxtından düzgün istifadə etmələrinə nəzarət etməlidir. Müdir son dərəcə təsərrüfatçı olmalı, xalq əmlakına böyük məsuliyyət hissi ilə yanaşmalıdır.

2. Bağça müdirinin işinin məzmunu qarşıya qoyulmuş məqsəddən irəli gəlməklə aşağıdakı bölmələri əhatə edir: idarə-təsərrüfatçılıq, təşkilati-pedaqoji fəaliyyət, metodik və tərbiyəvi işlərə rəhbərlik, valideynlərlə iş. Bütün bölmələr bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla bağçanın bütün fəaliyyətinin normal gedişini təmin edir.

İdarəçiliyə, təsərrüfatçılığa, təşkilati-pedaqoji işlərə rəhbərlik, bağçanın maddi-texniki bazasının möhkəmlənməsinə, uşaqlar üçün zəruri şəraitin yaradılmasına, onların tərbiyə və təliminin təşkilinə, kifayət qədər növbənöv yeməklərlə qidalanmasına, gün rejiminin düzgün qurulmasına yönəlməlidir. Müdir binanın təchizi, səliqəyə salınması, lazımi avadanlıqla təmin olunması, təmir işlərinin aparılması, pedaqoji vəsaitlər və oyuncaqların alınmasını təmin etməlidir. O, məktəbəqədər müəssisənin maliyyə-təsərrüfat işlərinə, kadrların seçilib yerləşdirilməsinə, yay sağlamlıq düşərgəsinin təşkilinə, uşaq bayramlarının keçirilməsinə, binanın sanitar-gigiyenik vəziyyətinin təşkilinə müntəzəm olaraq rəhbərlik edir. Tərbiyəçilərin yerləşdirilməsində mütləq onların təhsili, uşaqlarla iş təcrübəsi, şəxsi keyfiyyətləri nəzərə alınmalıdır.

Xidmət işçilərinə aşağıdakılar daxildir: təsərrüfat işləri üzrə müdir, mühasib, aşpaz, dayə-xadimə, paltarsaxlayan, paltaryuyan, elektrik montyoru, çilingər, dülgər, bağban, gözətçi və s. Təsərrüfat işləri üzrə müdir bütün texniki işçilərin fəaliyyətinə rəhbərlik edir və bağçanın avadanlığının qorunmasını, saxlanmasını, onlardan səliqə ilə istifadə edilməsini nəzarətdə saxlayır. Xidmət işçilərinin köməyi ilə bağçada səliqə-səhman yaradılır, qidalanma, uşaqlara xidmət kifayət qədər təmin olunur.

Bağça müdirinin fəaliyyətinin mühüm sahələrindən birini metodik işlər təşkil edir. Bura pedaqoji şura, məşğələlərə açıq baxış, gəzinti, oyun, pedaqoji kabinetin, qruplarla aparılan işlərin frontal və tematik qaydada təşkili, tərbiyə işləri üzrə planın yerinə yetirilməsi vəziyyətinin yoxlanması, fərdi və kollektiv məsləhət və s. daxil edilir.

3. Məktəbəqədər tərbiyə müəssisəsində pedaqoji şura müntəzəm fəaliyyət göstərən kollegial metodik-təşkilati orqandır. Şura tərbiyəçilərin peşə ustalığının artırılmasında müstəsna rol oynayır. Pedaqoji şura bağçada tərbiyə və təlimin səviyyəsini yüksəltməyə dair dövlət qərarlarının fəaliyyətdə tətbiq edilməsini təmin edir. Şura həm də valideyn komitəsinin fəaliyyətini, işçilərin qabaqcıl təcrübəsini müəyyən edir, qabaqcıl tərbiyəçilərin yaradıcılıq fəaliyyətini maddi və mənəvi cəhətdən mükafatlandırılması və s. məsələləri hərətərəfli müzakirə edir və nəticələrin icrası haqqında qərar çıxarır.

Şura məktəbəqədər tərbiyə müəssisəsində pedaqoji prosesin əsas istiqamətini müəyyən edir, tərbiyə və yəlim proqramını təsdiq edir, metodik işləri müzakirə edir, kadrların yenidən hazırlanması və ixtisasının artırılması məsələlərini müntəzəm olaraq tənzimləyir. Pedaqoji şuranın işi müdir tərəfindən tərtib olunmuş və şurada təsdiq olunmuş illik plan əsasında tənzim olunur. Burada müəssisənin aktual məsələləri, pedaqoji-metodiki, maddi-texniki problemlər müzakirə edilir və həmçinin onların perspektiv istiqaməti müəyyən edilir. Pedaqoji şurada müzakirə olunan məsələlərə elmi-metodiki yanaşma tərzi, qəbul olunmuş qərarların vaxtında və düzgün icrasını təmin etmək, konkret məsələlərə nail olmaq kollektivin pedaqoji səriştəsindən çox asılıdır.

Pedaqoji şuranın tərkibi aşağıdakı qaydada seçilir: müdir, baş tərbiyəçi, tərbiyəçilər, musiqi rəhbəri, həkim, valideyn komitəsinin sədri. Şuranın bütün üzvləri həlledici səsə malik olur. Şuranın tərkibinə daxil olanların sayı azı kollektivin 2/3 hissəsini təşkil etməlidir. Şuranın sədri bağçanın müdiri seçilir. Şuranın iclası ayda bir dəfədən az olmayaraq keçirilir. Pedaqoji şuranın katibi 1 il müddətinə seçilir.

Pedaqoji kabinə isə tərbiyəçilərə metodik köməklik göstərmək üçün təşkil olunur. Kabinetdə zəruri siyasi, pedaqoji, metodiki, uşaq ədəbiyyatı, əyani vəsaitlər toplanır, mühüm sənədlərdən nümunələr (illik temarik plan, hesabatlar və s.) qoyulur. Tərbiyəçilərin qabaqcıl təcrübəsinə aid sənədlər, tərbiyə işlərinə aid hesabatlar, uşaq oyunlarına aid qeydlər, valideyn yığıncaqlarına aid protokollar, açıq məşğələlərin müzakirə protokolları, və s. pedaqoji kabinənin sənədləri arasında mühüm yer tutur. Kabinə müdiri müvafiq qruplar üzrə tərbiyə və təlim işlərinin planlaşdırılmasına kömək edir, qabaqcıl təcrübəni yaymaq məqsədilə tərbiyəçilərin məşğələlərində olur, müsbət cəhətləri qeyd edir, nöqsanları aradan qaldırmaqda köməklik göstərir.

4. Uşaq bağçalarında tərbiyəçilərin ideya-siyasi, pedaqoji və metodiki ustalığının artırılması işinə müdir bilavasitə özü rəhbərlik edir. Müəssisə daxilində ixtisasartırma işləri müntəzəm aparılmalı, elmi seminarlar, metodik təhlillər, qabaqcıl təcrübənin müzakirəsi və s. tədbirlər həyata keçirilməlidir. Belə tədbirlərdə tərbiyəçilər Azərbaycan Respublikasının daxili və xarici siyasətini dərindən öyrənir, təhsilə aid, xüsusən, məktəbəqədər tərbiyəyə aid qərar və göstərişləri hərətəfli mənimsəyirlər. Bağçada tərbiyəçilər, habelə texniki işçilər

üçün respublikamızın beynəlxalq aləmdə yeri, müxtəlif beynəlxalq təşkilatların nümayəndələri ilə keçirilən görüşlər, ölkə daxilində baş verən iqtisadi-siyasi dəyişikliklərin təhlilinə aid mühazirələr təşkil olunur. Bütün bunlarla yanaşı, tərbiyəçilər beynəlxalq miqyasda uşaq hüquqlarınınmüdafiəsi, uşaq xəstəliklərinin qarşısının alınması, uşaqlara qarşı humanist münasibətlərin ictimai münasibətlər kimi formalaşdırılması və s. tədbirlərdən geniş istifadə olunur.

Pedaqoji ixtisasın artırılması üçün pedaqoji və metodiki şurada, direktoryanı müşavirədə, metodkabinədə, yeni nəşr olunmuş ədəbiyyatlardan nümunələr, jurnal və qəzet məqalələri öyrənilir, təhlil edilir. Tərbiyəçilər metodiki kabinənin təşkil etdiyi siyasi, elmi, pedaqoji, metodiki və s. tədbirlərdə fəal iştirak etməlidir. Mövcud qərara görə hər bir tərbiyəçi hər 5 ildən bir ixtisasartırma kursuna göndərilməlidir.

Tərbiyəçilərdə özünütəhsil yaradıcı olmalı, ixtisas üzrə yeniliklər dərindən öyrənilməli, təhlil olunmalı və təcrübədə tətbiq olunmalıdır. Bütün öyrənilənlər uşaqların tərbiyəsinin inkişaf səviyyəsində, tərbiyəçinin uşaqlar, valideynlər arasında nüfuzunun yüksəldilməsində öz ifadəsini tapmalıdır.

Məktəbəqədər tərbiyə müəssisəsi ailə ilə sıx əlaqədə uşaqların tərbiyəsini təşkil edib həyata keçirməlidir. Valideynlərlə işə bağça müdiri rəhbərlik edir. O, hər bir ailənin sosial tərkibini, valideynlərin peşəsini və iş yerini, məişət şəraitini yaxşı bilməlidir. Bağça müdirinin bilavasitə rəhbərliyi ilə valideyn komitəsi fəaliyyət göstərir. Müdir işgüzar, məzmunlu, yaradıcı şəkildə ailələr ilə əlaqəni təşkil etməli, möhkəmləndirməlidir.

5. Məktəbəqədər tərbiyə işləri üzrə inspektorun işi çoxsahəli və mürəkkəbdir. Uşaq bağçası inspektoru öz fəaliyyətini təhsil haqqında qanuna və dövlət qərarlarına, "Məktəbəqədər təlim-tərbiyə müəssisələri haqqında əsasnamə"yə uyğun qurur, Təhsil Nazirliyinin təlimatlarından, metodik sənədlərdən faydalanır. İnspektor rayon (şəhər) məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji prosesin metodoloji əsaslarla həyata keçirilməsini tənzimləyən dövlət nəzarətçisidir.

İnspektor möhkəm ideya-siyasi əqidəyə, humanist mənəviyyata, zəngin pedaqoji təcrübəyə və yüksək nəzəri biliyə malik olmalıdır. Məktəbəqədər tərbiyə müəssisələrinin inspektoru yüksək pedaqoji səriştəsi ilə problemlərin elmi-metodoloji əsaslarla həll olunmasına məsuliyyət daşıyan ilk rəsmi dövlət nümayəndəsidir. O, məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim şərtlərinin yüksək səviyyədə təşkil olunmasına və həyata keçirilməsinə cavabdehdir.

İnspektor öhdəsində olan regionda məktəbəqədər tərbiyə müəssisələrinin işçiləri ilə müntəzəm metodiki işlər aparır və kadrların təkmilləşməsinə kömək

edir. Xüsusən gənc kadrların yetişdirilməsi və tərbiyə olunmasına qayğı ilə yanaşmalıdır.

Məktəbəqədər tərbiyə müəssisələrinin inspektoru tərbiyə, təlim, metodiki, idarəetmə-təsərrüfat işlərinin vəziyyətini müntəzəm olaraq hərətərəfli öyrənməli, müvafiq nöqsanları vaxtında aşkar etməli, onların yaranma səbəblərini araşdırmalı və aradan qaldırılması üçün səmərəli tədbirlər həyata keçirməlidir.

Bağçanın perspektiv və illik iş planının tərtibində məktəbəqədər tərbiyəyə aid dövlət qərar və göstərişləri , Təhsil Nazirliyinin təlimati məktubları və s. sənədlərin məzmunu nəzərə alınır. Bağçanın iş planında bir sıra bölmələr öz əksini tapır: 1. Giriş hissəsi;

2. Əsas təşkilati işlər; 3. İdeya-siyasi səviyyəni yüksəltmək; 4. Pedaqoji və metodiki işlər; 5. İxtisasartırma; 6. Valideynlərlə iş; 7. İdarə və təsərrüfat işləi; 8. Tibbi tədbirlər;

9. İstehsalat və kütləvi işlər; 10. Uşaqların sağlamlığı və fiziki tərbiyəsinə aid tədbirlər.

MÖVZU 29-30: Məktəbəqədər tərbiyə müəssələrinin ailə ilə birgə işi.

PLAN

: 1. Ailədə valideynin nüfuzu və şəxsi nümunəsi

2. Ailədə valideynin pedaqoji taktı

3. Ailədə məişət mədəniyyəti

4. Bağçanın ailə ilə fərdi əlaqə formaları

5. Bağçanın ailə ilə kollektiv əlaqə formaları

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2000.

2. A.Həsənov. Məktəbəqədər pedaqogika, Bakı, 2000.

3. S.Əfəndiyeva, A.Cəfərova. Uşaq bağçasında tərbiyə işinin təşkili, Bakı, 1970.

4. M.Muradxanov. Məktəblilərin ailədə tərbiyəsi, Bakı, 1972.

5. Uşaq bağçası. "Maarif", Bakı, 1988.

6. R.Mursaqulova.N.rüstəmova.Məktəbəqədər pedaqogika-Baki-2012.

1. Uşaq bağçası bütün fəaliyyəti ilə uşaqların ailə tərbiyəsini təşkil etmək, ona pedaqoji istiqamət vermək və bu yolla onların hərtərəfli inkişafını təmin etməlidir. Ailə uşağın tərbiyəsi üçün cəmiyyət qarşısında məsuliyyət daşıyır. Uşaqğın ailədə necə tərbiyə olunması onun uşaq bağçasındakı tərbiyəsinə də ciddi təsir göstərir.

Ailədə valideynin nüfuzu və şəxsi nümunəsi tərbiyənin mühüm şərtlərindəndir. Valideynin nüfuzu dedikdə, uşaqların öz ata-analarına hörməti, onların tapşırıqlarını sözsüz və şüurlu surətdəyerinə yetirmələri və məsləhətlərinə qulaq asmaları nəzərdə tutulur. Bəs valideynlər uşaqlar arasında nüfuzu necə qazanmalıdırlar?

Aydındır ki, ailədə valideynlərin nüfuzu yoxdursa, belə ailələrdə münasibətlər pozulur. Valideyn sözünün kəsəri onun nüfuzu ilə müəyyən edilir. Bəzi atalar evdə həmişə qışqırmaq, uşağı döymək, onu qorxutmaq yolu ilə nüfuz qazanmağa çalışırlar. Onlar hamını, hətta ananı da qorxu altında saxlayır və bununla da tərbiyə işinə böyük zərər vururlar. Belə şəraitdə uşaq yalançı, əliəyri, ikiüzlü böyüyür.

Uşağı həddən artıq əzizləmək, onun arzu və istəklərinin qulu olmaq, istədiyi gərəkli-gərəksiz şeyləri almaq da uşaqların ərkəsöyün böyüməsinə səbəb olur. Bununla da ailədə xudbin, şıltaq bir məxluq böyüdürlər.

Nüfuz uşaqlarla münasibətindən asılı olmayaraq valideynin öz varlığında olmalıdır. Onun kökü valideynin vətəndaşlıq simasında, davranışında, ailədə, cəmiyyət arasında özünü mədəni aparmasında və digər əxlaqi keyfiyyətlərindədir. Ata və ana öz valideynlik vəzifəsini namusla, ağılla yerinə yetirirlərsə, onlar öz qarşılarına hərtərəfli inkişaf etmiş adamlar tərbiyə etməyi məqsəd qoymuşlarsa, öz əməlləri və hərəkətləri haqqında özlərinə hesabat verirlərsə, onda yüksək valideyn nüfuzundan danışmaq olar. Belə valideynlər heç vaxt süni nüfuz dalınca qaçmırlar. Valideynin əməkdə, ictimai həyatda qabaqcıl mədəni və yüksək əxlaqi keyfiyyətlərə malik olması onun ailədə şəxsi nüfuz qazanması üçün mühüm şərtlərdəndir. Bundan əlavə valideynin öz uşaqlarının həyatını, maraq və meylini, bacarıq və qabiliyyətini yaxşı bilməsi də nüfuz qazanmaq üçün qiymətli əlamətlərdir. Valideyn əxlaqi hərəkətlərinə, davranışına xüsusi əhəmiyyət verməlidir. Müsbət əxlaqi keyfiyyətlərə malik olan valideyn öz övladlarına həmişə, hər yerdə nümunə ola bilər.

2. Uşaq tərbiyəsində bəzən elə vəziyyət yaranır ki, tərbiyəçi hansı təsir vasitəsi seçmək üzərində düşünür, uşağın yaşını, fərdi xüsusiyyətini və anlaq səviyyəsini nəzərə almaqla qərar qəbul edir və dərhal düzgün tərbiyə metodu tətbiq edir. Belə çətin vəziyyətdə ani olaraq düzgün tərbiyə metodu seçib tətbiq etməyə pedaqoji bacarıq və ya pedaqoji takt deyilir. Qeyd etmək lazımdır ki, adi münasibətlərdə də "mərifətli adam", "mərifət sahibi" kimi ifadələr işlədilir. Bu, davranış normalarına, əxlaq qaydalarına riayət etməklə əlaqədar işlənən mərifət sözüdür. Pedaqoji mərifət isə tərbiyəçinin məharəti, uşaq tərbiyə etmək bacarığı və qabiliyyəti ilə əlaqədardır. Pedaqoji mərifət valideynlə uşaq arasında düzgün münasibət yaranmasına kömək etməklə yanaşı, valideynin bir tərbiyəçi kimi bacarığını təsdiq edir. Pedaqoji mərifət tərbiyəçidə aşağıdakı keyfiyyətlərin olmasını tələb edir: 1. Uşağın fərdi xüsusiyyətlərinə bələd olmaq, ailədə digər uşaqların tətbiq ediləcək təsir vasitəsinə uyğun olaraq özünü necə aparacağını qabaqcadan təyin etmək; 2. Uşaq şəxsiyyətinə hörmət göstərildiyi qədər də tələblər vermək; 3. Uzun-uzadı düşünmədən təsir vasitəsi seçib tətbiq etmək.

Uşaq şəxsiyyətinə hörmət göstərmək valideyndən səbrli, təmkinli olmağı tələb edir. Ailədəki hər bir uşaqğın fərdi xüsusiyyətlərini bilmək, uşağın naqis hərəkəti üçün əsəbiləşib özündən şıxmamaq, fiziki cəzaya əl atmaq kimi qeyri-pedaqoji metodlardan uzaq olmaq, tədricən pedaqoji biliklərə yiyələnmək uşaq tərbiyəsində mühüm rol oynayır.

Valideynin uşaq hərəkətindəki müvəffəqiyyəti vaxtında görməsi, qiymətləndirməsi də tərbiyəvi baxımdan çox əhəmiyyətlidir. Uşaq bundan ruhlanır və fərəh hissi keçirir.

Pedaqoji mərifət valideyndən istənilən şəraitdə əsəbini ləngitməyi tələb edir. Bu və ya digər hadisə ilə əlaqədar valideynin əsəbiləşib tez-tez özündən çıxması onun

uşaq tərbiyəsində bacarıqsızlığının, gücsüzlüyünün əlamətidir. Ancaq bu heç də o demək deyil ki, valideyn heç vaxt ciddi tonla danışıb uşağa qəti tələb verməməlidir.

Pedaqoji mərifətdə etibaretmənin də əhəmiyyəti böyükdür. Valideyn uşağa nə qədər çox inam bəsləsə, onun sabahını düzgün görsə, ona bir o qədər etibar edə bilər. Etibar ləyaqət hissi tərbiyə edir, uşaqda özünütərbiyə hissi yaradır, uşaq şəxsiyyətinin düzgün formalaşmasına kömək edir.

3. Ailədə məişət mədəniyyəti anlayışı altında düzgün münasibət, qarşılıqlı hörmət, ailə həyatının ağıllı təşkili, ev şəraiti, vaxtın səmərəli təşkili və s. nəzərdə tutulur. Belə şəraitdə uşaqlar müstəqil düşünməyi, fakt və hadisələri qiymətləndirməyi öyrənir, düzgün mühakimələrə öz müsbət münasibətini bildirir, qeyri-həqiqi fikri qəbul etmirlər. Səmimi və azad keçirilən söhbətlər uşaqlarla valideynlər arasında yaxınlığı gücləndirir, valideyn təsirini daha kəsərli edir.

Tərbiyə işində nöqsanlar o zaman baş qaldırır ki, ailənin ümumi həyat tərzi yaxşı təşkil olunmasın, rejim pozulsun, böyüklər arasında vəzifə bölgüsü düzgün aparılmasın, məşğuliyyətsizlik üzündən uşaqlar istədikləri kimi hərəkət etsinlər və s. Bəzən belə ailələrdə köhnə adət və ənənələr uşaq xarakterinə yol tapır. Qadına qeyri-adi münasibət, spirtli içkilərə həddən artıq meyl, fala və yuxuya inam və s. Belə qüsurların uşaq xarakterinə yol tapmasına yol vermək olmaz. Xüsusilə, məktəbəqədər yaşlı uşaqların hiss və həyəcanlarının güclü, həyat təcrübəsinin azlığını nəzərə alıb onları belə hallardan uzaq saxlamaq lazımdır. Qeyd olunan qüsurlara malik ailələrdə məktəbəqədər yaşlı uşaqlar özlərini qapalı aparır, dalğın və bəzən də kobud olurlar.

Uşaqlarda müstəqilliyi gücləndirmək, çətinliyi aradan qaldırmaq bacarığı formalaşdırmaq və uşaq iradəsini möhkəmləndirmək mühüm problemlərdəndir. Hər bir ailədə uşağın normal inkişafı üçün şərait yaradılmalıdır, oyun və digər məşğələlər üçün guşə təşkil edilməli, fərdi çarpayı, dəsmal, qab, paltarlarını və ayaqqabılarını qoymaq üçün yer ayrılmalıdır. Uşaqlar evdə təmizlik və səliqəyə əməl etməli, onlarda kiçik yaşlarında əşyalara, oyuncaqlara və kitablara ehtiyatla yanaşma vərdişləri yaradılmalıdır.

Tərbiyə işlərini həyata keçirərkən valideyn hər bir uşağın fərdi xüsusiyyətini öyrənməlidir. Fərdi yanaşma valideynə imkan verir ki, hər kəsin xasiyyətindəki fərdi fərqləri ayırd edə bilsin və hər kəsin öz xüsusiyyətinə uyğun yanaşna üsulu tətbiq etsin.

Pedaqoji biliklərə yiyələnmək, uşaq aləminin incəliklərinə varmaq və uşaqları münrəzəm müşahidə etməklə, onların oyuna, əməyə, ətrafdakı adamlara mədəni münasibətlərini qaydaya salmaq olar.

4. Bağçanın ailə ilə fərdi əlaqə formalarından biri uşağın yaşayış və tərbiyə şəraitini öyrənmək üçün müdirin, tərbiyəçinin və həkimin ailəyə getməsidir. Qabaqcıl tərbiyəçilər ailəyə gedərkən qabaqcadan ciddi hazırlaşır, uşaq haqqında

fikirlərini ümumiləşdirir, valideynlərə nəyi deyəcəyini hərtərəfli düşünürlər. Görüş zamanı tərbiyəçilər valideynlə uşaq haqqında söhbəti onun müsbət cəhətlərindən başlayırlar. Söhbəti yalnız uşaq xarakterindəki nöqsanlardan başlayıb valideyndə pis əhval-ruhiyyə, ailədə əsəbi şərait yaradan tərbiyəçilərheç də düzgün hərəkət etmirlər. Uşağın müsbət cəhətini nəzərə çatdırdıqdan sonra onun nöqsanlarından söhbət açması, tərbiyəçinin ailəyə gedişi zamanı səmərəli nəticə verir. Tərbiyəçi ailəyə gedişi ilə valideynlərə konkret məsləhət verməli, lazım gəldikdə rejim tərtib etməli və bunun əhəmiyyətini valideynlərə başa salmalıdır. Ailəyə gediş zamanı uşağın özü ilə də görüşmək lazımdır. Tərbiyəçi bir ildə azı iki dəfə hər uşağın ailəsinə getməli, məsləhətlər verməli və nəticəni izləməlidir.

Valideynlərin bağçaya dəvət edilməsi də ailə ilə əlaqədə mühüm əhəmiyyət kəsb edir. Valideynin bağçaya gəlişi onun pedaqoji yeniliklərlə tanış olması, uşaq haqqında dəqiq məlumat alması və övladının kollektivdə özünü necə aparması haqqında məlumat alması üçün ən səmərəli yoludur. Tərbiyəçi çalışmalıdır ki, belə görüşlərdə valideyndə nikbin əhval-ruhiyyə yaratsın, bağça ilə ailə arasında əlaqə daha da möhkəmlənsin. Valideyn bağçaya gələrkən çalışmalıdır ki, müdirlə, həkimlə, musiqi müəllimi ilə, hətta dayə və aşpazla da görüşə bilsin. Bu zaman valideyn uşağın musiqi marağı, sağlamlığı, əməksevərliyi, iştahası və s. haqqında geniş məlumat ala bilər ki, bunlar da uşağın ailə tərbiyəsinə ciddi müsbət təsir göstərə bilər.

Fərdi əlaqə formalarından biri də valideynlərlə yazışmalardır. Bu əlaqə forması müstəsna hallarda təşkil olunur. Valideyn məzuniyyətdə olanda bəzən uşaq da onunla bağa və ya sanatoriyaya istirahətə gedir. Məktub vasitəsilə tərbiyəçi uşağın səhhəti, davranışı haqqında məlumat alır, valideynləri maraqlandıran suallara cavab verir. Pedaqoji yenilikləri valideynlərə çatdırmaq məqsədilə bağçada sərgi və guşələr təşkil etməyin də böyük əhəmiyyəti var.

5.Bağça ailə ilə əlaqənin kollektiv formalarından da istifadə edir. Uşaq bağçalarında aparılan kollektiv iş formalarından ən çox yayılanı valideyn yığıncaqlarıdır. Belə yığıncaq bütün valideynlər üçün ümumi və ya qrup valideynləri üçün ayrıca keçirilə bilər. Yığıncaqda müəyyən dövr üçün bağçada aparılan təlim-tərbiyə işlərinin vəziyyəti, qarşıda duran vəzifələr, valideyn komitəsinin fəaliyyəti, ailə tərbiyəsində qabaqcıl təcrübə və onlardan istifadə yolları və s.müzakirə oluna bilər. Əsas məlumatı müdir və ya tərbiyəçi-metodist verə bilər. Çıxışlarda nöqsanlardan, müvəffəqiyyətlərdən, ailə ilə əlaqənin möhkəmlənməsi yollarından bəhs olunur.

Qrup valideyn yığıncağının hazırlanmasında qrupun tərbiyəçisi mühüm rol oynayır. Burada uşaqların oyunları, əməyi, rejimi, sağlamlıq haqqında həkim söhbəti, qabaqcıl valideynlərin uşaq tərbiyəsindəki iş nümunələrindən danışıla bilər.

Bir sıra uşaq bağçalarında “Valideyn universiteti” və “Pedaqoji lektoriya” da təşkil olunur. Bu unuversitet və lektoriyalar valideynləri müntəzəm olaraq pedaqoji biliklər və təlim-tərbiyəyə aid son yeniliklərlə silahlandırır.

Bağçada valideyn komitəsinin işi də çox əhəmiyyətlidir. Bağçanın valideyn komitəsi özünün daimi və müvəqqəti komissiyaları, eləcə də valideyn fəalları ilə aşağıdakı işləri həyata keçirir: 1. Uşaqların ailədə tərbiyəsinin ümumi qoyuluşuna nəzarət etmək və valideynlərin müxtəlif tərbiyə tədbirlərinin təşkilinə cəlb edilməsi; 2. Uşaqların bağçaya davamiyyətinə nəzarət və əmək tərbiyəsinin təşkili; 3. Ailədə uşaqların tərbiyəsinə aid əsas tələbləri valideynlərə və əhaliyə izah etmək, onlar arasında pedaqoji təbliğatın təşkili, valideynlər üçün məruzə və mühazirələrin təşkili; 4. Bağçanın təsərrüfat, tədris və maddi bazasının möhkəmləndirilməsi, abadlaşdırılması üzrə tədbirlərin keçirilməsi.

Valideyn komitəsi iki aydan bir öz iclasını keçirir, onun qərarları uşaq bağçasının rəhbərliyi ilə razılaşdırılır. Valideyn komitəsi müdirin hər hansı bir problemə və yaxud gələcək işlərə aid hesabatını dinləməlidir. Valideyn komitəsinin fəaliyyəti iş planı və hesabatda, iclas protokollarında əks olunur və sənədlər bağçada qorunur.

Mövzu: 22. Uşaq oyunlarının növləri. Oyuncaqlar.

PLAN:

1. Məktəbəqədər yaşlı uşaqların həyatında oyunun əhəmiyyəti.

2. Uşaq oyunlarının növləri.

3. Uşaq bağçasında oyun uşaqların tərbiyə vasitəsi kimi.

4. Oyuncaq və onun növləri.

ƏDƏBİYYAT:

1. A. Həzənov. Məktəbəqədər pedaogika. Bakı-2000.
2. R.Mursaqulova. N. Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012.
3. S.Abdullayeva. Tərbiyəçinin stolüstü kitabı. Bakı-2008.
4. Uşaq bağcası. Maarif nəşriyyatı. -1988
5. Məktəbəqədər yaşlı uşaqlar üçün Müntəxabat. Bakı-2000.
6. Məktəbəqədər təhsilin yeni məzmunun xüsusiyyətləri. (Metodik tövsiyə) Bakı-2014.
7. Azərbaycan Respublikasında Məktəbəqədər təhsil proqramı (Kurikulumu) ,(3-6 yaş) Bakı-2014

1. Məktəbəqədər yaşlı uşaqların həyatında oyun müstəsna əhəmiyyətə malikdir. Onlar oyun prosesində həyatı dərk etməyi öyrənirlər. Uşaq oynayarkən materialın rəngini, formasını, xassələrini, məkan münasibətlərini, kəmiyyətini öyrənir, bitkilər, heyvanlar haqqında müəyyən təsəvvür əldə edirlər. Xüsusən məktəbəqədər dövrdə oyun uşağı daha çox cəlb edir, onun əsas məşğuliyyəti olur.

Oyun zamanı uşaqlarda yaşlıların bir çox keyfiyyətlərinə maraq yaranır, onlara bənzər hərəkət edir, danışır, qavrayır və düşünürlər. Oyun prosesində onların təsəvvürləri, hafizəsi fəal olur, hissləri və iradi keyfiyyətləri sürətlə inkişaf edir. Yaxşı oyun uşaqlarda əqli və fiziki qüvvəni səfərbər edir. Məqsədə müstəqil surətdə nail olma, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq uşaq oyununun başlıca məqsədini təşkil edir.

Oyun məktəbəqədər dövrdə tərbiyənin başlıca vasitəsidir. Birinci növbədə bu, uşaqların əqli tərbiyəsini inkişaf etdirir. Oyun zamanı uşaqlarda ətraf aləm haqqında təsəvvür və anlayışlar inkişaf edir, təkmilləşir, dürüstləşir və bunların əsasında əqli qabiliyyət formalaşır. Uşaqlar istədikləri əşyalarla yaxından tanış olurlar.

Oyun uşaqların nitqinə də güclü təsir göstərir. Oyunun sözlə müşaiyət olunması, hərəkətlərin sözlə ifadə edilməsi, obrazların yaradılması uşaqların lüğət tərkibinin zənginləşməsinə kömək edir. Xüsusilə kollektiv oyun zamanı söz ünsiyyət vasitəsi olur.

Oyun uşaqlarda psixi proseslərin, fərdi-psixoloji xüsusiyyətlərin, xüsusilə iradə və xarakterin, kollektivçilik hissinin inkişafına və formalaşmasına güclü təsir göstərir. Uşaqların estetik, əməksevərlik tərbiyəsində, fiziki inkişafında, xarakterin özülünün qoyulmasında oyun əvəzedilməz vasitə rolunu oynayır. Oyun prosesi uşaqlarda hiqiqi və dolğun hisslər yaradır. Oyun əksər hallarda uşaqlara sevinc,

fərəh hissi gətirir. Oyunda sevinc və fərəh hissi olmasa o, öz əhəmiyyətini itirər.Əksər oyunlar kollektiv xarakter daşıdığından belə oyunların keçirilməsi uşaqlarda həmrəylik, yoldaşları ilə hesablaşmaq, çətin anlarda bir-birinə kömək etmək, ədalətli olmaq kimi çox mühüm əxlaqi keyfiyyətlərin yaranmasına kömək edir. Bütün bu keyfiyyətlərin məktəbəqədər yaşlı uşaqlara aşılanmasında tərbiyəçinin pedaqoji və metodiki hazırlığı mühüm əhəmiyyətə malikdir.

2. Uşaq oyunları öz növlərinə, rəngarəngliyinə, məzmununa, təşkilinə, xarakterinə və s. görə fərqləndirilir. Pedaqoqlar məktəbəqədər yaş dövrü üçün oyunları iki böyük qrupa bölürlər: yaradıcı və qaydalı oyunlar.

Yaradıcı oyunlar uşaqların özləri tərəfindən düşünülb düzəldilir və həyata keçirilir. Uşaqlar həyatda gördükləri cisim və hadisələr haqqında təsəvvürlərini, düşüncələrini uyğun oyuna gətirirlər. Belə oyunlarda uşaqların yaradıcı təxəyyülü mühüm rol oynayır. Oyunun mövzusunun seçilməsi və qaydaların müəyyən edilməsində az da olsa, uşaq yaradıcılığı özünü göstərir. Uşaq gördüklərini eyni ilə oyunda əks etdirmir. Bu, onların təqlidi, fantaziyaları ilə birləşir. Oyunu özləri istədiyi kimi keçirən uşaqlar rollarda çıxış etməyə daha çox üstünlük verirlər. Uşaqlar oynadığı rola öz münasibətini göstərir. Bu zaman onlar fikir və hisslərini ifadə edirlər.

Qaydalı oyunlar uşaq həyatına yaşlılar tərəfindən gətirilir. Oyunun məzmununun və qaydaların mürəkkəbliyindən asılı olaraq belə oyunlar müxtəlif yaş dövrü üçün qruplaşdırılır. Qaydalı oyunların yüksək təlim-tərbiyəvi əhəmiyyəti vardır. Bu oyunlar uşaqların hərəkətlərini inkişaf etdirir, onların təbiətlə, ətraf hadisələrlə yaxınlığını təmin edir. Qaydalı oyunlar da öz növbəsində mütəhərrik və didaktik olmaqla iki yerə bölünür.

Mütəhərrik oyunlarda hərəkilik mühüm yer tutur: topu atmaq-tutmaq, yüyürüb yoldaşa çatmaq,qatarın,avtomaşının hərəkətini təsvir etmək, sürücü kimi çıxış etmək və s.

Didaktik oyunlarda isə oynayanın qarşısında əqli vəzifə qoyulur. Heyvan şəkillərini cinsinə və növünə görə qruplaşdırmaq, deyilmiş tapmacanı tapmaq və s. Didaktik oyunlar uşaqların zehni tərbiyəsində mühüm rol oynayır. Lakin bu iki oyun növünü – mütəhərrik və didaktik oyunları ancaq fiziki və əqli tərbiyə vasitəsi kimi hesab etmək olmaz. Mütəhərrik oyunlarda da nitq və düşüncə inkişaf etdirilir, didaktik oyunlarda hərəkətlər, intizam, iradə və xarakter tərbiyəsi mühüm yer tutur. Deməli, hər iki oyunda ümumi cəhətlər olduğu kimi, fərqli əlamətlər də vardır. Hər iki oyunda qarşıya aydın məqsəd qoyulur ki, bu da oyunun məzmunundan irəli gəlir.Başlıca fərq burasındadır ki, yaradıcı oyunlar uşaqlar tərəfindən, qaydalı oyunlar isə böyüklər tərfindən yaradılır.

3. Oyun uşaq fəaliyyətinin çox vacib və ciddi vasitələrindən biri olmaqla onun hərtərəfli inkişafına və didaktik məqsədlərə xidmət edir. Buna görə oyun uşaq bağçasında əvəzedilməz tərbiyə vasitəsidir. Uşaqların bağçada həyata keçirdikləri didaktik oyun təlimi müstəqil metod kimi qiymətləndirilir. Uşaq oynaya-oynaya

riyazi əməliyyatla məşğul olur, ətraf mühiti, sadə maşın oyuncaqlarının işləmə prinsipini öyrənir. Oyunun dramlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Dramlaşdırma bu və ya digər bədii əsərin məzmununu öyrənməyə, hadisənin daxilinə girməyə kömək edir. Belə halda oyun öyrədici, təlimləşdirici xarakter daşıyır.

Uşaq həyatını əhatə edən oyunlar müxtəlif forma və məzmunda təkrar olunur. Oyun səhər yeməyindən əvvəl və sonra gəzintidə, məşğələdən sonra, axşamüstü evə gedənə kimi davam etdirilir. Səhər çox hərəkət tələb edən oyunların keçirilməsi məsləhət görülmür. Belə oyun fərdi və ya çox da böyük olmayan qrupla keçirilə bilər. Belə oyunun məzmununa didaktik oyuncaqlar, stolüstü çap olunmuş və süjetli-rollu oyunları daxil etmək məqsədəmüvafiqdir.

Gəzinti zamanı hərəki oyunların təşkilinə geniş yer vermək və bu zaman təbiət materiallarından istifadə etmək faydalı sayılır. Bu zaman çox da material tələb etməyən tikinti-quraşdırma, konstruktiv oyunlar da keçirmək olar.

Axşam vaxtı məzmunlu və geniş səviyyəli oyunlar keçirmək, yaradıcı, hərəki və didaktik oyun növlərinə geniş yer vermək olar. Oyun üçün müəyyən edilmiş vaxt rejimi uşaqların müstəqil oyun fəaliyyətinin təşkilində, ondan uşaq həyatının təşkili və tərbiyə vasitəsi kimi istifadə etməkdə mühüm əhəmiyyət kəb edir.

Oyun əməklə də əlaqədardır. Uşaqların əl əməyi bilavasitə oyunla bağlıdır. Uşaqlar öz bilik və düşüncələri əsasında nəinki hazır oyuncaq götürüb oynayırlar, onlar tədricən karton, kağız, ağac və s. təbii materiallardan oyuncaq düzəltmək bacarığına yiyələnirlər.Uşaqların iştirak etdikləri oyunların əksəriyyəti (“Siçan-pişik”, “Evcik-evcik” “Bənövşə” və s.) onların hərtərəfli inkişafına kömək edir.

Uşaqlar üçün oyun o vaxt maraqlı və cəzbedici olur ki, o, pedaqoji cəhətdən düzgün təşkil olunsun, məzmunu zəngin və rəngarəng olsun.

4. Yaradıcı oyun anlayışı süjetli-rollu, dramlaşdırılmış oyunu və tikinti-quraşdırıcı (konstruktor) oyunu əhatə edir. Süjetli-rollu oyunlar məktəbəqədər yaşlı uşaqlarla yaşlıların əlbir fəaliyyəti nəticəsində təşkil olunur. Bu oyunlar uşaqlarda müstəqillik, fəallıq yaratmaq və yaradıcılıqlarını formalaşdırmaq baxımından çox faydalıdır.

Süjetli-rollu oyunda təqlid güclü olur. Təqlid üzərində qurulan bu oyun uşaqları ətrafdakı həqiqətləri yaxşı öyrənməyə sövq edir. Süjetli-rollu oyunlarda təsəvvürlər də fəal iştirak edir. Oyunun süjeti müxtəlif həyati əlaqələrdən, motivlərdən yaranır. Uşaqlar çox vaxt yaşlıların rolunda çıxış etməyə can atırlar. Rolunu oynadığı yaşlıyaaid müəyyən əşya götürür və oyuna başlayır. Sürücü kimi oyuncaq avtomaşın götürür, tibb bacısı kimi termometri ələ alır. Uşaqlar ana, müəllim, təyyarəçi, həkim rollarında oynamağı çox sevirlər. Onlar oyunlarında ətrafda gördüklərinioldığu kimi əks etdirməyə çalışırlar. Yuxarı qrup uşaqları bağçada tərbiyəçinin, tibb bacısının, həkimin, aşpazın rolunu böyük “ustalıqla” yaradırlar. Rolda onların danışıq tərzi olduğu kimi əks etdirilir.

Süjetli oyun əqli tərbiyənin mühüm vasitəsi kimi özünü göstərir və belə oyunlar kollektiv xarakter daşıyır. Uşaq ətrafda baş verən hadisələri oyunda əks etdirərkən onun məzmununu daha yaxşı dərk edir, mühakimə yürütmək kimi qabiliyyətə sahib olur. Bu və ya digər fikri, təklifi müzakirə edir və nəticədə birgə qərara gəlirlər.

Kiçik məktəbəqədər yaşlı uşaqlara nisbətən böyük qrup uşaqlarında oyunun məzmunu get-gedə zənginləşir. Böyük qrup uşaqları balacalar kimi rolun təyinindən deyil, mövzunun seçilməsindən başlayırlar. "Nə oynayacağıq?", "Gəlin əsgər-əsgər oynayaq" – deyə müstəqil olaraq oyun seçirlər.

Oyun zamanı qurma və əmək işlərinə geniş yer verilməlidir. Tərbiyəçi qabaqca uşaqlara qurma vərdişləri aşılayır. Uşaqlar kuklalar üçün ev tikmək, maşını təmir etmək, təkərləri yerinə qoymaq və s. vərdişlərə yiyələnirlər. Tikinti-quraşdırma işlərinə aid uşaqların oyunları yaşlar üzrə sadədən mürəkkəbə doğru çətinləşdirilir. Tərbiyəçi uşaqlara rolları bölməkdə, rollar arasında əlaqə yaratmaqda kömək edir. Bu zaman uşaqlarda dialoqlu nitq, qarşılıqlı münasibət, hafizə daha yaxşı inkişaf edir.

5. Qaydalı mütəhərrik oyunlar hər xalqa mənsub olan milli koloritli oyunlardır. Onlar əsrlər boyu xalq tərəfindən və bəzən də uşaqların özü tərəfindən yaradılır. Nəsildən-nəslə keçən belə oyunlar əsasən folklordan qidalanır.

Qaydalı mütəhərrik oyunlar hazır məzmuna malik olur və ciddi ardıcıllıqla oynanılır. Bu oyunlarda uşaqların qarşısına müəyyən hərəkətlər – topu tutmaq, yoldaşa çatmaq, ritmik hərəkəti təkrar etmək və s. vəzifə qoyulur. Mütəhərrik oyunların adı da elə buradan irəli gəlir. Oyunlar fiziki, əqli və mənəvi tərbiyədə yüksək əhəmiyyət kəsb edir. Bu oyunlarda düşüncə və hərəkət üzvi surətdə bir-birilə bağlanır. Oyunlarda hərəkət və münasibət müəyyən qaydalarla tənzim olunur.

Mütəhərrik oyunlar məzmunca 2 qrupa bölünür: süjetli oyunlar və idman oyunlarına yaxın olan süjetli oyunlar. Süjetli oyunlar uşaqlara yaxın və maraqlıdır. Bu oyunların məzmunu müxtəlif olur: bəzilərində həyatdan götürülmüş hadisələr və adamlar (əsgərlər, təyyarəçilər, dənizçilər) göstərilir, digərlərində isə nağıllardan götürülmüş epizodlar oynanılır. Hər bir uşaq oyunun məzmununu və rolunu bilməlidir. Bəzi oyunlarda uşaq maneələri aradan qaldırmalı olur. Məsələn, meşədə ayıya yaxınlaşan uşaqlar onunla oynamaq istəyir, ayı onları tutur ("Ayı haqqında nağıl") . Süjetli oyunlar çeviklik, sürət, düşüncəlik və bacarıq tələb edən tapşırığın yerinə yetirilməsi üzərində qurulur. Məs., "Qaçdı-tutdu", "Gizlənpaç" və s.

Süjetli oyunlarda musiqi uşaqlara obrazı düzgün dərk etməkdə, bu obraza müvafiq hərəkət etməkdə kömək edir. Süjetli oyunlarda musiqi həmçinin uşaqların hərəkətlərini istiqamətləndirir, təşkil edir, siqnal vəzifəsini daşıyır. Mütəhərrik oyunlar uşağı öz davranışlarını idarə etməyə, hərəkətlərini nəzərdə tutulmuş məqsədə tabe etməyə, həyəcan və arzusunu gizlətməyə alışdırır.

Orta qrupda mütəhərrik oyunların məzmunu daha mürəkkəb olur. Növbəyə riayət etmək, hərəkətlərini başqalarının hərəkətləri ilə uyğunlaşdırmaq və s. belə oyunların məzmununu təşkil edir. Böyük qrupda mütəhərrik oyun qaydaları uşaqların nisbətən dərin şüurluluğuna, müstəqilliyinə, məsuliyyətinə əsaslanır. Tərbiyəçi keçirilən hər bir oyunun məzmununu, süjetin mahiyyətini uşaqlara başa düşəcəkləri tərzdə çatdırmalıdır.